RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 182 (9061) CÜMƏ, 26 avqust 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az



# Mehriban Əliyevanın milli və bəşəri missiyası

## - tarixi ənənələrlə müasir dəyərlərin vəhdətində



→ 3

# Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevaya



Hörmətli Mehriban Arif qızı.

Doğum gününüz münasibətilə ən səmimi təbriklərimi qəbul edin.

Siz dövlətlərimiz arasında bu il müttəfiqliyin yeni səviyyəsinə çıxan münasibətlərin möhkəmlənməsinə böyük şəxsi töhfə verirsiniz. Əminəm ki, bir çox istiqamətlər üzrə ikitərəfli konstruktiv əlaqələr, xalqlarımızın dostluğu bundan sonra da möhkəmlənəcək.

Hörmətli Mehriban Arif qızı, Sizə səmimi-qəlbdən möhkəm cansağlığı, xoşbəxtlik, rifah və uğurlar arzulayıram. Səmimi salamlarımı İlham Heydər oğluna və bütün ailənizə çatdırmağınızı xahiş edirəm.

*Hörmətlə,*

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

# “DƏMİR YUMRUQ” LAÇIN ŞƏHƏRİNDƏDİR



→ 4

# Azərbaycan-Koreya münasibətləri müxtəlif sahələrdə uğurla inkişaf edir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Koreya Respublikası Prezidentinin xüsusi nümayəndəsi, Busan şəhərinin "Ekspo - 2030" Ümumdünya Sərgisinə evsahibliyinə namizədliyini dəstək üzrə Xüsusi Komitənin sədri So Byoq Sunun başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinə Koreya Milli Assambleyasının üzvləri daxildirlər.

Dövlətimizin başçısı ölkələrimiz arasında siyasi və iqtisadi sahələrdə yaxşı təmasların mövcud olduğunu bildirərək, Koreya Parlamenti sədrinin Azərbaycana səfərini məmnunluqla xatırlatdı və So Byoq Sunun səfərinin də əməkdaşlığın möhkəmləndirilməsi işinə verdiyi töhfəni qeyd etdi.

Prezident İlham Əliyev Koreya şirkətlərinin uzun illər Azərbaycanda çox uğurla fəaliyyət göstərdiklərini, bir neçə önəmli sənaye layihəsini icra etdiklərini və inşaat sektorunda da çox fəal olduqlarını, Bakının bir neçə göydələninin memarlığının da Koreya şirkətləri tərəfindən təqdim edildiyini dedi.

Dövlətimizin başçısı siyasi və iqtisadi əlaqələrin daha da fəallaşmasının zəruriliyini bildirdi, parlamentlərarası əməkdaşlığın ikitərəfli münasibətlərin inkişafında rolunu vurğuladı.

Prezident İlham Əliyev 30 illik işğal dövründə ermənilərin torpaqlarımızda dağıntılar, vandallıq aktları törətdiklərini, şəhərlərimizi və kəndlərimizi tamamilə məhv etdiklərini bildirdi, hazırda həmin ərazilərdə Azərbaycanın genişmiqyaslı bərpa və yenidənqurma layihələrini həyata keçirdiyini dedi, Koreya şirkətlərinin müasir texnologiyalar vasitəsilə bu işlərə töhfə verə biləcəyini qeyd etdi.

So Byoq Sun Koreya Respublikasının Prezidenti Yun Sok Yolun salamlarını dövlətimizin başçısına çatdırdı. O, qeyd etdi ki, Koreya Prezidenti Azərbaycana böyük marağının olduğunu vurğulayıb.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Koreya Prezidentinə çatdırmağı xahiş etdi.

Bundan əvvəl 2009-cu ildə ölkəmizə səfər etdiyini bildirən So Byoq Sun paytaxtımızda gördükləri inkişaf proseslərinin onlarda böyük təəssürat hissi doğurduğunu dedi, Azərbaycanın qazandığı nailiyyətlərlə bağlı dövlətimizin başçısını təbrik etdi.

So Byoq Sun Prezident İlham Əliyevin ölkənin inkişafı naminə göstərdiyi böyük səyləri Koreyanın keçmiş prezidenti Park Çunq Hinin fəaliyyəti ilə müqayisə etdi. O dedi ki, Park Çunq Hi məhz xalqın gücünə güvənərək Koreyanı çox inkişaf etmiş ölkəyə çevirib.

Sonra So Byoq Sun Koreya Prezidentinin məktubunu dövlətimizin başçısına təqdim etdi.

# Azərbaycan-Tailand iqtisadi əlaqələrinin genişlənməsi üçün yaxşı potensial var



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Tailand Krallığının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Apirat Suqondhabhiromun etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, səfir Apirat Suqondhabhirom etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Azərbaycan-Tailand ikitərəfli münasibətlərinin çox yaxşı səviyyədə olduğunu qeyd edərək müxtəlif sahələrdə, xüsusən də Tailandda çox inkişaf edən turizm istiqamətində daha fəal şəkildə əməkdaşlığın həyata keçirilməsinin zəruriliyini bildirdi, texnologiya sahəsində əlaqələrin qurulmasının mümkünlüyünü vurğuladı. Azərbaycanda az sayda Tailand şirkətinin fəaliyyət göstərdiyini deyən dövlətimizin başçısı ölkələrimizin mövcud potensialı nəzərə alınaraq iqtisadi sahədə əlaqələrin genişlənəcəyinə ümidvar olduğunu dedi.

Azərbaycana gəlişindən məmnunluğunu ifadə edən Apirat Suqondhabhirom paytaxtımızın gözəlliyinin onda dərin təəssürat hissi yaratdığını söylədi. Səfir də öz növbəsində Azərbaycan ilə Tailandın mövcud potensialını qeyd edərək, müxtəlif istiqamətlərdə, o cümlədən turizm sahəsində əməkdaşlığın genişləndirilməsi və insanlarımız arasında əlaqələrin qurulması istiqamətində səylərini əsirgəməyəcəyini bildirdi.

Söhbət zamanı qida məhsullarının emalı sahəsində əməkdaşlıq məsələlərinə də toxunuldu.

# Bosniya və Herseqovina Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazi bütövlüyünü müdafiə etməsini dəstəkləyir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Bosniya və Herseqovinanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Adis Alagiçin etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Adis Alagiç etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

İkitərəfli əlaqələrə toxunan dövlətimizin başçısı Bosniya və Herseqovinanın rəhbərləri, o cümlədən Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri Şefik Caferoviçlə görüşlərini məmnunluqla xatırladı və ona salamlarını çatdırmağı xahiş etdi. Prezident İlham Əliyev bu görüşlərdə çox səmimi və səmərəli müzakirələrin aparıldığını dedi.

Dövlət başçısı Ermənistanın işğalı zamanı və Qarabağın azad edildiyi dövrdə Bosniya və Herseqovinanın Azərbaycanın yanında olmasını yüksək qiymətləndirdi və bunu ikitərəfli münasibətlərimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirdi. Prezident İlham Əliyev eyni zamanda beynəlxalq təşkilatlar, o cümlədən BMT, İslam Əməkdaşlıq Təşkilatında da göstərilən qarşılıqlı dəstəyin önəmini qeyd etdi.

Səfir ilk növbədə Bosniya və Herseqovina rəhbərliyinin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Bosniya və Herseqovina rəhbərliyinə çatdırmağı xahiş etdi.

Azərbaycana səfir təyin olunmasından qürur duyduğunu qeyd edən Adis Alagiç fəaliyyəti dövründə əlaqələrimizin daha da genişləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini dedi.

Səfir vurğuladı ki, ölkəsi Azərbaycanın beynəlxalq hüquq normalarına uyğun olaraq öz ərazi bütövlüyünü müdafiə etməsini və Qarabağın uğurla bərpa olunmasını dəstəkləyir. O, ötən il Ağdama, yaxın günlərdə isə Şuşaya planlaşdırılan səfərindən məmnunluq hissi duyduğunu bildirdi. Adis Alagiç ölkələrimiz arasında çox güclü siyasi əlaqələrin ümumilikdə ikitərəfli münasibətlərimizə olduqca müsbət təsir etdiyini dedi. Diplomat ölkəsinin ikitərəfli və çoxtərəfli səviyyədə əlaqələrimizin daha da möhkəmləndirilməsində maraqlı olduğunu qeyd etdi.

# Dominikan Qoşulmama Hərəkatında Azərbaycanın Qarabağla bağlı haqlı mövqeyini dəstəkləyən ölkədir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev avqustun 25-də Dominikan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Elvis Antonio Alam Loranın etimadnaməsini qəbul edib.

AZƏRTAC xəbər verir ki, Elvis Antonio Alam Lora etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ikitərəfli əlaqələrə toxunaraq, İkinci Qarabağ müharibəsi dövründə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı siyasi hücumlar fonunda BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi Dominikan Respublikasının ölkəmizə göstərdiyi dəstəyi yüksək qiymətləndirdi. Prezident İlham Əliyev qeyd etdi ki, Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etmək hüququnun BMT Təhlükəsizlik Şurasının bəzi üzv dövlətləri tərəfindən pozmaq cəhdinin qarşısı Dominikan Respublikası və Təhlükəsizlik Şurasına üzv olan bir sıra dövlətlərin qəti mövqeyi sayəsində alınıb. Dövlətimizin başçısı eyni zamanda Dominikanın Qoşulmama Hərəkatında da Azərbaycanın Qarabağla bağlı haqlı mövqeyini dəstəkləyən bir ölkə olduğunu məmnunluqla vurğuladı. Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin uzadılması, COVID-19-la, həmçinin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin və Gənclər təşkilatının yaradılması ilə bağlı təşəbbüslərinin Dominikan tərəfindən dəstəklənməsini yüksək qiymətləndirdi.

Dövlət başçısı ölkələrimiz arasında əlaqələrin çox yaxşı səviyyədə olduğunu dedi, eyni zamanda ticari və iqtisadi sahələrdə əməkdaşlığın genişlənməsi yollarının da müəyyənləşdirilməsinin zərurliyini bildirdi.

Səfir ilk növbədə Dominikan Respublikasının Prezidenti Luis Abinaderin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Dominikan Prezidentinə çatdırmağı xahiş etdi.

Səfir qeyd etdi ki, Azərbaycan kimi çox gözəl ölkəyə səfərindən və Dominikanın Azərbaycana ilk səfiri təyin olunmasından məmnunluq duyur. Elvis Antonio Alam Lora ölkəmizlə ticarət, turizm sahələrində və digər sahələrdə dinamik əlaqələrin qurulacağına ümidvar olduğunu vurğuladı.

## Ələt azad iqtisadi zonasının fəaliyyətinin təmin edilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Ələt azad iqtisadi zonasının yaradılması və fəaliyyətinin təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 22 may tarixli 1032 nömrəli Fərmanının 3-cü hissəsinə əsasən, Bakı şəhəri Qaradağ rayonunun inzibati ərazisində yerləşən və Ələt azad iqtisadi zonasının ərazisi qismində müəyyən edilmiş torpaq sahəsinin ilkin mərhələdə bu Sərəncamın əlavəsindəki yerquruluşu planında göstərilmiş, dövlət mülkiyyətinə aid 60,0 hektar təşkil edən hissəsi birdəfəlik, əvəzsiz və daimi istifadə hüququ ilə Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumuna verilsin.

2. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Ələt azad iqtisadi zonasının səlahiyyətli qurumu bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2022-ci il*

## Qax rayonunun Qaxbaş kəndi ərazisində avtomobil yollarının yenidən qurulması ilə bağlı tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Qax rayonunun Qaxbaş kəndi ərazisində avtomobil yollarının yenidən qurulması məqsədilə Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə 687,0 (altı yüz səksən yeddi) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2022-ci il*

## F.R.Ağamalının 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının ictimai-siyasi həyatında uzunmüddətli səmərəli fəaliyyətinə görə Fəzail Rəhim oğlu Ağamalı 2-ci dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 avqust 2022-ci il*

# Koreya Respublikası Prezidentinin xüsusi nümayəndəsi işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə məlumatlandırılıb

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Koreya Respublikasının Prezidentinin xüsusi nümayəndəsi So Byoq Sunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Nümayəndə heyətinə So Byoq Sun ilə yanaşı, Koreya Milli Assambleyasının komitə sədrləri və üzvləri daxildir.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Ceyhun Bayramov qonaqları salamlayaraq Azərbaycanla Koreya arasında mövcud olan ikitərəfli münasibətlərin uğurlu inkişafını, həmçinin iki ölkə arasında bir çox sahələrdə geniş əməkdaşlıq imkanlarının mövcud olduğunu bildirib. Nazir bu il diplomatik münasibətlərimizin 30 illiyinin qeyd olunduğunu və ölkələrimiz arasında artan siyasi dialoqun, qarşılıqlı səfərlərin, ötən ay nazir müavinləri səviyyəsində Koreyada siyasi dialoqun münasibətlərin daha da inkişaf etdirilməsi baxımından vacibliyini qeyd edib. Parlamentlərarası münasibətlərin əhəmiyyət daşıdığı, bu çərçivədə, Koreya Parlamentində Azərbaycan-Koreya Dostluq Qrupunun rəhbəri kimi So Byonq Sunun səylərindən məmnunluq ifadə olunub. Nazir iqtisadi sahədə əməkdaşlığın daha da inkişaf etdirilməsinin vacibliyini və bu xüsusda Azərbaycan və Koreya arasında iqtisadi əməkdaşlıq üzrə Birgə Komissiyanın fəaliyyətini vurğulayıb. Koreya Respublikası ilə ölkəmiz arasındakı alternativ enerji resursları, işğaldan azad edilmiş ərazilərdə dağ-mədən sənayesi və sair yeni istiqamətlər üzrə əməkdaşlıq perspektivlərinin olduğu diqqətə çatdırılıb. O, eyni zamanda ölkələrimiz arasında təhsil sahəsində artan əməkdaşlığın, Koreya təhsil standartları əsasında yaradılmış Sənaye və İnnovasiyalar Bakı Dövlət Peşə Təhsil Mərkəzinin fəaliyyətinin, universitetlər arasında ikili diplom təhsil proqramlarının ölkələrimiz arasında artan əməkdaşlığın vacib istiqamətlərindən olduğunu bildirib.

So Byoq Sun iki ölkə arasında əlaqələrin uğurlu inkişafını qeyd edib, Azərbaycan və Koreya arasında siyasi, iqtisadi, təhsil, energetika, informasiya texnologiyaları, investisiya və digər sahələrdə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivlərinə toxunub. O, Azərbaycan Prezidenti İlham Əliyevlə keçirdiyi görüşü məmnunluqla diqqətə çatdıraraq, görüş zamanı gələcək əməkdaşlıq planlarına dair əsas prioritet məsələlərin müzakirə olunduğunu və bunun ölkələrimiz arasındakı əməkdaşlığın yeni mərhələyə yüksəlməsinə təkan verəcəyinə inamını ifadə edib. O, 2009-cu ildə Parlamentin Azərbaycan-Koreya Dostluq Qrupunun rəhbəri qismində ölkəmizə səfərini xatırlayaraq, o zamandan bəri ölkəmizin necə inkişaf etdiyinin şahidi olduğunu, Koreya tərəfinin ölkəmiz ilə elektron hökumət, alternativ enerji, kənd təsərrüfatı, təhsil, "ağıllı şəhərlərin" yaradılması istiqamətində əməkdaşlıqda marağını vurğulayıb.

Nazir daha sonra 44 günlük Vətən müharibəsi nəticəsində işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

Görüşdə həmçinin dövlətlərimizin beynəlxalq təşkilatlarda və platformalarda qarşılıqlı dəstək kimi məsələlərə diqqət yetirilib, qarşılıqlı maraq doğuran sahələr ətrafında fikir mübadiləsi aparılıb.

# Mehriban Əliyevanın milli və bəşəri missiyası

## - tarixi ənənələrlə müasir dəyərlərin vəhdətində



Əsrlərdir ki, bəşəriyyətin tərəqqisinə, xalqların intibahına və yüksəlişinə, dövlətlər və millətlərarası münasibətlərin inkişafına, sivilizasiyalar arasında dialoqun təmin olunmasına xidmət edən mütərəqqi ideyaların və fenomenal şəxsiyyətlərin fəaliyyətinin önəmindən söz açılır. Tarixi təcrübə, müxtəlif mənbələr milli maraqlarla ümumbəşəri dəyərlərin vəhdətini yaratmış, ənənələrlə müasir dəyərlərin ahəngini təmin etmiş şəxsiyyətlərin həm öz xalqları və dövlətlərinin tərəqqisi üçün töhfələrini, həm də bəşəriyyətin keçmişi ilə gələcəyi arasında mənəvi-siyasi körpü yaratmalarını təsdiq edir.

Təqdirəlayiq haldır ki, zəngin dövlətçilik tarixinə, bəşəri sərvət kimi dəyərləndirilən mənəvi dəyərlərə, unikal mədəni irsə və qabaqcıl təcrübəyə malik olan Azərbaycan xalqı da bu kontekstdə fərqlənməyi, dünyaya parlaq nümunələr təqdim etməyi bacarıb. Xalqımıza möhtəşəm tarixi nailiyyətlər qazandıran, dövlətimizi inkişaf və Zəfər zirvəsinə yüksəldən qüdrətli liderlərin - Ümummilli Lider Heydər Əliyevin və Prezident İlham Əliyevin qətiyyətli siyasəti bu reallığı təmin və mümkün edən əsas amildir. Ulu Öndər Heydər Əliyevin yaratdığı ənənələr və müzəffər lider İlham Əliyevin yaşatdığı dəyərlər milli maraqlarımızın etibarlı müdafiəsi, Azərbaycanın gələcəyinin təminatıdır. Bununla yanaşı, Birinci vitse-prezident, YAP Sədrinin birinci müavini, Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəaliyyəti milli və bəşəri dəyərlərə sadiqlik nümunəsi, güclü və nüfuzlu dövlətimizin dünyaya təqdimatı, xalqımızın yaradıcılıq və quruculuq əzminin nümayişidir.

Ümumiyyətlə, Mehriban xanım Əliyevanın ictimai-siyasi portretinin cizgilərinə və fəaliyyətinin mənəvi-siyasi əsaslarına nəzər saldıqda görürük ki, o, həm milli, həm də bəşəri missiyanın daşıyıcısıdır. Fəaliyyəti xalqının ali mənafeyinin, ölkəsinin dövlətçilik maraqlarının müdafiəsi ilə məhdudlaşmır, ümumbəşəri mahiyyət, qlobal məzmun daşıyır, insan amilinə, humanizm və vətənpərvərlik prinsiplərinə söykənir. Daha dəqiq desək, Mehriban xanım Əliyeva bu günə qədər müxtəlif vəzifələrdə uğurlu fəaliyyət göstərməklə Azərbaycanın tərəqqisində, beynəlxalq müstəvidə nüfuzunun artmasında, hədəflərin reallaşdırılmasında, milli maraqların qorunmasında, bəşəri dəyərlərin təbliğində və təşviqində müstəsna rol oynayıb. O, bu gün də Azərbaycana tarixi nailiyyətlər qazandıran çoxşaxəli fəaliyyətini inamla və əzmlə davam etdirir.

Faktlara nəzər yetirdikdə Mehriban xanım Əliyevanın nümunəvi ictimai-siyasi obraz yaratdığını, xalqımızı şərəflə və ləyaqətlə təmsil etdiyini, xalqın rifahına, ölkənin firavanlığına hədəflənən, Azərbaycanın gücünün artmasına imkan verən işlər gördüyü məlum olur:

- Əvvəla, Mehriban xanım Əliyeva Milli Məclisin deputatı kimi inam və etimadı doğruldub, yeni standartlar və mütərəqqi örnək yaradıb. O, parlamentdə seçiciləri layiqincə təmsil etməklə vətəndaş-dövlət münasibətlərinin möhkəmlənməsinə, ictimai həmrəyliyin, milli birliyin güclənməsinə müstəsna töhfələr verib. Birinci xanımın təşəbbüsü ilə bir çox sosial məsələlərin həlli istiqamətində zəruri işlər görülüb. Amnistiya təşəbbüsləri ilə çıxış etməsi, xeyriyyə aksiyalarının keçirilməsi və digər mühüm işlər xüsusi qeyd edilməlidir. Təsadüfi deyil ki, Azərbaycan xalqı Mehriban xanım Əliyevanın Milli Məclisin deputatı kimi fəaliyyətini müsbət qiymətləndirib, seçiciləri ona bir neçə dəfə etimad göstəriblər;

- Mehriban xanım Əliyevanın ideya və təşəbbüsləri tarixi ənənələrin, milli-mənəvi dəyərlərin və dövlətçilik maraqlarının qorunmasını, yeni dəyərlərin təşəkkülünü təmin edib. Bu isə Azərbaycanın siyasi dayaqlarının möhkəmlənməsinə, bəşəriyyətin tarixi və mədəni irsinin zənginləşməsinə layiqli töhfə olub. Xüsusi qeyd etmək lazımdır ki, onun rəhbərliyi ilə Heydər Əliyev Fondu həm ölkəmizdə, həm də respublikamızın inzibati-coğrafi sərhədlərindən kənarda çoxşaxəli fəaliyyət göstərməklə ictimai, mədəni, humanitar nöqteyi-nəzərdən tarixi önəm daşıyan mühüm nailiyyətlərə imza atıb.

Müxtəlif sahələri əhatə edən məqsədyönlü tədbirlər həyata keçirən, səmərəli layihələr reallaşdıran fond həm ölkənin inkişafında, həm də Azərbaycan reallıqlarının dünya ictimaiyyətinə təqdim olunmasında əhəmiyyətli rol oynayır.

Ən əsası, Heydər Əliyev Fondu Ümummilli Liderin zəngin irsinin araşdırılması və bu irsin xalqımızın mənəvi sərvəti kimi gələcək nəsillərə çatdırılmasına müstəsna töhfələr verir. Bu, həm tariximizin taleyüklü məqamlarının öyrənilməsi, həm də Heydər Əliyev irsinin tədqiq və təbliğ olunması üçün vacib əhəmiyyətə malikdir.

Fondun Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması istiqamətində sistemli fəaliyyəti isə Prezident İlham Əliyevin hücum diplomatiyası siyasətinə və informasiya müharibəsində dövlətin mövqelərinin möhkəmlənməsinə inamlı, qətiyyətli və təsirli dəstəkdir. Heydər Əliyev Fondu erməni yalanlarının ifşası istiqamətində məqsədyönlü iş görüb. Tarixi faktların və mövcud reallıqların diqqətə çatdırıldığı təkmil internet resurslarının yaradılması, müxtəlif dillərdə geniş auditoriyaya istiqamətlənmiş təbliğat aparılması, hər il bir sıra ölkələrdə Xocalı faciəsinə həsr olunan konfransların, tədbirlərin keçirilməsi və digər addımlar sistemli fəaliyyətin tərkib hissəsidir.

Erməni vandalizminin iç üzünün açılmasında və Xocalı faciəsinin soyqırımı kimi tanıdılmasında isə Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət!" beynəlxalq kampaniyasının önəmli rolu var. Prezident İlham Əliyev bildirib ki, fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi: "Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir".

Milli mübarizəmiz hərb müstəvisində olduğu kimi, informasiya cəbhəsində də aparılır. Ona görə də bu istiqamətdə işlər ardıcıl olaraq - yeni dönəmin reallıqlarına və çağırışlarına uyğun davam etdirilir. İnformasiya müharibəsində Azərbaycanın mövqelərinin gücləndirilməsi üçün Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Qarabağ Dirçəliş Fondunun həyata keçirdiyi "Karabakh.Center" layihəsi xüsusi əhəmiyyətə malikdir. Bu, qlobal müstəvidə mövcud reallıqlara obyektiv baxışın əhatə dairəsinin genişləndirilməsi üçün zəruridir.

Eyni zamanda Heydər Əliyev Fondu genişmiqyaslı quruculuq fəaliyyəti ilə xalqımızın ümumbəşəri dəyərlərə, milli, dini və mədəni irsə sonsuz hörmətini ifadə edir. Fondun dəstəyi ilə Azərbaycanın müxtəlif guşələrində, eləcə də respublikamızın hüdudlarından kənarda məscidlər, kilsələr, sinaqoqlar təmir-bərpa edilir, yenidən qurulur. Bərpa işlərinin dini mənsubiyyətindən asılı olmayaraq bütün abidələri əhatə etməsi Heydər Əliyev Fondunun beynəlmiləl missiyasını, Azərbaycan xalqının tolerant və multikultural mahiyyətini əks etdirir. Avropanın bir sıra ölkələrində tarixi, dini, mədəni abidələrin bərpası bu kontekstdə ayrıca qeyd edilməlidir. Bununla yanaşı, bəşəriyyət üçün dəyərli əsərlərin qorunması, gələcək nəsillərə ötürülməsi istiqamətində işlərin görülməsi və digər addımlar Şərqlə Qərb arasında mənəvi körpü rolunu oynayan Azərbaycanın beynəlxalq miqyasda sivilizasiyalararası dialoqun inkişafına töhfəsidir, ölkəmizin humanitar sahədə ikitərəfli əlaqələrinin inkişafına müsbət təsir göstərir.

Yeni mərhələdə Heydər Əliyev Fondu yeni quruculuq missiyası ilə çıxış edir, şanlı, möhtəşəm və tarixi Zəfərimizin ictimai, mənəvi-siyasi və diplomatik müstəvidə möhkəmləndirilməsi ilə əlaqədar zəruri işlər görür. İşğaldan azad edilmiş ərazilərdə tarixi, dini abidələrimizin bərpası və inşası istiqamətində həyata keçirilən fəaliyyət bu kontekstdə xüsusi qeyd olunmalıdır. Azərbaycan xalqının öz keçmişinə sadiqliyi, gələcəyə inamlı baxışı, tarixi ənənələrə sahib çıxması və milli dəyərlər əsasında fəaliyyət göstərməsi, o cümlədən qurub yaratmaq, abad etmək əzmi bütün dünyaya nümayiş etdirilir.

Bütövlükdə Mehriban xanım Əliyevanın rəhbərliyi ilə Heydər Əliyev Fondunun irəli sürdüyü təşəbbüslər və reallaşdırdığı layihələr cəmiyyətin yaradıcı və elmi-intellektual potensialının artırılmasına maddi, mənəvi və təşkilati dəstəyin göstərilməsi, milli-mənəvi dəyərlərin qorunması, gənc nəslin tarixi ənənələr və milli dəyərlər əsasında tərbiyə olunması, vətənpərvərliyin və milli həmrəyliyin gücləndirilməsi, xeyirxahlıq, humanizm kimi ümumbəşəri və ali dəyərlərin təbliğinin həyata keçirilməsi və digər istiqamətlərdə səmərəli nəticələrin əldə olunmasını təmin edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir. Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır".

- Azərbaycanın müsbət beynəlxalq imicinin möhkəmləndirilməsi mühüm prioritetlərdəndir. Bunun üçün dövlət siyasəti ilə yanaşı, davamlı fərdi və ictimai təşəbbüslərin irəli sürülməsi faydalı, önəmli və zəruridir. Dövlətin beynəlxalq nüfuzunun qorunması və gücləndirilməsi üçün müxtəlif siyasi mexanizmlərdən istifadə olunur. Bu kontekstdə təsirli vasitələrdən biri də mədəniyyət diplomatiyasıdır.

Mehriban xanım Əliyevanın milli mədəniyyətimizin təbliği, mənəvi irsimizin qorunması, Azərbaycanın zəngin tarixi və mədəni mirasının dünya ictimaiyyətinə çatdırılması istiqamətində genişmiqyaslı fəaliyyəti bu baxımdan xüsusi əhəmiyyət daşıyır. 1995-ci ildə Mehriban xanım Əliyevanın təşəbbüsü ilə hazırda onun rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun, həmçinin 1996-cı ildə Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması məqsədilə Azərbaycan, ingilis və rus dillərində çap olunan "Azərbaycan - İrs" jurnalının təsis edilməsi, Heydər Əliyev Fondunun təşkilatçılığı ilə bir çox ölkədə xalqımızın milli-mənəvi dəyərlərinin, Azərbaycan xalqının zəngin mədəniyyət nümunələrinin tanıdılması ilə əlaqədar sərgilərin keçirilməsi kimi addımlar təkcə mədəniyyət hadisəsi deyil, eyni zamanda mənəvi-siyasi məzmuna və tarixi əhəmiyyətə malikdir.

Heydər Əliyev Fondunun dəstəyi ilə bir sıra ölkələrdən nüfuzlu sənət adamlarının, incəsənət xadimlərinin bir araya gəldiyi Qəbələ Beynəlxalq Musiqi Festivalının, eləcə də xalqımızın ənənəvi musiqi sənətinin dünya mədəni irsində layiqli yerini və rolunu nümayiş etdirən Beynəlxalq Muğam Festivalının keçirilməsi və digər addımlar Azərbaycanın beynəlxalq arenada təbliğinə geniş imkanlar yaradır. Qeyd edilənlərdən əlavə, UNESCO platformasından ölkəmizin müsbət və mütərəqqi simasının tanıdılmasında, zəngin mədəniyyətimizin təbliğində geniş istifadə olunur. Heydər Əliyev Fondunun prezidenti və UNESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın səmərəli fəaliyyətinin nəticəsində bu zamana qədər İçərişəhər, o cümlədən Şirvanşahlar Sarayı və Qız qalası, Qobustan qayaüstü rəsmləri, Xan sarayı ilə birgə Şəkinin tarixi mərkəzi UNESCO-nun Ümumdünya İrs Siyahısına daxil edilib. Həmçinin muğam və aşıq sənətimiz, "Kamança simli musiqi alətinin hazırlanması və ifaçılıq sənəti", "Dədə Qorqud irsi", Azərbaycan kəlağayı sənəti Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına salınıb. Həmçinin Azərbaycan UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyasına uğurla evsahibliyi edib. Eyni zamanda bir sıra ölkələrdə sərgilərin, mədəniyyət günlərinin keçirilməsi, görkəmli şəxsiyyətlərimizin abidələrinin ucaldılması fondun Azərbaycanın zəngin mədəniyyətinin dünyada tanıdılması işinə töhfələridir.

Azərbaycanın mədəniyyət paytaxtı və Qarabağın tacı Şuşanın işğaldan azad olunmasından sonra "Xarıbülbül" festivalının, Vaqif Poeziya Günlərinin yenidən keçirilməsi də milli sərvətimiz olan mədəni irsimizin təbliğ və təqdim olunmasına yönələn faydalı təşəbbüslər və aşkar reallıqdır. Bu, əslində, diplomatiyanın fövqündə dayanan fəaliyyətdir;

- Mehriban xanım Əliyevanın siyasi fəaliyyəti məzmun və mahiyyət etibarilə konkret hədəflərə istiqamətlənib və real nəticələr verir. İstiqamət və məqsəd bəllidir - dövlətçilik maraqlarının, xalqın mənafeyinin qorunması, milli həmrəyliyin gücləndirilməsi və s. Bu fəaliyyətin mühüm tərkib hissələrindən biri qurucusu Ümummilli Liderimiz Heydər Əliyev olan Yeni Azərbaycan Partiyası çərçivəsində görülən işlərdir. İnkaredilməz həqiqətdir ki, zəngin və şərəfli yol keçən, Azərbaycanın tərəqqisinə, milli məqsədlərin gerçəkləşdirilməsinə və strateji hədəflərə çatmasına layiqli töhfələr verən Yeni Azərbaycan Partiyasının tarixi müstəqil Azərbaycan dövlətinin inkişaf salnaməsidir. Partiyamızın nailiyyətləri xalq-lider birliyinin, ictimai-siyasi monolitliyin ifadəsi, Heydər Əliyev ideyaları üzərində təşəkkül tapan reallıq, Prezident İlham Əliyevin siyasətinin nəticəsidir. Ümummilli Liderimizin siyasi mirası və milli dövlətçiliyin siyasi dayağı olan YAP bu günə qədər öz üzərinə düşən vəzifələri yerinə yetirib, tarixi təşəbbüslərə və müvəffəqiyyətlərə imza atıb. Bu gün də xalqın mənafeyinə və dövlətin maraqlarına xidmət edən siyasi missiyasını uğurla davam etdirir. Başqa sözlə, Yeni Azərbaycan Partiyası inkişaf edir, islahatlar yolu ilə özünü yeniləyir. Xüsusilə də, partiyanın qurultaylarında qəbul edilən qərarlar həm təşkilati, həm də siyasi-ideoloji işin səmərəliliyinin artırılması, qarşıya qoyulan hədəflərin reallaşdırılması baxımından mühüm önəm daşıyır.

Xüsusi qeyd etmək lazımdır ki, Mehriban xanım Əliyevanın partiyanın 2013-cü ildə keçirilmiş V Qurultayında YAP Sədrinin müavini seçilməsi, 2021-ci il mart ayının 5-də baş tutmuş VII Qurultayında isə YAP Sədrinin birinci müavini təyin olunmasından sonra görülən işlər Yeni Azərbaycan Partiyasının ölkə daxilində və beynəlxalq aləmdə nüfuzunun daha da artmasını, yeni nailiyyətlər qazanmasını təmin edib;

- Prezident İlham Əliyevin 2017-ci il 21 fevral tarixində imzaladığı sərəncama əsasən, Mehriban xanım Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti təyin olunması onun gördüyü işlərin real nəticəsidir. Mehriban xanım Əliyevanın Birinci vitse-prezident kimi səmərəli fəaliyyəti Azərbaycanın ardıcıl uğurlar əldə etməsini şərtləndirib, ölkəmizin qarşısında yeni perspektivlər açılıb. Bu, inkişafın yeni mərhələsinə qədəm qoymaq və gələcək hədəflərə doğru əmin addımlarla irəliləmək üçün önəmli zəmindir.

Birinci vitse-prezidentin təşəbbüsü ilə ötən müddət ərzində görülən işlər ölkəmizdə həyata keçirilən dövlət siyasətinin mərkəzində insan amilinin, vətəndaşın rifahının və mənafeyinin dayandığını, sosial ədalət prinsipinin əsas götürüldüyünü bir daha təsdiqləyir. Xüsusilə də məcburi köçkünlərə, qaçqınlara, şəhid ailələrinə, müharibə veteranlarına, qazilərə, aztəminatlı ailələrə, erməni vandalizmindən, müharibədən əziyyət çəkən digər kateqoriyadan olan insanlara dəstək göstərilməsi və bu kimi digər addımlar Mehriban xanım Əliyevanın öz vədinə - Vətənə, xalqa və dövlətə sədaqətlə xidmət sözünə əməl etdiyini növbəti dəfə sübuta yetirib. Bu gerçəkliklər onun humanizm və vətənpərvərlik prinsiplərinə əsaslanan çoxşaxəli fəaliyyətinin milli mənafelərin qorunmasına yönəldiyini göstərir.

Mehriban xanım Əliyeva "İnam və səmimiyyət olan yerdə yaradıcılıq əzmi xariqələr yaratmağa qadirdir", - deyə söyləyib. Bəli, Azərbaycanın birinci xanımı ölkə daxilində unikal layihələr reallaşdırdığı kimi, eyni inam və səmimiyyətlə Azərbaycandan kənarda da yaradıcılıq - quruculuq əzmi nümayiş etdirir, müstəsna mədəni-mənəvi, ictimai-siyasi və tarixi önəm daşıyan işlər görür, ilklərə və nailiyyətlərə imza atır.

Təsadüfi deyil ki, adı xeyirxahlıq, vətənpərvərlik anlayışları ilə assosiasiya olunan, milli və bəşəri dəyərlərə bağlılığı ilə fərqlənən, ictimai-siyasi obrazı nümunəvi xarakter daşıyan Mehriban xanım Əliyevanın fəaliyyəti təkcə ölkəmizdə deyil, beynəlxalq miqyasda da yüksək dəyərləndirilir. Müxtəlif mənbələrə nəzər saldıqda ayrı-ayrı dövlətlərin rəsmilərinin, nüfuzlu siyasətçilərin, tanınmış ictimai xadimlərin, alimlərin, tədqiqatçıların Mehriban xanım Əliyevanın milli məzmunlu, qlobal əhəmiyyətli fəaliyyətini ifadə və təqdir edən fikirlərinə rast gəlirik.

Paralel olaraq bir çox mükafatlarla təltif olunması - Azərbaycanın ən ali dövlət mükafatı olan "Heydər Əliyev" ordeninə, həmçinin bir sıra dövlətlərin və təşkilatların nüfuzlu təltiflərinə layiq görülməsi Mehriban xanım Əliyevanın yüksək ideallara əsaslanan, mütərəqqi ideyaları və çağırışları özündə ehtiva edən, bəşəriyyətin təmənna və gözləntilərinə adekvat cavab verən fəaliyyətinin məzmun və mahiyyət etibarilə həm milli, həm də beynəlmiləl xarakter daşıdığını bir daha təsdiqləyir.

*Şübhəsiz ki, dövlət adamı, siyasətçi, ictimai-siyasi xadim üçün ən böyük üstünlük ictimaiyyətin güclü dəstəyidir və bu dəstəyə söykənərək cəmiyyətin, dövlətin inamını, etimadını doğrultmaqdır. Mehriban xanım Əliyeva buna müvəffəq olub. Xalqın dərin rəğbəti, tükənməz sevgisi, sarsılmaz inamı və güclü etimadı mənəvi-siyasi sərvət kimi Mehriban xanım Əliyevaya fəaliyyətini inamla və əzmlə davam etdirməyə imkan və stimul verir - qalib dövlətin yeni zirvələr fəth etməsi, suverenliyimizin rəmzi, dövlətimizin güc, xalqımızın isə qürur mənbəyi olan üçrəngli bayrağımızın ən uca məqamda - müstəqillik və Qələbə zirvəsində əbədi dalğalanması üçün və daha güclü Azərbaycan naminə!*

***Tahir BUDAQOV,***
***Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri***

# "DƏMİR YUMRUQ" LAÇIN ŞƏHƏRİNDƏDİR




Daha ermənilər heç kəsi təəccübləndirə bilmirlər...

"Erməni soyqırımı" deyib ağladılar, boşa çıxdı.

Özlərinə "məzlum", "zavallı millət" söylədilər, Qarabağdakı və Şərqi Zəngəzurdakı vəhşiliklərini bütün dünya görüb bildi!

"Məğlubedilməz xalq", "məğlubedilməz millət" mifi yaratmaq istədilər, "dəmir yumruq" başlarını əzib, bellərini qırdı, Ermənistan ordusunun qorxaqlar və fərarilər dəstəsi olduğunu bütün dünyaya nümayiş etdirdi!

İndi isə İrəvandan "qaçqın statusu" almaq üçün ağlaşma qururlar.

Laçın şəhərini də "quzu balası" kimi tərk edəndən sonra daha deməyə sözləri, işlətməyə hiylələri qalmayıb!

❖ ❖ ❖

**Fikrimizcə, 44 günlük Vətən müharibəsinin ən "uğurlu kadrı" Kəlbəcərdə evlərin yandırılması fonunda yaşlı bir erməninin unitazı bağrına basaraq maşına yükləməsi oldu!**

**Bu kadr Qarabağda qanunsuz məskunlaşmış ermənilərin köçünün simvoluna çevrilib!**

*Bu o deməkdir ki:*

- Ermənilərin məişətdə ən çox sevdikləri əşya unitaz olub!
- Ermənilər Kəlbəcərə gələnə qədər unitazın nə olduğunu bilməyiblər, yalnız Azərbaycan torpağında görərək ona vurulublar.
- Azərbaycan xalqının alın təri, əl qabarı ilə tikdiyi, ermənilərin 27 il yaşadıqları ev onlar üçün dəyərli deyil, odur ki, yandırıb gedirlər...
- İtilib gedəndə isə murdarlıqlarının simvolu olan unitazı da özləri ilə aparırlar.
- Deməli, həm torpaqlarımızı təmizləmiş olurlar, həm də murdarlıqlarından heç cürə ayrılmırlar.
- Bunun bir mənası da odur ki, erməni murdarlığı hələ də davam edir, odur ki, "dəmir yumruq" daim hazır vəziyyətdədir.

❖ ❖ ❖

**Bəli, Azərbaycan qanunlarını qəbul etmək, onlara tabe olmaq istəməyən ermənilər birdəfəlik rədd olurlar!**

**Qalanlar isə nə status görəcəklər, nə müstəqillik, nə də xüsusi bir imtiyaz!**

**Azərbaycanda digər yaşayanlar necə, onlar da elə!**

**Seçim özlərinindir!**

Amma bu gedişin artıq ənənəyə çevrilmiş yeni forması da yaranıb:

Əvvəlcə, "özünümüdafiə ordusu" asıb-kəsir, bizə "ciddi zərbələr" endirəcəklərindən danışaraq lovğalanırlar.

Sonra Rusiya Sülhməramlı Qüvvələrinin arxasında dayanaraq sistemli şəkildə atəşkəsi pozur, tələfat verməyə çalışırlar!

*Komando və "Bayraqdar" hərəkətə başlayanda isə girməyə deşik axtarır, silah-sursatlarını töküb qaçırlar!*

*SONUNCU "Qisas" əməliyyatında olduğu kimi...*

*Laçından isə üçtərəfli Bəyanatdakı razılaşmaya görə çıxdılar!*

Düzdür, onlardan olsaydı, hələ gələn ilin yazına qədər qalmaq istəyirdilər, lakin "dəmir yumruq" bu istəyin üstündən çalın-çarpaz xətt çəkdi.

## BAŞLARININ DAŞI DA BİZİK, BAŞDAŞILARI DA BİZDƏNDİR

Ermənilər qanunsuz məskunlaşdıqları Laçın şəhərindən köçərkən öz qəbirlərini də dağıdır, içərisindəki sür-sümüyü götürərək aparırlar.

Təəccüblənmirik, əslində, belə də olmalıdır...

ÇÜNKİ...

Əvvəla, I Qarabağ müharibəsindən əvvəl heç zaman Laçında erməni yaşamayıb.

İndi dağıtdıqları qəbirlərdən götürdükləri sür-sümük işğal dövründə burada məskunlaşdırılan Suriya və Livandan olan gəlmələrə məxsusdur.

Düz də edirlər ki, əlləri ilə saldıqları qəbiristanlıqları özləri də dağıdırlar.

ONA GÖRƏ Kİ...

Birincisi, ermənilər qəbir dağıtmağa, goreşənliyə vərdiş ediblər.

İkincisi, özləri ilə sür-sümüyü ona görə aparırlar ki, sonradan gəlib qəbirlərə baş çəkə, üstlərinə çaxır tökə bilməyəcəklər.

Həm də axı hansı üzlə təzədən dağıtdıqları kəndlərə, yandırdıqları meşə və bağların ərazisinə qayıda bilərlər...

*Daha bir maraqlı məqam...*

Ermənilər 27 illik işğal dövründə Qarabağda və Şərqi Zəngəzurda bir dənə də salamat qəbir və qəbiristanlıq qoymayıblar.

Birincisi, yuxarıda qeyd etdiyimiz kimi, xislətləri belədir, goreşən millətdirlər!

İkincisi, tamahlarından bu addımları atıblar!

Həmin dövrdə işğal bölgəsindəki rayonlarda qəbirüstüləri götürülərdi.

İmkanı olan da, olmayan da özünü cəmləyərək qara mərmərdən ("qabro" daşından) başdaşı düzəltdirər, məzarların ətrafına dəmir çağ çəkdirərdilər.

Həmin erməni vandalları dəmir çağları "yaxın dostlarına" sataraq xeyli pul qazandılar.

"Qabro" mərmər daşlarının üzərinə çəkilən şəkilləri və kitabələri pozaraq özlərinə biznes qurdular.

*Azərbaycandan oğurlanan mərmər başdaşılarının böyük bir qismini Ermənistan dövləti öz qarətçilərindən satın alaraq müharibədə Azərbaycan Ordusunun cəhənnəmə vasil etdikləri erməni əsgərlərinin qəbirlərinə qoydular.*

Beləliklə, erməni diasporunun göndərdiyi pulun (ianələrin) bir qismini bu yolla mənimsəyib milyonlarını milyardlara çevirdilər.

Digər tərəfdən, "ədalət" də öz yerini tutmuş oldu.

**Oğru millətin yatdığı qəbrə qoyulan başdaşı da oğurluq olmalıdır də!**

**Ən əsası bu "ədalət"in böyük bir rəmzi mənası da var:**

**Sağlıqlarında ermənilərin başlarının daşı biz idiksə, öləndən sonra da başdaşıları bizdən oldu!**

*İstədikləri qədər daşımız altında yata bilərlər!*

❖ ❖ ❖

## ƏQRƏB VURMAĞA CANLI TAPMAYANDA ÖZÜ-ÖZÜNÜ SANCIR

İndi isə erməni köçü "tökə-tökə gəldiyini, yığa-yığa" gedir.

Kəlbəcərdən cəhənnəm olduqları kimi Laçın şəhərindən də çıxırlar.

Bu, Laçının ikinci dəfə qarət edilməsi, yandırılmasıdır.

Birinci dəfə bu, rayonun 1992-ci ildə işğalı zamanı baş vermişdir.

**Erməni silahlıları əhaliyə yır-yığışa, normal köçə imkan yaratmamışdılar.**

**Laçınlılar on saat ərzində əsrlərboyu yaşadıqları doğma yurd-yuvanı, ev-eşiyi tərk edib getməliydilər...**

Belə tələskənlik, əslində, qarətə və talana şərait yaradılmasına xidmət edirdi.

*Bəli, azərbaycanlılar qaçaraqda ən yüngül və zəruri şeylərini götürüb canlarını qurtarmaq üçün məchulluğa üz tutdular!*

*Ermənilər isə yaşayış məntəqələrinə soxularaq evləri, şəxsi mal-qaranı, minik maşınlarını talan edib mənimsəyərək sonra od vurdular.*

Beləliklə, həm də "məzlum millətin" vandal simasını nümayiş etdirdilər.

Bu gün isə Azərbaycan tərəfinin verdiyi gen-bol vaxtdan istifadə edərək yır-yığışa tələsmirdilər, nəsə bir hoqqa çıxararaq ayaqlarını sürüyürdülər.

Bəlkə də, erməni ağılları ilə elə düşünürdülər ki, yubansalar, özgə torpaqlarında həmişəlik qala biləcəklər...

**Sonda xislətləri əsl mahiyyətlərini yenidən üzə çıxardı!**

**Əqrəb vurmağa canlı tapmayanda özü-özünü sancır!**

**Yenə qarət etdilər, yenə yandırmağa başladılar.**

**Bu dəfə öz qəbirlərini qarət edib dağıtdılar.**

*Ölülərinin sümüklərini və başdaşılarını yığıb apardılar.*

*Sonra öz əlləri ilə özgə torpağında tikdikləri fərdi evlərini yandırdılar!*

*Əqrəblər kimi zəhərlərini özlərinə tökdülər.*

*Daha sonra ətrafdakı meşələrə od vurdular!*

Kəlbəcərdə də belə etmişdilər.

Ağaclardan qırıb apara bildikləri qədərini maşınlara yüklədikdən sonra qalan meşəni yandırmışdılar!

Bəli, meşəni özləri ilə daşıya bilmirlər!

Heç torpaq aparmağa da imkanları çatmır!

**Belə cənnətməkandan ayrılmaq isə onlarçün çox çətindir!**

**"Dəmir yumruğ"un qorxusundan getməyə məcburdurlar!**

**Bəli, murdarlıqlarını, xəbisliklərini və xislətlərini özləri ilə götürərək müqəddəs torpaqlarımızdan zorla ayrılaraq yoxsulluğa, dilənçiliyə, ümidsizliyə, dövlətsizliyə və məchulluğa doğru gedirlər!**

Bizə öz torpağımız lazımdır!

Şəhidlərimizin qanı, ordumuzun canı, baş sərkərdəmizin qüdrəti, xalqımızın dəyanəti sayəsində vandal işğalçıların başını əzərək torpaqlarımızdan qovuruq!

*Qarabağın, Şərqi Zəngəzurun torpağı, meşəsi, çayı, gölü, dağları, dərələri, çölçəməni bizimdir!*

*Onların qədrini biz bilirik!*

*Çünki biz yaradan, quran millətik!*

Bu gün torpağımıza yenidən sahib çıxdıq!

Düşmənin başını "dəmir yumruğ"umuzla əzdik!

Sabah isə Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə geri qaytardığımız torpaqları cənnətə çevirəcəyik!

Buna heç kəsin şübhəsi yoxdur!

## SAXTA GÖZYAŞI TÖKƏNLƏR

Təəsüf ki, Avropa mediası haxçıqlara qoşularaq onlarla bir yerdə gözyaşı tökür.

Nədənsə biz I Qarabağ müharibəsi dövründə bu gözyaşlarını bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün dədə-baba torpaqlarından zorla qovulduğu, soyqırımları törədildiyi dövrdə görmədik.

Bu gözyaşları erməni vandalları tərəfindən mina xəritələri (həqiqi xəritələr) verilmədiyindən iki yüzdən artıq azərbaycanlının öldüyü və ömürlük əlillik qazandığı zaman da görmürük.

Nədənsə bu gözyaşları boşaldılan kəndlərdə evlər yandırılarkən, meşələrə od vurulub ekologiya korlanarkən də görünmür.

*Mənbəyi ikili standartlardan başlanan belə saxta, qərəzli və qeyri-obyektiv gözyaşlarına inanmaq olarmı?!*

*Artıq Azərbaycan dövləti belə mövqeyə və ağlaşmaya vərdiş edib!*

**Nə beynəlxalq qurumlardan, nə beynəlxalq hüquqdan heç bir obyektivlik və kömək gözləmir.**

**Öz problemlərini özü həll edir:**

**Qalib Azərbaycan Ordusunun və "dəmir yumruğ"un köməyi ilə!**

❖ ❖ ❖

Əlqərəz...

Bu köç də belə getdi...

Azərbaycan dövlətinin alicənablığından, torpaqları tərk etmələri üçün verilən müddətdən ermənilər həmişəki kimi məkrli niyyətlə istifadə etdilər:

- quldur hərbçilər ərazilərə 2021-ci ildə Ermənistanda istehsal etdikləri minaları düzdülər;
- erməni dığaları yaşadıqları evlərə, meşələrə od vurub yandırdılar;
- haxçıqlar isə yalançı gözyaşları tökdülər.

Hər üç tərəf, əslində, öz mahiyyətini, milli mentalitetini əks etdirir.

*"Məzlum millət"in kişi cinsliləri mahiyyətcə vəhşi, barbar olduğunu, etibarsız və talançı, oğru simasını göstərir.*

*Qadınlar isə məkrlərini, dünyanı və dünyadakı kişiləri ələ almaq üçün göz yaşlarından məharətlə faydalana bildiklərini nümayiş etdirirlər.*

**Axı ermənilər bir yerə soxulmaq, özlərinə yer etmək üçün, adətən, qadınlardan istifadə edirlər.**

**Qadınlarını qabağa salırlar!**

Onların bu xislətini də unutmaq olmaz!

❖ ❖ ❖

Bəli, bu köç də belə getdi...

Biz insanlıq edərək onlara kifayət qədər yır-yığış vaxtı verdik...

Onlar isə öz erməniliklərindən qalmadılar: yandırdılar, oğurladılar, daşıdılar...

Bütün bunlara baxmayaraq, torpaqlarımız murdar ləpirlilərdən birdəfəlik təmizlənir!

Azərbaycan bayrağı Laçın şəhərində dalğalanır!

**Bəxtiyar SADIQOV**

# Böyük dayaq, sadiq silahdaş



Tarix sübut edib ki, bütün dövrlərdə Vətəni, xalqı üçün çalışan, təmənnasız xeyirxahlığı, humanistliyi həyat amalına çevirən şəxslərin ideyaları, xoş əməlləri gələcək nəsillər üçün nümunə olub. Həmin şəxslərin adları isə həm tarixə, həm də insanların könlünə, qəlbinə yazılıb. Keçdiyi mənalı ömür yolu, yüksək humanizmi, bənzərsiz ictimai fəaliyyəti ilə nəinki Azərbaycanda, eləcə də dünyada yüksək ehtiram sahibi olan ölkəmizin birinci xanımı, Birinci vitse-prezident Mehriban Əliyeva tariximizin şanlı salnaməsinə öz dəst-xəti ilə daxil olan belə şəxsiyyətlərdəndir.

Onun Vətənə xidmət fəlsəfəsinin təməlində xalqına sonsuz sevgi, Ulu Öndər Heydər Əliyev ideyalarına sarsılmaz inam və Prezident İlham Əliyevin müstəqil siyasətinə yüksək sədaqət hissləri dayanır. Xeyirxahlığına, yüksək bacarığına, diqqət və qayğısına görə hamının hörmətini, məhəbbətini qazanmış Mehriban xanım Əliyevanın ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır.

## Özünəməxsus və bənzərsizdir

Azərbaycanın birinci xanımı statusunu ləyaqətlə daşıyan Mehriban Əliyevanın fərdi portret cizgiləri zəngin, rəngarəng, özünəməxsus və bənzərsizdir. O, həm Azərbaycan qadınının layiqli obrazı - həm müasir və mütərəqqi düşüncəyə malik ictimai xadim, həm də humanizm, xeyriyyəçilik ənənələrini yaşadan müsbət obrazdır.

Mehriban xanım Heydər Əliyev Fondunun prezidenti, UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri kimi öz üzərinə düşən ictimai, siyasi, mədəni, humanitar və digər vəzifələri layiqincə yerinə yetirərək etalon yaradıb. O, Birinci vitse-prezident postunda vəzifə səlahiyyətlərini uğurla yerinə yetirməklə yanaşı, xeyirxah və müqəddəs missiyasını da davam etdirir. Humanizm Mehriban xanım Əliyevanın həyatından və fəaliyyətindən qırmızı xətt kimi keçir. O, yardıma ehtiyacı olanlara şəfqət, qayğı, diqqət və mərhəmət göstərir, kömək edir - dəstək verir, müsbət nümunə yaradır, ənənələrimizi yaşadır və gücləndirir.

Mehriban xanım Əliyevanın çoxşaxəli, uğurlu, səmərəli və nümunəvi fəaliyyəti həm ölkəmizdə, həm də beynəlxalq müstəvidə olduqca yüksək qiymətləndirilir. Dünya miqyasında elm xadimləri, ziyalılar, ictimai-siyasi xadimlər, dövlət adamları və digərləri Azərbaycanın birinci xanımının tarixi missiya yerinə yetirdiyini, bəşəriyyətin bugünkü inkişafına və gələcəyinə layiqli töhfə verdiyini ifadə edirlər.

Mehriban xanımın fəaliyyəti Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xətti uğurla tamamlayır və həmçinin ölkənin birinci xanımı fədakarlığı, mədəniyyətimizə, tariximizə, adət-ənənələrimizə bağlılığı ilə ən böyük mükafat olan ümumxalq sevgisinə layiq olduğunu sübut edir.

Xeyirxah əməlləri ilə xalqının sevimlisinə çevrilən Heydər Əliyev Fondunun rəhbəri Azərbaycan qadınına xas olan ən gözəl xüsusiyyətləri özündə cəmləşdirən nəciblik missiyasını şərəflə yerinə yetirir. UNESCO və ICESCO-nun xoşməramlı səfirinin ölkəmizin ictimai-siyasi və mədəni həyatındakı rolu mühüm, xidmətləri danılmazdır. Dünyada ikinci belə şəxsiyyət yoxdur ki, yuxarıda adları çəkilən iki mötəbər təşkilatın eyni zamanda səfiri olsun. Bu, Mehriban xanımın dinlərarası, sivilizasiyalararası dialoqa verdiyi yüksək töhfə ilə bağlıdır. Bu töhfə ölkəmizin siyasətinin təzahürüdür. Çünki Azərbaycan dünya miqyasında sivilizasiyalararası dialoqa ən çox töhfə verən ölkələrdən biri kimi tanınır.

## Genişmiqyaslı fəaliyyətin prioritet istiqamətləri

Mehriban Əliyeva uzun müddətdir ölkənin ictimai və siyasi həyatında ən aparıcı simalardan biri kimi tanınır. Onun deputatlıq fəaliyyəti dövründə də ölkə həyatının elə bir sahəsi olmayıb ki, oradakı problemli məsələlər diqqətindən kənarda qalsın. Mehriban xanım həmçinin bir sıra xarici ölkələrdə məktəb, xəstəxana, katolik və pravoslav kilsələri, sinaqoqların tikintisi, bərpasında köməyini əsirgəməyib.

Mehriban Əliyevanın rəhbərliyi ilə həyata keçirilən layihələr təhsil, səhiyyə, mədəniyyət və sosial sferaları, ekologiya, idman və sair sahələri əhatə edir. Onun təşəbbüsü ilə qəbul edilmiş amnistiya aktları sayəsində on minlərlə insan azadlığa qovuşub.

Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin dövlətçilik ideyalarından güc alan Mehriban xanım Əliyevanın humanizm və insanpərvərlik ideallarını rəhbər tutaraq reallaşdırdığı genişmiqyaslı layihələr onu xalqın sevimlisinə çevirib.

Ümummilli Lider Heydər Əliyevin miras qoyduğu irsin öyrənilməsi, təbliği və tətbiqində Mehriban xanım Əliyevanın 2004-cü ildən bəri rəhbərlik etdiyi Heydər Əliyev Fondunun xidmətləri müstəsna əhəmiyyət kəsb edir. Başqa sözlə, Azərbaycan xalqının rifahının yüksəldilməsinə yönəldilmiş təşəbbüsləri himayə etmək, ölkədə elm, təhsil, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə nail olmaq ölkənin birinci xanımının rəhbərlik etdiyi təşkilatın genişmiqyaslı fəaliyyətinin prioritet istiqamətlərini təşkil edir və geniş ictimaiyyət tərəfindən olduqca yüksək dəyərləndirilir.

Mehriban xanım Əliyeva Milli Olimpiya Komitəsinin və İcraiyyə Komitəsinin üzvüdür və bu istiqamətdə fəaliyyəti də həm yerli, həm də beynəlxalq ictimaiyyət tərəfindən ən yüksək qiymətə layiq görülüb. Ölkəmizdə keçirilmiş bir neçə qlobal tədbirin təşkilində Mehriban xanım Əliyeva xüsusi rol oynayıb.

Prezident İlham Əliyevin söylədiyi kimi, 2012-ci ildə "Avrovision" mahnı müsabiqəsinin yüksək səviyyədə keçirilməsi məhz Mehriban Əliyevanın təşkilatçılığı ilə mümkün olub. 2015-ci ildə Birinci Avropa Oyunlarının standartlarının müəyyənləşdirilməsi, 2017-ci ildə IV İslam Həmrəylik Oyunlarının təşkili və yüksək səviyyədə keçirilməsi də Təşkilat Komitəsinin və onun rəhbəri Mehriban Əliyevanın fəaliyyəti nəticəsində reallaşıb. Təsadüfi deyildir ki, ilk Avropa Oyunlarının keçirilməsində göstərdiyi xidmətlərə görə Mehriban Əliyeva Azərbaycan dövlətinin ən ali mükafatı olan "Heydər Əliyev" ordeni ilə təltif edilib.

## Ən layiqli seçim

2016-cı il ölkəmizin tarixinə dərin islahatlar ili kimi yazıldı. Bu islahatların müəllifi isə dünyada gedən siyasi prosesləri düzgün dəyərləndirərək milli maraqlarımız naminə tam müstəqil siyasət yürüdən Prezident İlham Əliyevdir. Məhz ən islahatçı Prezidentin təşəbbüsü ilə keçirilən ümumxalq referendumunda seçicilərin etimadı xalqın dövlət başçısına inamının əyani göstəricisi idi. Xalq İlham Əliyevin elan etdiyi islahatlar konsepsiyasına birmənalı dəstəyini nümayiş etdirdi.

Həmin ildə islahatların tərkib hissəsi kimi ölkəmizdə keçirilən ümumxalq referendumu ilə Konstitusiyaya dəyişikliklər edildi və Azərbaycanda yeni vitse-prezidentlik institutu yaradıldı. Eyni zamanda daha çevik idarəetmə mexanizmlərinin hüquqi bazası formalaşdırıldı. Yeni siyasi və iqtisadi islahatlar kursunun tərkib hissəsi olan dəyişikliklərin əsas mahiyyətini inzibati-hüquqi, ictimai-siyasi və sosial-iqtisadi sahələrdə keyfiyyət üstünlüyünü artırmaq, idarəçilik sistemini müasir çağırışlara cavab verən yönümdə təkmilləşdirmək təşkil edirdi.

Vitse-prezidentlik vəzifəsinin təsis edilməsinin məqsədi dövlət strukturlarının fəaliyyətində səmərəliliyin və çevikliyin yüksəldilməsini, vətəndaşlar qarşısında öhdəliyin daha keyfiyyətli icrasına nail olunmasını, məmur məsuliyyətinin gücləndirilməsini təmin etmək idi. Bu baxımdan cənab Prezident tərəfindən vitse-prezidentlik institutunun yaradılması təklifinin ciddi əsasları var idi.

Prezident İlham Əliyevin 21 fevral 2017-ci il sərəncamına əsasən Mehriban xanım Əliyevanın Birinci vitse-prezident təyin olunması heç də təsadüfi deyildi. Çünki Mehriban Əliyeva həm Milli Məclisin deputatı kimi, həm də Heydər Əliyev Fondunun rəhbəri olaraq ölkə daxilində və beynəlxalq arenada mühüm layihələr həyata keçirirdi. Milli Məclisin deputatı olduğu zamanlar mütəmadi olaraq seçicilərlə görüşlər keçirir, onların qayğıları ilə maraqlanır, rəy və təkliflərini öyrənib, sosial problemlərinin həlli istiqamətində müvafiq tədbirlər görürdü. Seçicilərin dərin hörmət və rəğbətini qazanan Mehriban xanım Əliyeva parlamentdə dövlətimizin və xalqımızın maraqlarından çıxış edərək bir sıra vacib qanunların qəbul olunmasında yaxından iştirak edirdi. Bununla bərabər, Azərbaycanın ictimai-siyasi, mədəni həyatında fəal rol oynayır, təhsil, səhiyyə, mədəniyyət, incəsənət sahəsində həyata keçirdiyi layihələr bu istiqamətlərin inkişafına əvəzsiz töhfə verirdi. Həmçinin Azərbaycan həqiqətlərinin, mədəniyyətinin dünyaya tanıdılması istiqamətində gördüyü işlər beynəlxalq aləmdə böyük əks-səda doğurur, bu layihələr Azərbaycanın dünyadakı mövqeyini daha da möhkəmləndirir, ölkəmizin qədim mədəni-tarixi köklərə malik olduğunu sübuta yetirirdi.

Vətəninə sonsuz sevgisi, milli-mənəvi dəyərlərə dərin hörməti, ölkənin ictimai-siyasi həyatındakı xidmətləri, xalqa olan tükənməz sevgisi onun ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunmasını şərtləndirən əsas amillər idi. Artıq beş ildir ki, bacarıqlı siyasi fəaliyyəti, yüksəksəviyyəli təşkilatçılıq məharəti, özünəməxsus idarəçilik xüsusiyyətləri, humanist yanaşma tərzi sayəsində Mehriban xanım Əliyeva bu vəzifənin öhdəsindən ləyaqətlə gəlir.

## Beş ildə reallaşan böyük sosial layihələr

Birinci vitse-prezident vəzifəsində öz fəaliyyətini dövlətə, xalqa xidmət prinsipləri əsasında quran Mehriban xanım Əliyevanın bu dövrdə irəli sürdüyü və icrasına birbaşa rəhbərlik etdiyi layihələrin hər biri sosialyönümlüdür. Bu 5 illik dövrə nəzər yetirsək, onun ölkəmiz, xalqımız adına çox böyük işlərin görüldüyünə şahidlik etmiş olarıq.

Həmin dövrdə torpaqlarımız işğal altında idi. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri də ölkə əhalisinin ən həssas təbəqəsi olan, doğma yurdlarından didərgin salınmış soydaşlarımıza diqqət və qayğı, onların qarşılaşdıqları problemlərin aradan qaldırılması idi. Bu istiqamətdə Mehriban Əliyevanın gördüyü işlər əvəzsiz qiymətləndirilməlidir. Onun Birinci vitse-prezident təyin edildikdən sonra ilk görüşünü 2017-ci il martın 9-da keçmiş məcburi köçkünlərlə keçirməsi də bu qəbildən olan insanlara həssas yanaşmanın bariz nümunəsi sayılır.

Birinci vitse-prezident kimi ilk görüşündə Mehriban xanım Əliyeva müvafiq dövlət qurumu qarşısında konkret vəzifə də müəyyən etdi. Bildirdi ki, Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan bütün məcburi köçkün ailələri tezliklə yeni mənzillərə köçürülməlidir. Bu məqsədlə əlavə vəsait ayrılmalıdır, binaların inşası üçün ərazi müəyyənləşdirilməli və tezliklə binaların inşasına başlanılmalıdır. Bununla yanaşı, Bakı və Sumqayıt şəhərlərində tikilmiş yeni binalarda köçkün ailələrini yerləşdirmək üçün mənzillər alınmalıdır.

Bu görüşdə verilən tapşırıqlardan sonra Prezident İlham Əliyevin rəhbərliyi və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın birbaşa dəstəyi sayəsində sözügedən istiqamətdə ciddi uğurlara imza atıldı. Məhz Mehriban Əliyevanın qaçqın və məcburi köçkünlərin sosial məsələlərinin həllinə olduqca həssaslıqla yanaşması, bu qəbildən olan soydaşlarımızın həyat şəraitinin yaxşılaşdırılması, məşğulluğunun artırılması, sosial rifahının daha da yüksəldilməsi məsələsinə xüsusi qayğı göstərməsi özünü yeni inşa olunan "Qobu Park-1", "Qobu Park-2" və "Qobu Park-3" yaşayış komplekslərində də nümayiş etdirdi.

Azərbaycanın birinci xanımının genişmiqyaslı proqram və layihələrinin sırasında təhsil sistemini təkmilləşdimək və onun dünya təhsil sisteminə inteqrasiyasını təmin etmək hədəfi xüsusi yer tutur. Heydər Əliyev Fondunun layihələri çərçivəsində minlərlə məktəb, uşaq bağçası və ixtisaslaşdırılmış uşaq məktəbləri tikilib və təmir olunub. Heydər Əliyev Fondu tərəfindən "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" layihələri, "Azərbaycanda məktəbəqədər təhsil müəssisələrinin inkişafı proqramı" təhsil sisteminin maddi-texniki bazasının möhkəmləndirilməsi və onun məzmununun zənginləşdirilməsi baxımından müstəsna əhəmiyyətə malikdir.

"Təhsilə dəstək" layihəsi tək Azərbaycanda deyil, bir sıra xarici ölkələrdə də həyata keçirilir. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə 2007-ci ildə zəlzələdən zərər çəkmiş Pakistanın Müzəffərabad şəhərində qızlar üçün yeni məktəb tikilmişdir. 2012-ci ildə isə Pakistan hökumətinin qərarı ilə bu təhsil ocağına xeyirxahlıq mücəssəməsi olan Mehriban Əliyevanın adı verilib. Bu xoşməramlı missiya çərçivəsində Rusiyada, Hollandiyada, Rumıniyada, Misirdə və Gürcüstanda da məktəblər tikilib.

Bu bir həqiqətdir ki, Azərbaycanda uşaq evləri və internat məktəblərindəki kimsəsiz uşaqların ən böyük qayğıkeşi, hamisi də Mehriban xanımdır. Onlara böyük qayğı göstərən, bayramları onlarla birlikdə keçirən Birinci vitse-prezident əsl ana qayğısı göstərir. Heydər Əliyev Fondunun bu istiqamətdə reallaşdırdığı "Uşaq evləri və internat məktəblərinə dəstək" layihəsi çərçivəsində ölkəmizdə 40-a yaxın uşaq evi və internat məktəbi ən müasir standartlara uyğun olaraq təmir edilib.

Mehriban xanım Əliyevanın rəhbərliyi ilə fondun genişmiqyaslı səhiyyə layihələrinə də nəzər yetirsək, görərik ki, bu sahədə çox böyük işlər həyata keçirilib. Buraya xəstəxanalar, klinikalar, müasir avadanlıqların alınması, diabet və talassemiya xəstələrinin müalicəsi daxildir. Bu istiqamət üzrə Mehriban xanımın təşəbbüsü ilə "Diabetli uşaqlara ən yüksək qayğı", "Talassemiyasız həyat naminə", "Tibb müəssisələrinin yenidən qurulması və inşası" kimi olduqca əhəmiyyətli layihələrin həyata vəsiqə alması geniş ictimaiyyət tərəfindən böyük rəğbətlə qarşılanıb. Bu layihələr çərçivəsində Bakıda müasir Talassemiya Mərkəzi, Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzi, Mərkəzi Neftçilər Xəstəxanasında Cərrahiyyə və Orqan Transplantologiya Mərkəzi, Psixonevroloji Uşaq Mərkəzi və digər səhiyyə ocaqları inşa olunub və ya əsaslı şəkildə yenidən qurularaq istifadəyə verilib.

Azərbaycan mədəniyyətinin dünyada təbliği, mədəni irsin qorunması mərhəmətli Mehriban Əliyevanın rəhbərliyi altında Heydər Əliyev Fondunun fəaliyyətinin başqa bir istiqamətidir. Bu istiqamətdə həyata keçirilən layihələr mədəniyyətimizin tanıdılmasında, qorunub saxlanılmasında mühüm rol oynayıb.

## Qarabağ və Şərqi Zəngəzurda dağıdılmış tarixi, dini-mədəni abidələrimizin bərpası

İki il öncə, sentyabrın 27-də Azərbaycan növbəti dəfə işğalçı Ermənistanın növbəti və irimiqyaslı hərbi təxribatının hədəfinə çevrildi və Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında qüdrətli ordumuz Vətən savaşına başladı.

"Dəmir yumruq" əməliyyatı cəmi 44 gün ərzində Ermənistan rəhbərliyini kapitulyasiya aktını imzalamağa məcbur etdi. Nəticədə bölgədə yeni tarixi reallıqlar formalaşdı. Ərazi bütövlüyümüz bərpa edildi, "status", Qarabağ münaqişəsi tarixin arxivinə göndərildi.

Amma bu da bir həqiqətdir ki, savaş itkisiz olmur. Təbii ki, torpaqlarımızın azadlığı uğrunda savaşa qalxan Azərbaycan igidləri bu Zəfəri canları, qanları ilə qazandılar. Amma onların qanları yerdə qalmadı və bu gün Qarabağda, Şərqi Zəngəzurda dalğalanan bayrağımız, məscidlərdə səslənən azan səsləri onların ruhlarını şad edir.

Ölkənin birinci xanımı kimi Mehriban Əliyeva bu dövrdə şəhid analarına mənəvi dəstək verib, dərdlərinə şərik oldu. Güclü qadın kimi şəhid ailələrini ailəsi bildi. Qarabağ müharibəsində əlil olan oğullara qardaş dedi, hələ də övladlarının yoxluğuna inanmayan, gözü yolda qalan anaları bağrına basdı, onlara ana dedi, qarşılarında baş əydi. Onun böyüklüyü, əxlaqı, görübgötürdükləri, ailə dəyərləri böyük ehtiram və məhəbbətlə qarşılanır.

Həm Vətən müharibəsi, həm də ondan sonrakı tarixi mərhələlərdə Mehriban Əliyeva Prezident İlham Əliyevin ən yaxın məsləkdaşı olaraq Ermənistanın insanlıq əleyhinə hərbi cinayətləri ilə bağlı dəfələrlə beynəlxalq ictimaiyyətə müraciətlər etdi.

İki ildir ki, Azərbaycan xalqı Vətən müharibəsindəki böyük Zəfərin sevincini, qürurunu yaşamaqdadır. Müzəffər Ali Baş Komandan İlham Əliyevin qətiyyəti sayəsində dünyaya səs salan bu Zəfərimiz tariximizin ən şanlı səhifəsidir. Qarabağ və Şərqi Zəngəzuru yenidən quran möhtərəm Prezident həm də dünyaya Azərbaycanın iqtisadi qüdrətini nümayiş etdirir. Qafqazın ən böyük qeyri-hökumət təşkilatı olan Heydər Əliyev Fondunun fəaliyyətinin ən şanlı səhifəsi Qarabağ və Şərqi Zəngəzurun bərpa-quruculuq prosesində ön sırada olmasıdır. İndiyə qədər minlərlə abidəyə yeni nəfəs verən Heydər Əliyev Fondu Qarabağdakı dini irsimizin, məscidlərimizin, mədəniyyət abidələrimizin bərpasını reallaşdırmaqdadır. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir.

Əlbəttə ki, işğaldan azad olunan torpaqlarımızdakı abidələrin bərpa edilərək yenidən xalqımıza qaytarılması çox əhəmiyyətlidir. Faktiki olaraq, Qarabağdakı dini abidələrimizin bərpa edilməsi prosesinin başlanması Azərbaycan tərəfindən tarixi gerçəklik missiyasının, ədalətin bərpası deməkdir. Mehriban Əliyevanın müqəddəs işə rəhbərlik etməsi onu deməyə əsas verir ki, bu layihə çox böyük uğurla həyata keçiriləcək. İşğaldan azad edilən ərazilərimizdəki dini abidələrimizin bərpa edilməsi prosesinə xarici mütəxəssislərin cəlb edilməsi də təqdirəlayiq haldır.

İşğaldan azad edilən ərazilərimizdə ermənilərin dini abidələrimizi, məscidlərimizi vandallıqla dağıdıb məhv etməsi cinayətlərinə dünyanın bütün aidiyyəti təşkilatları sərt reaksiyalar verməlidirlər. İslam Əməkdaşlıq Təşkilatı, Rusiya Müsəlmanları Ruhani İdarəsi, eləcə də dünyanın başqa ölkələrindəki digər müsəlman icmaları bu fakta öz kəskin etirazlarını bildiriblər, erməni vandalizm aktını pisləyiblər. Azərbaycan erməni vandalizmi ilə bağlı bu faktları meydana çıxarmaqla bütün dünyaya sübut etdi ki, ermənilər işğal dövründə tarixi ərazilərimizdə abidələrimizi dağıdıb, məhv ediblər. Bu da yalançı erməni təxribatına ağır zərbə oldu.

Dövlət başçısı cənab İlham Əliyevlə birgə Mehriban xanımın ölkənin inkişaf strategiyasının hazırlanmasında, həyata keçirilməsində, həmçinin sosial, humanitar və iqtisadi layihələrin gerçəkləşməsində böyük əməyi var. Onun siyasi fəaliyyətinin kökündə humanizm dayanır. Birinci vitse-prezident ölkənin sosial problemlərinin həllinə daha çox diqqət ayırır. O, hər zaman həssas əhali qruplarına qayğı ilə yanaşır, onların sosial ehtiyaclarının ödənilməsi üçün müxtəlif təşəbbüslər irəli sürür, bayramlarda, dövlətimiz üçün digər əlamətdar günlərdə onlara sovqatlar, hədiyyələr göndərilir.

Bundan başqa, şəhid ailələri və qazilər də Mehriban xanımın diqqətindən kənarda qalmır. Onların, demək olar ki, bütün problemlərinin həllinə şəxsən dəstək olur, evlə, avtomobillə təmin olunmasında yaxından iştirak edir. Həmçinin biz şahidi oluruq ki, Mehriban xanıma səhhəti ilə, təhsili ilə və digər sosial problemləri ilə şəxsən yüzlərlə insan müraciət edir. Bütün bunlara dərhal reaksiya verilir, qarşılaşdıqları problemlərin həlli istiqamətində müvafiq tədbirlər görülür.

## Xalq onu sevir və ona inanır

Bu gün ölkəmizdə Birinci vitse-prezident Mehriban Əliyevanın timsalında Azərbaycan qadınının cəmiyyətdəki yeri, nüfuzu, işgüzarlığı, dövlətə layiqli xidmət missiyası daha aydın görünür. Təsadüfi deyil ki, Mehriban Əliyevanın siyasi-ictimai fəaliyyəti təkcə ölkəmizdə deyil, həm də dünyada Azərbaycan qadınının obrazının formalaşmasında müstəsna rola malikdir.

Xalq onu sevir və ona inanır. Ona görə ki, Mehriban Əliyevanın sayəsində cəmiyyətin sosial həyatında xeyriyyəçilik ənənələri canlanıb. Birinci vitse-prezident insanlara xeyirxahlığa meyil, başqasının dərdinə şərik olmaq, köməyə ehtiyacı olana yardım əlini uzatmaq kimi hiss və bacarıqları aşılayıb. Onun "Xeyriyyəçilik, insansevərlik, mərhəmət Azərbaycan xalqının mentalitetinə, mədəniyyətinə, əsrlər boyu formalaşan ənənələrimizə xas olan ən gözəl keyfiyyətlərdən biridir və biz bu gün Heydər Əliyev Fondu olaraq ənənələri davam etdirməyə çalışırıq" sözləri xeyriyyəçiliyin həyatının kredosuna çevrildiyini bir daha təsdiqləyir.

*Əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın ötən iki ildə göstərdiyi fəaliyyət, gördüyü işlər çoxşaxəli və misilsizdir. Birinci vitse-prezident kimi hər bir sahədə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi kursun dəstəklənməsinə və uğur qazanmasına layiqli töhfələr verən Mehriban Əliyevanın bu çərçivədə gördüyü işləri təhlil etsək, əminliklə deyə bilərik ki, onun çoxşaxəli və geniş əhatəli fəaliyyəti Azərbaycanın bugünkü inkişafı içərisində çox böyük çəkiyə malikdir. Mehriban xanım Əliyeva Prezident İlham Əliyevin həyata keçirdiyi mütərəqqi islahatların, daxili və xarici siyasətin ən böyük dəstəkçisi və dövlət başçısının ən sadiq silahdaşıdır.*

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı,***
***Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri***



# Dövlətə xidmət və xeyirxahlıq missiyası

Azərbaycan qadını tariximizin bütün mərhələlərində dövlət və cəmiyyət həyatının sahələrində fəal olub, siyasi-ictimai, sosial-iqtisadi və mədəni proseslərə öz dəyərli töhfələrini verib. Tariximizin Vətən müharibəsi ilə şərəflənən indiki dövründə də qadınlar ölkəmizin daha da yüksəlməsi, Prezident İlham Əliyevin rəhbərliyi ilə qazanılan uğurların miqyasının daha da genişlənməsi yolunda öz qüvvələrini əsirgəmirlər.

Birinci vitse-prezident, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın timsalında isə Azərbaycan qadınlarının müasir dövrümüzdə dövlət idarəçiliyində və ümumən cəmiyyətdə gedən proseslərdə iştirak səviyyəsi daha aydın görünür. Başqa cür desək, Mehriban Əliyevanın gördüyü işlərin nəticəsində Azərbaycan qadınının həm də işgüzarlığı, yüksək intellekti, dövlətimizə və xalqımıza uğurlu xidmətinin nümunəsi daha mükəmməl şəkildə təqdim olunur.

Mehriban Əliyevanın fəaliyyət sferası çoxşaxəlidir. Amma hansı sahədə olmasından asılı olmayaraq, ölkəmizin birinci xanımı dövlətə layiqli xidmətin ən gözəl örnəyini yaradıb. Hər bir təşəbbüsündə, hər bir layihə və proqramında Azərbaycanın və xalqımızın adını ucaldıb, Azərbaycan qadınının işgüzarlığının və fəallığının ən mükəmməl obrazını nümayiş etdirib. Mehriban Əliyevanın 1995-ci ildə yaratdığı Azərbaycan Mədəniyyətinin Dostları Fondu dövlətimizin mədəni quruculuğuna, mədəniyyətimizin təbliğinə, Azərbaycan həqiqətlərinin, üzləşdiyimiz ədalətsizliklərin, Ermənistanın işğal siyasətinin dünyaya çatdırılmasına böyük töhfələr verib.

Eyni fikirləri 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu barədə də deyə bilərik. Ulu Öndərimizin adını daşıyan, onun irsini yaşadan bu fond Azərbaycanda və dünyada həm də xeyirxahlıq və mərhəmət məbədi kimi tanınır. Təkcə Azərbaycanda deyil, beynəlxalq miqyasda da geniş rəğbət qazanan, hər zaman köməyə, yardıma ehtiyacı olanların yanında olan fondun ən böyük uğuru insanlara qayğı və təmənnasız xidmət amalını prioritet seçməsidir. Mehriban Əliyevanın rəhbərliyi və təşəbbüsü ilə Heydər Əliyev Fondunun həyata keçirdiyi bütün layihə və proqramlar Prezident İlham Əliyevin sosial siyasətinin daha böyük uğurlar qazanmasına xidmət edib, Azərbaycanı dünyada layiqincə tanıdıb. Mehriban Əliyevanın dünyanın iki nüfuzlu təşkilatının xoşməramlı səfiri adını daşıması da ölkəmizin birinci xanımının xeyirxahlıq missiyasının beynəlxalq miqyasda rəğbətlə qarşılanmasının nəticəsidir.

Mehriban Əliyeva deputatlıq fəaliyyəti dövründə parlament mədəniyyətinin inkişafında böyük xidmətlər göstərib, respublikamızda qanunvericilik bazasının təkmilləşdirilməsinə, Azərbaycanın parlamentlərarası əlaqələrinin genişlənməsinə dəyərli töhfələrini verib. Mehriban Əliyevanın parlamentdəki fəaliyyətinin ən yaddaqalan məqamlarından biri onun təşəbbüsü ilə 2007-ci ildə Ulu Öndərin anadan olmasının 84 illiyi, 2009-cu ildə Novruz bayramı, 2013-cü ildə Heydər Əliyevin 90 illik yubileyi və 2016-cı ildə Respublika Günü münasibətilə parlamentdə amnistiya elan edilməsi barədə qərarların qəbul olunmasıdır.

Mehriban Əliyeva həm də təmsil olunduğum Yeni Azərbaycan Partiyası Sədrinin birinci müavinidir. Mehriban Əliyevanın həyata keçirdiyi bu vəzifə YAP-ın inkişafında və cəmiyyətdəki nüfuzunun daha da yüksəlməsində mühüm rol oynayan amillər sırasında yer alır.

Bu ilin avqustunda Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında Azərbaycan idmançıları möhtəşəm qələbələrə imza atdılar. IV İslam Həmrəyliyi Oyunları 2017-ci ildə Bakıda keçirilmişdi. O zaman beynəlxalq idman ictimaiyyəti Mehriban Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsinin fəaliyyətinin timsalında kütləvi idman tədbirinin ən ideal şəkildə təşkil olunmasına şahidlik etmişdi. Ondan əvvəl isə Mehriban Əliyevanın rəhbərliyi ilə "Avroviziya" mahnı müsabiqəsi və Birinci Avropa Oyunları təşkil edilmişdi. Bütün bunlar Mehriban Əliyevanın yüksək təşkilatçılıq bacarığını sübut etmişdi.

5 il əvvəl Mehriban Əliyevanın siyasi fəaliyyətində yeni missiya başladı. Həmin ilin fevral ayından ölkəmizin Birinci vitse-prezidenti vəzifəsinə təyin olunan Mehriban Əliyeva bu missiyanı uğurla və layiqincə daşıyır, Prezident İlham Əliyevin siyasi kursunun uğurla reallaşmasında fəal iştirak edir. Bu dövrdə Mehriban Əliyevanın təşkilatçılığı ilə keçmiş məcburi köçkünlərin yeni evlərə köçürülməsi, Aprel döyüşlərinin əlillərinin protezlərlə təmin olunması və digər sosial layihələr uğurla icra olunub.

Koronavirus pandemiyasının ən gərgin günlərində xalqımız Mehriban Əliyevanın problemə həssas münasibətini gördü. Heydər Əliyev Fondunun xətti ilə həyata keçirilən xeyriyyəçilik minlərlə ailəyə, ahıl insanlara böyük maddi və mənəvi dəstək oldu.

44 günlük Vətən müharibəsində isə Mehriban Əliyevanın döyüşlərdə yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini birbaşa öz nəzarətinə götürməsi xalqımızın dərin rəğbəti ilə qarşılandı. Vətən müharibəsindən sonra Heydər Əliyev Fondunun Qarabağ və Şərqi Zəngəzurdakı tarixi və milli abidələrimizin bərpası ilə bağlı həyata keçirdiyi layihələr isə bir daha Mehriban Əliyevanın vətən sevgisinin ifadəsidir.

Ən yüksək keyfiyyətlərə malik olan və hər bir sahədə əsl peşəkarlıq ortaya qoyan Birinci vitse-prezident Mehriban Əliyeva bundan sonra da dövlətimizin yüksəlişi üçün bütün imkanlarını səfərbər edəcək, Prezident İlham Əliyevin inkişaf siyasətinə davamlı töhfələr verəcək.

*Cavid OSMANOV,*
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü*

# Humanizm və nəcib əməllər mücəssəməsi

Azərbaycanın dünyaya daha yaxından tanıdılması, milli-mədəni dəyərlərimizin qorunması və təbliği, səhiyyənin və təhsilin inkişafına dəstək, ehtiyacı olanlara kömək, xeyriyyəçilik, insanlara təmənnasız yaxşılıq… Birinci vitse-prezident Mehriban Əliyevanın siyasi və ictimai fəaliyyətindən bəhs edərkən ilk yada düşənlər məhz bunlardır. Mehriban Əliyeva ölkəmizdə, eləcə də dünyada bu cür yüksək və həm də milli dəyərlərimizin daşıyıcısı olan şəxsiyyət və dövlət xadimi kimi tanınır.

Respublikamızın Birinci vitse-prezidenti olmaqla yanaşı, Heydər Əliyev Fonduna, Azərbaycan Mədəniyyətinin Dostları Fonduna, Gimnastika Federasiyasına rəhbərlik edən Mehriban Əliyevanın fəaliyyəti çoxşaxəlidir. Bu fəaliyyət bütünlüklə Ulu Öndər Heydər Əliyevin Azərbaycanın etibarlı gələcəyinə yönəlmiş ideallarının reallaşmasına, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasi xəttin, sosial-iqtisadi, mədəni-humanitar sahələrdə dövlət siyasətinin dəstəklənməsinə və uğur qazanmasına xidmət edir. Xüsusilə qeyd etməliyik ki, 2004-cü ildən fəaliyyətə başlayan Heydər Əliyev Fondu xeyriyyəçiliyin ən gözəl nümunələrini yaradır, təhsil və səhiyyə sahələrində tariximizdə görünməmiş layihələri reallaşdırır, respublikamızın dünyada ən dolğun təbliğatını aparır.

Mehriban Əliyevanın daşıdığı bütün siyasi və ictimai vəzifələrdə hər zaman üstünlük verdiyi xeyirxahlıq, mərhəmət, maarifçilik kimi nəcib dəyərlər, dünyada sülhə, mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa verdiyi töhfələr beynəlxalq aləmdə ona böyük nüfuz və ehtiram qazandırıb. Təsadüfi deyil ki, UNESCO və ICESCO-nun xoşməramlı səfiri kimi o, Şərq və Qərb aləminin bu iki yüksək statusunu eyni vaxtda daşıyan ilk və yeganə şəxsiyyətdir.

Mehriban Əliyeva Cənubi Qafqazın ən böyük siyasi təşkilatı olan, sıralarında 760 mindən çox üzvü birləşdirən Yeni Azərbaycan Partiyasının Sədrinin birinci müavini kimi də mühüm siyasi proseslərin aktiv iştirakçısıdır. Onun partiyanın ali rəhbərliyində təmsilçiliyi YAP-ın gücünü daha da artırıb, cəmiyyətin ictimai-siyasi həyatında qadın fəallığı ənənələrinin inkişafına stimul yaradıb.

2005, 2010 və 2015-ci illərdə Azərbaycan Respublikası Milli Məclisinin deputatı seçilən Mehriban Əliyevanın deputatlıq fəaliyyəti də parlament tariximizin şərəfli bir səhifəsidir. Seçicilərə diqqət və qayğısı, təmsil etdiyi ərazilərin sosial problemlərinin həlli yönündə gördüyü misilsiz işlərlə əsl millət vəkilliyinin nümunəsini yaradan Mehriban Əliyeva Milli Məclisin müzakirəsinə təqdim etdiyi layihələrlə qanunvericiliyimizin təkmilləşməsinə böyük töhfələr verib. Cəmiyyət üçün ciddi təhlükə törətməyən minlərlə insanın onun təşəbbüskarı olduğu amnistiya aktı əsasında azadlığa çıxması Mehriban Əliyevanın deputatlıq fəaliyyətinin xoş məqamı kimi hər zaman böyük rəğbətlə xatırlanır.

Prezident İlham Əliyevin sərəncamı ilə Mehriban Əliyevanın 2017-ci ilin fevral ayında Birinci vitse-prezident təyin edilməsində onun məhz çoxşaxəli fəaliyyəti, ölkəmizin siyasi-ictimai, mədəni-humanitar və sosial həyatındakı müstəsna xidmətləri mühüm rol oynadı. Mehriban Əliyevanın ölkəmizin tərəqqisi istiqamətində göstərdiyi fəaliyyətin müstəsnalığını Prezident İlham Əliyevin fikirləri də təsdiqləyir: "Mehriban Əliyeva uzun illərdir ki, ölkəmizin ictimai-siyasi, mədəni həyatında mühüm və fəal rol oynayır... Çox peşəkar, bilikli, təcrübəli, prinsipial bir insandır, eyni zamanda çox xeyirxah bir insandır və təsadüfi deyil ki, Azərbaycan xalqı ona çox böyük rəğbətlə, sevgi ilə yanaşır. Bütün bu sadaladığım amilləri nəzərə alaraq, mən bu qərara gəldim. Bu gün Mehriban Əliyevanın həyatında yeni bir dövr başlayır və əminəm ki, ölkəmizin inkişafında bundan sonra da öz dəyərli töhfəsini verəcək".

Birinci vitse-prezident kimi Mehriban Əliyevanın fəaliyyəti xüsusən sosial sahədə rəğbət doğuran addımlarla və uğurlu nəticələrlə əlamətdardır. Birinci vitse-prezident kimi Mehriban Əliyeva diqqətini ilk növbədə qayğıya ehtiyacı olan əhali qruplarının sosial problemlərinin həllinə yönəldir. Bakıda və Sumqayıtda məskunlaşmış xeyli sayda məcburi köçkün ailəsi məhz Mehriban Əliyevanın dəstəyi ilə yeni mənzillərlə təmin olundular.

Bütövlükdə ötən 5 il ərzində Mehriban Əliyeva həssas əhali qruplarının yanında oldu. Azərbaycan ictimaiyyəti koronavirusla mübarizə tədbirlərinin önündə ilk gündən Prezident İlham Əliyevlə yanaşı, Mehriban Əliyevanı gördü. Bu tarixi sınaq bir daha göstərdi ki, Birinci vitse-prezident Mehriban Əliyevanın məramı dövlətə və xalqa layiqli xidmətdir.

Tariximizin şərəfli səhifəsi olan 44 günlük Vətən müharibəsində isə Mehriban Əliyevanın döyüşlərdə yaralanmış qəhrəman əsgər və zabitlərimizin müalicəsini birbaşa nəzarətinə götürməsi xalqımızın dərin rəğbəti ilə qarşılandı. Bu hadisə bir daha Mehriban Əliyevanın vətən və insan sevgisinin tərənümü oldu. Eyni zamanda 44 günlük Vətən müharibəsi dövründə Mehriban Əliyevanın müraciətləri, instaqram səhifəsindəki paylaşımları xalqımızın bir amal uğrunda səfərbər olmasına xidmət etdi.

Zəfərdən sonra azad edilmiş ərazilərimizdə başlamış genişmiqyaslı quruculuq işləri sürətlə davam edir. Bütün bu məsələlərdə cənab Prezidentin ən böyük silahdaşı Mehriban Əliyevadır. Təsadüfi deyil ki, hazırda Heydər Əliyev Fondu işğaldan azad olunmuş ərazilərimizin yenidən qurulmasında yaxından iştirak edir, tarixi və dini abidələrin, məscidlərin bərpası ilə bağlı layihələr həyata keçirir.

Birinci vitse-prezident Mehriban Əliyevanın çoxşaxəli və hər cəhəti ilə dövlətimizə və vətəndaşlırımıza xidmət edən fəaliyyəti nəticə etibarilə Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasında, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsində böyük rol oynayır. Bu şərəfli missiyada Mehriban Əliyevaya yeni nailiyyətlər arzu edirik.

*Müşfiq MƏMMƏDLİ,*
*Milli Məclisin deputatı*

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə müasir tariximizdə yeni dövrün, ölkəmizi müstəqil dövlət quruculuğuna doğru aparan böyük yolun başlanğıcı qoyuldu. Heydər Əliyev Azərbaycanda siyasi sabitlik yaratmaqla yanaşı, ölkənin iqtisadi müstəqilliyinin də əsasını qoydu. 2003-cü ildən isə Heydər Əliyev siyasi və iqtisadi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev milli inkişaf prioritetlərini düzgün müəyyənləşdirərək ölkənin bütün potensialını intellektual resursların, insan kapitalının gücləndirilməsi yönümündə səfərbər etdi.



# Amalı nəcib və ali məqsədlər naminə çalışmaqdır

Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində müasir dövrdə hüquqi dövlətin inkişafının konstitusion islahat modeli uğurla həyata keçirilərək səmərəli islahatların nəticəsi kimi müasir hüquqi dövlətin hərtərəfli inkişafının və hakimiyyətin xalqa mənsubluğunun Azərbaycan modeli formalaşmışdır. Hazırda Azərbaycan dövlətinin çoxəsrlik şanlı tarixinin ən parlaq intibah dövrünü yaşadığını qürurla söyləyə bilərik. Bu gün dünya dövlətləri arasındakı yüksək mövqeyimiz hər bir azərbaycanlıya qürur verir.

Bu qürurun əsasında isə Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın vətən və xalq naminə gərgin və miqyaslı fəaliyyəti, yüksək intellekt və dünyəvilik kimi şəxsi keyfiyyətlərinin möhtəşəm harmoniyası dayanır. Dövlət başçısının həyata keçirdiyi iqtisadi siyasətin əsas xarakterik xüsusiyyətləri onun sosialyönümlü olması, habelə bütün problemlərin həllində iqtisadi aspektin mövcudluğunun ön plana çəkilməsidir. Dövlət proqramlarının, Prezidentin imzaladığı fərman və sərəncamların icrası ölkədə gedən iqtisadi inkişafın sürətləndirilməsini uğurla təmin etmiş, bu prosesdə özəl sektorun payı və rolunu artırmaqla sahibkarlığın inkişafına güclü təkan vermişdir.

Bütün dövrlərdə cəmiyyətin mütərəqqi yolla inkişafı sağlam əqidəli, xalqa, dövlətə təmənnasız xidməti başlıca həyat amalına çevirən nəcib insanların fəaliyyəti ilə bağlı olmuşdur. Belə insanlar qısa zamanda cəmiyyətin sayılıb-seçilən şəxsiyyətlərinə çevrilir, üzərlərinə düşən sosial məsuliyyəti düzgün dəyərləndirir, xoş məram və məqsədləri ilə milyonların rəğbətini qazanırlar.

Sərbəst bazar münasibətlərinə, özünütənzimləməyə əsaslanan iqtisadi sistemdə insanların sosial müdafiəsinə və rifahına hesablanmış müxtəlif layihələrin, xeyriyyəçilik aksiyalarının həyata keçirilməsi, ən başlıcası, mənəvi-etik dəyərlərin yad təsirlərdən qorunması xüsusilə aktualdır. Bu aktuallıq ilk növbədə onunla şərtlənir ki, elmi-texniki inqilabın məhsulu olan müasir informasiya-kommunikasiya texnologiyaları müsbət tərəfləri ilə yanaşı, bəzi hallarda insanlar arasında mənəvi uçurumu, psixoloji səddi dərinləşdirir, mənəvi idealları ifrat maddiləşmənin mənfi təsirlərinə məruz qoyur. Bu təsirləri zərərsizləşdirmək, ictimai düşüncədə xeyirxahlıq, humanizm, insanpərvərlik, mərhəmət kimi ali keyfiyyətlərin möhkəmlənməsinə nail olmaq missiyası isə yalnız yüksək mənəviyyatlı şəxsiyyətlərin üzərinə düşür.

Dünyaşöhrətli siyasi xadim, Ümummilli Lider Heydər Əliyev nitqlərinin birində demişdir: "Mənəviyyat olmayan yerdə haqdan, ədalətdən, düzgünlükdən söhbət gedə bilməz". İstənilən cəmiyyətdə ədalət, insanpərvərlik, dürüstlük kimi mənəvi dəyərlərin özünə möhkəm dayaqlar tapması nəcib və kamil insanların əzmkar fəaliyyəti sayəsində mümkün olur. Hazırda bu nəcib missiyanı yüksək mənəvi məsuliyyətlə üzərinə götürərək şərəflə, əzmlə, təmənnasız həyata keçirən insanlar arasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ön sıralarda dayanır. İnamla deyə bilərik ki, Ulu Öndərin ali ideyalarına əsaslanan, dövlət başçısı İlham Əliyevin həyata keçirdiyi çoxşaxəli siyasətə layiqli töhfələrini verən Azərbaycanın Birinci vitse-prezidentinin mənəvi dəyərlər sisteminin qorunmasında, cəmiyyətə sağlam dəyərlərin aşılanmasında müstəsna xidmətləri vardır.

Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva çoxşaxəli fəaliyyəti ilə xalqımızın böyük sevgisini qazanmışdır. Bu məsuliyyətli missiya Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi, onun layiqli varisi - Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin inamla davam etdirdiyi strateji siyasi kursun həyata keçirilməsinə, bu siyasətin hər bir vətəndaşın həyatında hiss olunmasına xidmət edir.

Bütün dövrlərdə belə parlaq simalar üçün səciyyəvi keyfiyyətlərdən biri də onların qlobal miqyasda insanlığın nicatına xidmət edən ictimai təşəbbüslərlə çıxış etmələri olmuşdur. Bu baxımdan deyə bilərik ki, narahat dünyamızda nəcib və ali məqsədlər naminə əzmlə çalışan, insan amilini daim uca tutan sülh elçiləri sırasında Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın adı xüsusi çəkilir. Mehriban xanım qayğıkeşliyi, ictimai-siyasi fəaliyyəti, həm də elmi yaradıcılığı ilə Azərbaycan qadınlarına həmişə örnəkdir. Qədim və zəngin tariximizin hər bir səhifəsində Azərbaycan qadınının müdrikliyi və qəhrəmanlığının parlaq nümunələri olub. Mehriban xanım öz fəaliyyətində Azərbaycanda qadın hərəkatını canlandıraraq onun tarixində yeni bir mərhələ açmışdır.

Xalqın taleyini öz taleyində yaşayan Mehriban Əliyevanın mənəvi, ictimai və siyasi vəzifəni, məqsədi ülvi bir sevgiylə daşıması, vətəninə, xalqına qəlbinin sonsuz istəyi ilə xidmət etməsi ictimai mühitə gəldiyi vaxtlardan görünməyə başladı. Mehriban xanım gəncliyindən çalışqanlığı ilə hər yerdə və hər zaman birincilik statusunu qazanması, uğurlara nail olması ilə fərqlənib. Onun ictimai fəaliyyətə qoşulduğu illər Azərbaycanda xalqın milli oyanış dövrünün ilkin çağlarına təsadüf edir. Ulu Öndərin təşəbbüsü ilə yaranan Yeni Azərbaycan Partiyasının təşəkkül tapdığı 1992-ci ildən Mehriban xanım partiyanın üzvü olaraq, müasir və müstəqil dövlətimizin qurulması və daha da inkişaf etməsi prosesinin fəal iştirakçısına çevrildi. O, yaxşı dərk edirdi ki, bütün zamanlarda milləti qədim xalq kimi tanıdan və bütün dünyada qəbul etdirən onun dili, mədəniyyəti, tarixi, milli-mənəvi dəyərləridir. Məhz buna görə də o, özünün çoxşaxəli fəaliyyətini bu amillər, prinsiplər üzərində qurdu. Bütün ictimai şüuru ilə azərbaycançılıq ideologiyasına bağlı olması, dövlətçiliyin qorunması və qüdrətlənməsi naminə fəaliyyət göstərməsi az bir zamanda ona xalqın böyük rəğbətini, sevgisini qazandırdı. Onun fəaliyyətini qiymətləndirən bir çox xarici ölkələrin tanınmış siyasətçiləri, ictimai xadimləri qeyd edirlər ki, Mehriban Əliyeva Şərq ölkələrində siyasətin yalnız kişilərin işi olması barədə stereotipləri uğurla təkzib edir. Mehriban xanımın gənc və müstəqil dövlətimizin möhkəmlənməsi yolunda apardığı ideoloji mübarizəsinə, ümumən gördüyü işlərə nəzər yetirəndə bu xidmətin həcmini təsəvvür etmək, ölkənin və xalqın həyatında yeniliklərlə müşayiət olunan inkişafını görmək, duymaq elə də çətin deyil.

Mehriban xanım 1995-ci ildən Azərbaycan Mədəniyyət Fondunun prezidenti, 2002-ci ildən isə Azərbaycan Gimnastika Federasiyasının prezidenti kimi üzərinə böyük məsuliyyət götürərək yaddan çıxmış sahələri ətalətdən çıxararaq onlara kütləvilik elementləri ilə zəngin olan ictimai məzmun verdi. Azərbaycan mədəniyyətinin beynəlxalq aləmdə tanınması və təbliği üçün ilk olaraq "Azərbaycan-İrs" jurnalını təsis etməklə başladı. Təbii ki, görülən işlərin mahiyyətində nüfuzlu ictimai xadim olan Mehriban xanımın Azərbaycan mədəniyyətinə yeni nəfəs gətirməsi, onun tarixi keçmişindən bəhrələnməklə bugünkü inkişafına təkan vermək amalı dayanırdı.

Mehriban xanımın fəaliyyətinin mahiyyətində mərhəmət hissi dayanır. Onun özünün fikirləri sözlərimizi təsdiq edər: "Həqiqi mərhəmət real işlər görülməsini, real məsələlərin həllini, konkret addımlar atılmasını tələb edir. Biganəlik və laqeydlik ən dəhşətli xüsusiyyətdir. İstər ictimai xadim ol, istərsə də dövlət qulluğunda işləyən adam. İnsanlıq hissini qoruyub saxlamaq lazımdır".

Mehriban xanım 2004-cü il mayın 10-dan Heydər Əliyev Fondunun yaradılması ilə Ulu Öndərin vətənimizin və xalqımızın inkişafı naminə gördüyü işləri, işıqlı ideyalarını yüksək səviyyədə davam etdirir. Onun qarşıya qoyduğu məqsəd demək olar ki, həyatımızın mühüm sahələrinin inkişafına yönəlmiş çalışmalar, milli-mənəvi dəyərləri özündə ehtiva edən prinsiplər üzərində qurulmuşdur. Bu məqsəd fondun fəaliyyət proqramında daha dəqiq ifadə olunmuşdur: "Milli-mənəvi dəyərlərin qorunması və Azərbaycan mədəniyyətinin geniş təbliğ olunması ilə bağlı işlərin aparılmasına kömək etmək, əhalinin rifahının yüksəldilməsinə yönəldilmiş müxtəlif proqram və tədbirləri, elm, təhsil, mədəniyyət, səhiyyə və idmanın inkişafını təmin edən layihələri dəstəkləmək, uşaq və gənclərin sağlam, milli-mənəvi dəyərlərə sadiq, hərtərəfli biliklərə malik vətəndaş kimi yetişdirilməsi işinə xidmət etmək, Azərbaycanın beynəlxalq nüfuzunun artırılması ilə bağlı tədbirlərin reallaşdırılmasına yardım göstərmək". Görülən işlərin, irimiqyaslı layihələrin həcmini təsəvvürə gətirəndə aydın olur ki, bütün bunlar Mehriban xanım Əliyevanın vətən və xalq naminə qarşıya qoyduğu vəzifələrin öhdəsindən ləyaqətlə gəldiyinin bariz nümunəsidir.

Heydər Əliyev Fondu nəinki irimiqyaslı, möhtəşəm layihələri həyata keçirir, həm də ölkəmizin xaricdə böyük nüfuz qazanmasına, yeni dünya cəmiyyətinin öndə olan ölkələrindən birinə çevrilməsinə güclü dəstək olur. Bu, ən çox insan faktoruna ali münasibəti, ölkəmizin beynəlxalq arenada layiq olduğu mərtəbədə qərarlaşması ilə dəyərlidir. Dövlət başçısı Prezident İlham Əliyev fondun fəaliyyətini yüksək qiymətləndirərək demişdir: "Mehriban Əliyevanın rəhbərliyi ilə fond nəinki Azərbaycanda, eyni zamanda regionda görülən işlərin həcminə görə ən böyük ictimai təşkilata çevrilmişdir".

Həqiqətən, Mehriban Əliyevanın genişmiqyaslı fəaliyyəti ölkənin ictimai-sosial, mədəni həyatını əhatə etməklə bitmir. O, Azərbaycanın milli-mənəvi dəyərlərini, mədəniyyətini, ölkəmizin özünəməxsusluğunu, özəlliklərini, dünya cəmiyyətində böyük fədakarlıqla, uğurla təbliğ edir. Qədim ənənələrimizlə bağlı olan multikultural dəyərləri, tolerantlığı başqa ölkələrdə əməli işləri ilə nümayiş etdirir. Bir daha xatırladaq ki, bütün bunlar aydın təfəkkürə malik olan bir qadının - ölkənin birinci xanımı Mehriban Əliyevanın bilavasitə çalışmaları sayəsində mümkün olmuşdur.

Bütün bunlarla bərabər, çoxlarının yalnız xeyriyyəçilik yönümündə fəaliyyət göstərəcəyini zənn etdiyi Heydər Əliyev Fondu zaman baxımından qısa müddətdə reallaşdırdığı çoxşaxəli layihələrin miqyası ilə gözlənildiyindən xeyli böyük amalları uğurla gerçəkləşdirmişdir. Təsadüfi deyil ki, Mehriban Əliyeva Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2013-cü ildən partiyanın sədr müavinidir.

Bütün fəaliyyətində işgüzarlığı, böyük səyi və bacarığı ilə seçilən Mehriban xanım müsahibələrinin birində birinci xanım missiyasının məsuliyyətini şərh edərək demişdir: "Hər şey bu və ya digər insanın öz vəzifələrinə nə dərəcədə ciddi yanaşmasından asılıdır. Aydın şəkildə dərk etmək lazımdır ki, müəyyən anda sən fərdi şəxsdən ictimai şəxsiyyətə çevrilirsən. Sən artıq təkcə özünü və öz ailəni yox, öz ölkəni təmsil edirsən. Bu barədə özünə hesabat verməli, sözlərində, qərarlarında, hərəkətlərində daha təmkinli olmalısan. Bu, çox məsuliyyətli yükdür..."

Mehriban xanımın ölkəmizdə idmanın inkişafına göstərdiyi qayğıkeşlik, böyük dəstək idmançılarımızın beynəlxalq yarışlarda uğurlar əldə etməsinə səbəb olur. Onun Azərbaycan Respublikası Milli Olimpiya Komitəsinin İcraiyyə Komitəsinə üzv seçilməsi də ölkəmizdə idmanın inkişafına təkan vermişdir. Azərbaycanda bir-birinin ardınca keçirilən beynəlxalq konfrans və festivallar, yüksək səviyyədə təşkil olunan idman oyunları dünyanın nüfuzlu dövlətlərinin böyük marağına səbəb olmuşdur. Təsadüfi deyil ki, Mehriban xanımın "Bakı-2015" I Avropa Oyunları Təşkilat Komitəsinin sədri kimi fəaliyyəti iştirakçı ölkələr tərəfindən yüksək qiymətləndirilmiş, Azərbaycan Prezidenti tərəfindən "Heydər Əliyev" ordeni ilə təltif olunmuşdur. Ölkəmizdə IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsində də Təşkilat Komitəsinin sədri kimi Mehriban xanımın zəhməti qiymətsizdir.

Azərbaycanın Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın ilk keçirdiyi müşavirə müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin mənzillə təmin edilməsinə həsr edildi. Həmin tədbirdə o, bildirdi ki, qaçqın və məcburi köçkün soydaşlarımızın sosial, təhsil, məşğulluq, yaşayış və tibbi təminatı üçün lazım olan tədbirlərin mərhələlərlə həyata keçirilməsi davam edəcəkdir.

Mehriban xanım Əliyevanın xalqımızın maraqlarının müdafiəsinə yönəldilmiş hərtərəfli fəaliyyəti Azərbaycan qadınının cəmiyyətdəki rolu barədə aydın təsəvvür yaradır. O, humanizm və qayğıkeşlik kimi keyfiyyətləri təcəssüm etdirməklə hamı üçün xeyirxahlıq və mərhəmət nümunəsidir.

Mehriban xanım eyni zamanda Prezidentin ən yaxın silahdaşı, qayğıkeş ana, sevimli nənədir. Ailə qayğılarını, ictimai və siyasi fəaliyyəti bir arada və yüksək səviyyədə yerinə yetirmək böyük peşəkarlıq və səbir tələb edir. Bununla bağlı Mehriban xanım deyir: "Mən öz vəzifələrimi vaxtında yerinə yetirmək üçün düzgün iş forması, düzgün tarazlıq tapmağa çalışıram. Əlbəttə, mən, ilk növbədə, həyat yoldaşımın xanımıyam, uşaqlarımın anasıyam, nəvələrim var və həyatımın bu hissəsinə ayırdığım diqqətin ikinci plana keçməsini əsla istəmirəm".

Azərbaycanın birinci xanımının çoxşaxəli fəaliyyətinin nəinki Azərbaycanda, ölkə hüdudlarından kənarda da rəğbətlə qarşılanmasının səbəbləri kifayət qədər sadədir. O, əzmkar fəaliyyəti ilə təkcə milli-mənəvi dəyərlərin, mənəvi və qeyri-maddi irsin dünya miqyasında təbliğini deyil, həm də sivil dünyada sülhü, sabitliyi, sivilizasiyalararası dialoqu, multikulturalizmi, bir sözlə, insanlığın tərəqqisinə yönələn ali ideyaların reallaşdırılmasını, bu sahələrdə səylərin birləşdirilməsini hədəfə almışdır.

Mehriban xanım Əliyeva 2005, 2010 və 2015-ci illərdə üçüncü, dördüncü və beşinci çağırış Azərbaycan Respublikasının Milli Məclisinin deputatı seçilmişdir. Milli Məclisin deputatı kimi Mehriban xanım, sözün əsl mənasında, xalqın elçisi olmuşdur. Millət vəkili olaraq ölkədə iqtisadi islahatların hüquqi bazasının təkmilləşdirilməsi, sahibkarların qanuni mənafelərinin qorunması və işgüzar fəaliyyətinin gücləndirilməsi istiqamətində fəaliyyəti aktual problemlərə olan həssas münasibətin ifadəsi idi.

Milli Məclisdə respublikamızın qeyri-neft sektorunun, xüsusilə kiçik və orta sahibkarlığın inkişafı istiqamətində ayrı-ayrı regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbul edilməsi, iri infrastruktur layihələrinin həyata keçirilməsi ilə bağlı qanunlara dəyişiklik edilməsi, əhalinin yoxsulluq səviyyəsinin minimuma endirilməsi, kiçik və orta sahibkarlığın, xüsusən fermer təsərrüfatlarının daha da inkişaf etməsinə şərait yaradan yeni qanunların qəbul edilməsində Mehriban xanımın iştirakı diqqətəlayiq olmuşdur. Elə bu səbəbdən Birinci vitse-prezident Mehriban xanımın ölkə iqtisadiyyatının aktual problemlərinə olan həssas münasibəti Azərbaycan sahibkarları tərəfindən yüksək qiymətləndirilir.

2019-cu il noyabr ayında Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərliyi altında Moskvada keçirilmiş 10-cu Azərbaycan-Rusiya Regionlararası Forumunda Azərbaycan Sahibkarlar Konfederasiyasının nümayəndələri də iştirak etmişlər. Forum zamanı kiçik və orta sahibkarlığın inkişafı, kənd təsərrüfatı, turizm sektorları üzrə panellərə konfederasiya prezidentinin rəhbərlik etdiyi nümayəndələr də qatılmışlar.

Məlum olduğu kimi, son illər bütün bəşəriyyət görünməz bir düşmənə - koronavirusa qarşı mübarizə aparır. Bütün dünyanı çənginə almış koronavirus pandemiyasının Azərbaycanda da böyük çətinliklər yaratdığı, sərt karantin tədbirlərinin zərurət olduğu günlərdə Mehriban xanımın insanlarımıza "Sizin Mehriban" imzası ilə bitən müraciətləri yaxşı yadımızdadır. Onun səmimi sözləri, doğma bir insan kimi vətəndaşlara çağırışları pandemiya ilə bağlı maarifləndirmə işlərinin aparılmasında, karantin qaydalarının hər kəs üçün normaya çevrilməsində böyük rol oynadı. Bütün bunlar sayəsində Azərbaycan pandemiyadan ən az ziyan çəkən ölkələrdən biri oldu. Dövlətimizin pandemiyanın ziyanlı təsirlərinə məruz qalmış biznes subyektləri üçün nəzərdə tutduğu dəstək paketlərinin hazırlanmasında, bu paketlər çərçivəsində verilən yardımların öz ünvanına çatmasına nəzarət işinin təşkilində ölkənin Birinci vitse-prezidenti kimi Mehriban xanım Əliyevanın da müstəsna əməyi var. O, dəfələrlə qeyd etmişdir ki, pandemiya dövründə Azərbaycanın siyasətinin mərkəzində Azərbaycan vətəndaşının sağlamlığı dayanır və bunun üçün dövlət bütün qüvvəsini səfərbər etmişdir.

Mehriban xanım Əliyeva milli-mənəvi ideallara, humanist, insanpərvər dəyərlərə sadiq gənc nəslin formalaşması, gender bərabərliyinin təmini, sivilizasiyalararası dialoqun təşviqi, nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığın dərinləşdirilməsi, Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması ilə bağlı ölkəmizin haqlı mövqeyinin beynəlxalq aləmdə dəstəklənməsi istiqamətində də son dərəcə uğurlu nəticələrə imza atmışdır.

Bu gün Heydər Əliyev siyasətinin Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilməsi, bu siyasi kursun daha da zənginləşdirilməsi nəticəsində Azərbaycan yüksəlir, dünya dövlətləri arasında öz yerini daha da möhkəmləndirir. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm Qələbə də bu siyasətin layiqincə davam etdirilməsinin məntiqi nəticəsidir. Torpaqlarımızın işğaldan azad olunması tariximizə və dövlətçiliyimizə qızıl hərflərlə yazılan böyük Zəfərdir.

Mehriban Əliyeva Azərbaycan Prezidentinin ən yaxın silahdaşı kimi, dövlət başçısı ilə birlikdə Azərbaycan xalqının və Azərbaycan dövlətinin qarşısında duran bütün vəzifələri şərəflə yerinə yetirir. Hələ İkinci Qarabağ müharibəsi başlamamışdan öncə Birinci vitse-prezident xalqa müraciətində demişdir: "Hörmətli həmvətənlər! Son günlər baş verən hadisələr ölkəmizin hər bir vətəndaşını narahat edir. İşğalçının növbəti təxribatına dərhal layiqli cavab verildi. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Tanrıdan yaralı əsgərlərimizin tezliklə sağalmasını diləyirəm. Tanrı hər bir Azərbaycan döyüşçüsünün həyatını və sağlamlığını qorusun. Bu günlərdə bizim hamımızı emosiyalar bürüyür. Azərbaycan Ordusunun döyüş qabiliyyətinə, qəhrəman oğullar yetişdirən analara görə, vətəndaşlarımızın vətənpərvərlik hissinə, ilk çağırışdan Vətənin müdafiəsinə qalxmağa hazır olan gənclərə və on minlərlə könüllüyə görə, ölkəmizdən kənarda öz birmənalı mövqeyini bildirən, dövlətimizi və ordumuzu dəstəkləyən minlərlə azərbaycanlıya görə qürur hissi keçiririk. Birlik və ruh yüksəkliyi nümayiş etdirərək tarixi həqiqətin təntənəsi - Azərbaycanın ərazi bütövlüyünün bərpası üçün hər bir addıma hazır olmaq bizim müqəddəs mübarizəmizdə güclü və təsirli vasitədir. Bu günlər ərzində əsl vətəndaş mövqeyi nümayiş etdirən hər kəsə minnətdaram. Unutmayaq ki, bu gün biz bir amalımız olan millət, xalqıq. Bizə zəfər lazımdır. Hamımız üçün bir qələbə. Qalib gələn isə gücü birlik, ağıl və iradə ilə möhkəmlənən olur. Mən doğma Azərbaycanımı və öz müdrik, mərd və mərhəmətli xalqımı hədsiz dərəcədə sevirəm! Bizim işimiz haqq işidir və Tanrı bizimlədir! Uca Tanrı Azərbaycanı qorusun!"

Qarabağ müharibəsində həlak olmuş şəhid ailələrinə və qazilərə Mehriban xanımın təşkilatçılığı ilə göstərilən sosial yardımlar bu gün də davam edir. Ümumiyyətlə, şəhid ailələri və qazilərin qayğıları hər zaman dövlət üçün prioritet məsələ olmuş, onların çətinliklərinin həlli daim dövlət başçısının və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət mərkəzindədir. Bu sahədə dövlət orqanları ilə yanaşı, Heydər Əliyev Fondu da geniş və səmərəli işlər görür. Fond tərəfindən qazilər protez ortopedik vasitələrlə təmin edilir, şəhid və qazi övladlarının problemləri həll olunur, onlarla mütəmadi əlaqələr qurulur.

Sözügedən sahədə görülən tədbirlərdən biri də bütün yerli icra hakimiyyəti orqanlarında şəhid ailələri və qazilərlə iş üzrə müvafiq struktur bölmənin yaradılmasıdır. Yerli icra hakimiyyətlərində yeni yaradılmış bu şöbələrin əsas funksiyası şəhid ailələri və qazilərin müraciətlərinin dərhal icraata qəbul edilməsi, onların həlli istiqamətində müvafiq addımların atılması və nəticələri barədə məlumatların verilməsidir.

Mehriban xanım öz çıxışlarının birində demişdir: "Bu gün biz Azərbaycan Ordusuna, əsgər və zabitlərimizə hədsiz dərəcədə minnətdarıq! Qəhrəmanlığınıza, şücaətinizə, cəsarətinizə və dözümlülüyünüzə görə sizə minnətdarıq! Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsinə görə! Vətənə sədaqətlə xidmət etmək nümunəsinə görə! Siz bizim fəxrimizsiniz! Bu əlamətdar gündə Vətən uğrunda həlak olmuş qəhrəman oğullarımızın nurlu xatirəsini ehtiramla yad edir, onların doğma və yaxınlarına səbir arzulayıram! Bütün əsgər və zabitlərimizi səmimi-qəlbdən təbrik edirəm, Uca Tanrıdan onların hər birinə möhkəm cansağlığı, sevinc, sevgi və səadət, doğma Azərbaycanımıza sülh və əmin-amanlıq bəxş etməsini diləyirəm!"

Bu gün Qarabağ və Şərqi Zəngəzurda geniş quruculuq işləri aparılır, 30 ildə erməni vandalları tərəfindən dağıdılan evlər, sosial infrastruktur, talan olan ərazilər, meşələr, tarixi-mədəni-dini abidələr yenidən tikilir, qurulur. Bu işlərdə də şəxsən Mehriban xanımın xüsusi yanaşmasını hiss etməmək mümkün deyil. Onun tapşırıqları əsasında həyata keçirilən layihələr tezliklə Qarabağı və Şərqi Zəngəzuru cənnətə çevirəcək və bu yerlər bir çox beynəlxalq tədbirlərin keçiriləcəyi ünvan olacaq.

Mədəniyyətimizin, incəsənətimizin və muğam sənətimizin beşiyi olan Şuşa şəhərində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi və Mehriban xanım Əliyevanın təşkilatçılığı ilə 2021 və 2022-ci illərdə keçirilən "Xarıbülbül" və "Muğam" musiqi festivallarında bütün dünya bir daha dövlətimizin gücünün, xalqımızın müdrikliyinin, dövlət başçımızın əzminin, yenilməz iradəsinin və bütün bunların fonunda isə Azərbaycanın, sözün əsl mənasında, ən böyük bəladan qurtulduğunun şahidi oldu.

Ötən il Azərbaycanda bütün addımlar postmüharibə dövrünün yeni reallıqlarına uyğun atıldı. Vətən müharibəsindəki böyük Zəfərdən sonra Qarabağ və Şərqi Zəngəzurun minalardan təmizlənməsi, yenidənqurma, tikinti-quruculuq işlərinin başlanması qarşıda duran ən prioritet məsələlər idi. Azərbaycan heç kimdən yardım almadan bu missiyanı da uğurla icra etməyə başladı. Bu gün Prezident və Birinci vitse-prezident mütəmadi olaraq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında həyata keçirilən layihələrə şəxsən nəzarət edir, müxtəlif yeni obyektlərin təməlini qoyur, hazır olan infrastruktur obyektlərinin açılışlarına qatılırlar. Ümumiyyətlə, hazırda işğaldan azad olunmuş torpaqların sürətli bərpası istiqamətində böyük işlər görülür. İnsanların tezliklə öz yurd-yuvalarına qayıtması üçün infrastruktur layihələrinin həyata keçirilməsi, bu torpaqlarda sahibkarlığın inkişaf etdirilməsi, yeni iş yerlərinin yaradılması, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanması üçün mühüm tədbirlər həyata keçirilir. İyulun 19-da Azərbaycanın işğaldan azad edilmiş Zəngilan rayonunun Ağalı kəndinə əhalinin köçürülməsinə start verilməsi və ümumilikdə bu kəndə köçürülmüş 41 ailə, təxminən 200 nəfərin hər cür şəraiti olan evlərlə təmin olunması böyük qayıdışın başlanğıcıdır.

Cari ilin iyulunda altı ayın yekunlarına həsr olunan müşavirədə dövlətimizin başçısı öz çıxışında bildirmişdir ki, "Biz Qarabağı, Zəngəzuru yenidən qururuq, yenidən qurmalıyıq. Buna nə qədər vəsait lazımdır. Hamısını öz hesabımıza edirik, 1 il 8 ay ərzində hələ bir dənə də kömək görməmişik. Heç bir yerdən heç kim bizə bir manat yardım etməyib, hamısını özümüz edirik. Şəhərləri qururuq, kəndləri qururuq, binalar tikirik və hələ nə qədər edəcəyik".

Prezident işğaldan azad olunmuş rayonlara səfəri zamanı çıxışlarında iş adamlarına müraciət edərək onları bu ərazilərə sərmayə qoymağa çağırmışdır: "Mən çox şadam ki, Azərbaycan sahibkarları böyük həvəslə, ürəklə bu işlərə qoşulurlar". Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası Prezidentin bu çağırışını dəstəkləyir və bildirir ki, iqtisadi siyasətimizin istiqamətlərini nəzərə alaraq azad edilmiş torpaqlarda sahibkarlığın inkişafı böyük Qayıdışın daha tez bir vaxtda həyata keçirilməsinə mühüm töhfə verəcəkdir. Ümumiyyətlə, Azərbaycan Sahibkarlar Konfederasiyası ölkə sahibkarlarını təmsil edən təşkilat olaraq müasir çağırışları dərindən təhlil edir, bununla bağlı silsilə və ardıcıl tədbirlər həyata keçirir. Bu, istər qanunvericilik aktlarının təkmilləşdirilməsi, istər sahibkarlıq subyektlərinin problemlərinin öyrənilib əlaqədar təşkilatlar tərəfindən onların həllinə nail olunması, istərsə də sahibkarların maarifləndirilməsi işinin daha da dərinləşdirilməsi ilə bağlıdır.

Bu gün hər bir sahibkar anlayır ki, Azərbaycanın tərəqqisi və gələcək inkişafı üçün həyata keçirilən genişmiqyaslı tədbirlər davam etdirilməli və onlar bir sahibkar kimi bu işdə yaxından yardımçı olmalıdırlar. Bütün müharibə dövründə dövlət başçısının ətrafında sıx birləşərək "dəmir yumruğ"un bir parçası olmağı bacarmış Azərbaycan sahibkarları Qarabağın yenidən firavanlığa qovuşması, işğaldan azad olunmuş torpaqların iqtisadi cəhətdən dirçəlməsi naminə səylərini daha da gücləndirirlər. Arzu edirik ki, köçkünlərimiz tezliklə doğma yurd-yuvalarına dönsünlər və viran qoyulmuş, iqtisadi infrastrukturu dağılmış Qarabağın hər bir guşəsini birlikdə quraq.

Son illər ölkədə qadın sahibkarların da sayı əhəmiyyətli dərəcədə artmışdır ki, bu işdə Birinci vitse-prezident kimi Mehriban xanımın rolu danılmazdır. Belə ki, ölkədə qadınların əmək bazarında kişilərlə bərabərhüquqlu iştirakına imkan yaradılması onların idarəetmə, biznes və hakimiyyət strukturlarında daha geniş təmsil olunması ilə nəticələnir.

Qeyd olunanlar bir daha təsdiqləyir ki, Mehriban xanım Əliyeva Azərbaycanın Birinci vitse-prezidenti statusunda uğurlu fəaliyyətini inamla davam etdirir, Ulu Öndər Heydər Əliyevin ölməz ideyalarına tapınmaqla milli intibah prosesinə layiqli töhfələr verir. Mehriban xanım tərəfindən görülən bütün işlər, atılan addımlar yalnız bir məqsədə - Prezident İlham Əliyevin inkişaf strategiyasının uğurla reallaşmasına, Azərbaycanın beynəlxalq nüfuzunun daha da yüksəlməsinə xidmət edir.

Praqmatiklik, kreativlik, siyasi çeviklik, yüksək erudisiya, alicənablıq, humanizm kimi ali şəxsi keyfiyyətlərə malik olan, milli köklərimizə, bəşəri ideyalara daim sadiq qalan Mehriban xanım Əliyeva vətənimizin və xalqımızın taleyində bundan sonra da müstəsna rol oynayacaq, ölkəmizin inkişafına yeni töhfələr verəcəkdir. Onun dövlətçiliyimizə və xalqımıza xidmət etmək arzusu bizdə olan bu inamı daha da gücləndirir.

*Bu gün Mehriban xanımın doğum günü qeyd olunur. Biz Sahibkarlar Konfederasiyası olaraq bütün sahibkarlarımız adından müasir Azərbaycan tarixinin banisi Ümummilli Lider Heydər Əliyevin ideyalarını həyata keçirən ölkə Prezidenti cənab İlham Əliyevin ən yaxın silahdaşı, xalqımızın sevimlisi Mehriban xanım Əliyevanı ad günü münasibətilə təbrik edir, onun xalqımızın taleyində bundan sonra da misilsiz rolu olacağına, ölkənin vüsətli inkişafına yeni və davamlı töhfələr verəcəyinə inanır, Azərbaycanın parlaq gələcəyinin qurulması istiqamətində olan fəaliyyətində müvəffəqiyyətlər arzulayırıq.*

***Məmməd MUSAYEV,***
***Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının prezidenti***

# Nəcib ənənələrin davamçısı



**Hər bir xalq qloballaşma və inteqrasiya prosesləri fonunda milli mənəvi, mental dəyərlərinin itirilməsi, aşınmaya məruz qalması təhlükəsi ilə üzləşir. Belə bir şəraitdə özünəməxsusluğu şərtləndirən ali keyfiyyətlərin yad təsirlərdən qorunub saxlanılması ciddi zərurətə çevrilir. Bu həm də onunla şərtlənir ki, fərqli mədəniyyətlərin toqquşması, dünya təsərrüfat sisteminə inteqrasiya, texnologiyaların sürətli tərəqqisi insanları yüksək ideal və dəyərlərdən uzaqlaşdırır.**

Azərbaycan ötən əsrin 90-cı illərində ictimai-iqtisadi formasiya dəyişikliyi fonunda bu və digər neqativ proseslərin mənfi təsirlərinə məruz qalsa da, Ulu Öndər Heydər Əliyevin müdrikliyi və uzaqgörən siyasəti sayəsində milli-mənəvi, dini dəyərlərini, adət-ənənələrini yad təsirlərdən qorumağa nail olub. Ümummilli Lider xalqına qəlbən yaxın, milli düşüncə və məfkurə sahibi olan şəxsiyyət kimi milli kimliyi ifadə edən dəyərlərə daim həssaslıqla yanaşıb, onların qorunaraq gənc nəslə aşılanmasını vacib sayıb. Eyni siyasi kursu 2003-cü ildən davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin də fəaliyyətində milli-mənəvi, əxlaqi dəyərlərə, adət-ənənələrə, mədəni irsə hörmət prinsipi hər zaman ön plandadır. Dövlət başçısı milli mədəniyyətin kənar təsirlər nəticəsində tənəzzülə məruz qalmasına yol verməyib, xalqın əsrarəngiz mədəni irsinin dünya miqyasında təbliğini vacib məsələ kimi önə çəkib.

2004-cü ildə Heydər Əliyev ideyalarının yaşadılması, təbliği və gələcək nəsillərə ötürülməsi məramı ilə yaradılmış Heydər Əliyev Fondunun bu istiqamətdə dövlət siyasətinə verdiyi sanballı töhfələr də xüsusi qeyd olunmaldır. Fondun ötən illərdəki fəaliyyəti Ulu Öndərin zəngin dövlətçilik irsinin öyrənilməsi və təbliğinə xidmət edən irimiqyaslı proqramları himayə etmək, xalqın rifahının yüksəldilməsinə yönəlmiş faydalı təşəbbüsləri dəstəkləmək, elm, təhsil, mədəniyyət, incəsənət, səhiyyə və idmanın inkişafını təmin edən layihələrə yardımçı olmaq, milli-mənəvi dəyərlərə sadiq gənclərin yetişdirilməsinə çalışmaq, respublikamızın nüfuzunu artırmaq, milli həqiqətləri təbliğ etmək kimi strateji istiqamətlərdən ibarət olub.

Ümummilli Liderin ideyalarından çıxış edən fond bu gün də ictimai həyatın müxtəlif sahələri üzrə fundamental layihələr həyata keçirir, hər bir vətəndaşın zəruri istək və arzularının gerçəkləşməsinə, problemlərinin həllinə maddi-mənəvi dəstək verir. Qarşıya qoyduğu bu və digər məqsədlər ilə cəmiyyətin mənəvi yüksəlişinə, sağlamlaşmasına çalışan fond nəinki ölkə hüdudlarında, beynəlxalq miqyasda da böyük nüfuz qazanıb.

2017-ci ildə obyektiv sosial-ictimai zərurət kimi Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyinat alan Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın fəal təşəbbüsləri ölkəmizin bəşəri miqyasda tanınmasına, həmçinin beynəlxalq miqyaslı tədbirlərin təşkilatçısına çevrilməsinə xidmət edib. Çıxışlarında bəşəriyyəti sülhə, sabitliyə, qarşılıqlı faydalı əməkdaşlığa, qlobal problemlərin birgə həllinə səsləyən çağırışların yer alması ölkənin birinci xanımının timsalında Azərbaycan qadını haqqında dolğun təsəvvür formalaşdırıb, qadınlarımıza xas nəcibliyi, zəngin daxili mədəniyyəti, ziyalılığı, humanizmi, kübarlığı təcəssüm etdirib.

Azərbaycanın Birinci vitse-prezidentinin hələ 2004-cü ildə UNESCO-nun, 2006-cı ildə ICESCO-nun xoşməramlı səfiri adına, 2007-ci ildə "Qızıl ürək" və Dünya Səhiyyə Təşkilatının İhsan Doğramacı adına Ailə Sağlamlığı Fondunun mükafatlarına, "Əsrlərin xeyriyyəçiləri" Beynəlxalq Fondunun Yaqut Xaç ordeninə, 2009-cu ildə "XXI əsrin böyük qadını" mükafatına, 2010-cu ildə isə Fransanın "Fəxri Legion" ordeninə, UNESCO-nun "Qızıl Motsart" medalına, 2011-ci ildə Krans Montana Forumunun qızıl medalına və digər mühüm təltiflərə layiq görülməsi onun beynəlxalq nüfuzunun bariz təcəssümüdür. Xüsusi vurğulamaq lazımdır ki, Azərbaycan Respublikası Prezidentinin 2015-ci il iyunun 29-da imzaladığı sərəncamla Mehriban Əliyeva Avropa Oyunlarının yüksək səviyyədə təşkili və keçirilməsindəki müstəsna roluna, ölkəmizin müsbət imicinin dünyada tanınması istiqamətində gördüyü işlərə görə "Heydər Əliyev ordeni" ilə təltif edilib.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə Mehriban Əliyeva kimi təcrübəli idarəçinin təyin edilməsi ölkədəki sistem islahatlarının tələbindən irəli gələn, cəmiyyətin mənafeyini özündə ehtiva edən tarixi qərar idi. Heydər Əliyev Fondunun prezidenti kimi vətənpərvər fəaliyyəti, humanizmə, mərhəmətə, nəcibliyə söykənən layihələri ilə böyük nüfuz qazanmış, yüksək idarəçilik keyfiyyətlərini təsdiqləmiş Mehriban xanım Əliyeva son 5 ildə rellaşdırdığı məsuliyyətli missiya ilə də dövlət başçısının və xalqın etimadını doğruldub. Bu təyinat dövlət idarəetmə sisteminin modernləşdirilməsi və islahatların sürətləndirilməsi baxımından mühüm əhəmiyyətə malik olub. Heydər Əliyev Fonduna yüksək səviyyədə rəhbərlik etmiş Mehriban Əliyeva cəmiyyətdəki böyük nüfuzu ilə idarəçiliyə yeni nəfəs, müasirləşmə və gəncləşmə ruhu verib. Birinci vitse-prezident statusunda fəaliyyəti Azərbaycanda dövlət idarəçilik sisteminin daha da təkmilləşdirilməsini, yeni qlobal çağırışlara uyğunlaşdırılmasını, innovativ yeniliklərə əsaslanmasını təmin edib, çoxşaxəli islahatların səmərəliliyini yüksəldib.

Cəmiyyətin müxtəlif sahələrində nəzərəçarpacaq nailiyyətləri, təmiz imici olan, yüksək bilik və bacarıqlara, idarəetmə və menecer təfəkkürünə malik gənc kadrlara dəstək olması, onların islahatlar prosesində fəal iştiraka cəlb edilməsi Mehriban xanım Əliyevanın Birinci vitse-prezident vəzifəsində səmərəli fəaliyyətini səciyyələndirən mühüm məqamlardandır. Müsahibələrinin birində birinci xanım idarəetməyə islahatçı baxışını özünəməxsus şəkildə ifadə edərək rəhbər şəxsdə vacib keyfiyyətləri belə səciyyələndirib: *"Mənim üçün insanlarla işləmək bacarığı, sənin baxışlarını prinsipcə bölüşən, sənin ardınca getməyə hazır olan həmfikirlər komandası yaratmaq bacarığı daha vacibdir. Çünki onlar anlayırlar ki, sənin işlərin xeyirxahlığa yönəlib. Çox vacibdir ki, bəyan və elan edilənlər həqiqətən baş verənlərlə üst-üstə düşsün. Çünki insanlar hər şeyi görür, hər şeyi anlayırlar".*

Cəmiyyətin aztəminatlı təbəqələri ilə apardığı fəal iş, onların problemlərinin həlli istiqamətində atdığı ardıcıl addımlar Birinci vitse-prezidentin fəaliyyətinin humanist və insanpərvər mahiyyətini bir daha təsdiqləyib. Bu statusda dövlətin sosial və humanitar siyasətinin uğurla həyata keçirilməsi prosesində yaxından iştirak etməklə yanaşı, situasiyaların idarə olunması prosesinə də mühümü töhfələr verib. Ali dövlət vəzifəsi Mehriban xanım Əliyevanın ölkənin hər bir vətəndaşına daha layiqli xidmət göstərmək, xalqın maraq və mənafeyini beynəlxalq arenada lazımınca təmsil etmək imkanlarını genişləndirib. Müasir yanaşma tərzi, yeniliklərə açıq olması, ölkə qarşısındakı strateji hədəfləri aydın təsəvvür etməsi ümumən hökumətin fəaliyyətinin səmərəliliyini yüksəldib.

Birinci vitse-prezidentin yaxından iştirakı ilə idarəetmənin müasir və çevik əsaslarla aparılması, vətəndaş amilini önə çəkən çevik idarəetmənin təmini qarşıya qoyulan vəzifələrin çevik icrasını təmin edir. Bu təyinatın özünü doğrultması və rəğbətlə qarşılanması həm də onunla şərtlənir ki, Mehriban xanım Əliyeva fəaliyyətində insan amilini hər zaman önə çəkib, cəmiyyətin mövcud potensialının bu yöndə səfərbər olunmasına çalışıb.

2018-ci ilin 11 aprel seçkilərindən sonra sosialyönümlü islahatlarda keyfiyyətcə yeni mərhələnin başlanmasında, xüsusən də 2019-cu ilin əvvəlindən etibarən əhalinin aztəminatlı və imtiyazlı təbəqələrinin sosial müdafiəsinin gücləndirilməsinə xidmət edən kompleks tədbirlərin həyata keçirilməsində Prezident İlham Əliyevlə yanaşı, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın da xidmətləri xüsusi qeyd olunmalıdır. Yürüdülən uğurlu iqtisadi siyasət - çevik və şəffaf vergi-gömrük islahatları nəticəsində son 4 ildə ölkəmizin maliyyə imkanlarının əhəmiyyətli dərəcədə artımı ilə paralel uğurlu sosial islahatlar paketinin reallaşdırılması da təmin edilib.

Ali dövlət vəzifəsində ilk müşavirəni Bakı və Sumqayıt şəhərlərinin yataqxanalarında müvəqqəti məskunlaşmış qaçqın və məcburi köçkün ailələrinin yeni mənzillərə köçürülməsi məsələsinə həsr etməsi bir daha göstərib ki, cəmiyyətin xüsusi qayğıya ehtiyacı olan təbəqələrinin problemlərinin həlli Azərbaycanın Birinci vitse-prezidenti üçün prioritet məsələdir. Bu, əslində 2004-cü ildən Heydər Əliyev Fondu tərəfindən həyata keçirilən sosial layihələrin uğurlu davamı kimi də dəyərləndirilə bilər. Heydər Əliyev Fondu humanitar və sosialyönümlü fəaliyyətində hər zaman cəmiyyətin mənəvi, mədəni-intellektual yüksəlişini təmin etmək, habelə Azərbaycanın zəngin mədəni irsini - tarixi abidələrini, musiqisini, incəsənətini, ümumən isə ölkə həqiqətlərini dolğunluğu ilə dünya ictimaiyyətinə çatdırmaq məramını qarşıya qoyub. Aztəminatlı insanların, qaçqın və məcburi köçkünlərin, şəhid ailələrinin problemlərinin həllində dövlət basçısı ilə yanaşı, Birinci vitse-prezidentin fəaliyyəti də müstəsnalıq təşkil edir. İlk günlərdən cəmiyyətin həssas təbəqələrinin problemlərinin həllinə diqqət ayırması, 2017-ci il martın 1-də Sabunçu və Xəzər rayonlarında fiziki imkanları məhdud uşaqlar üçün nəzərdə tutulmuş internat məktəblərində yaradılmış şəraitlə tanış olması bunu bir daha təsdiqləyib.

Heydər Əliyev Fondu çoxşaxəli fəaliyyəti ilə ölkəmizdə sosial siyasətin və xeyriyyəçilik institutunun uğurla reallaşdırılmasına da töhfələrini verib. Müasir dövrdə iqtisadi inkişaf səviyyəsindən asılı olmayaraq, hər bir dövlətdə sosial müdafiəyə, köməyə, xeyirxahlığa ehtiyacı olan köməksiz təbəqəyə rast gəlinir. Bazar iqtisadiyyatının sərt reallıqları ilə uzlaşmamasına rəğmən əksər dövlətlər həssas sosial təbəqələrin ehtiyaclarına, problemlərinə həssas yanaşır, onları himayəsinə götürür. Azərbaycan dövlətinin bu istiqamətdəki fəaliyyəti isə xüsusilə diqqəti çəkir - respublikamızın dövlət büdcəsində sosialyönümlü xərclər, eləcə də insan inkişafına xidmət edən, iqtisadi səmərə güdməyən dövlət əsaslı kapital qoyuluşları xüsusi çəkiyə malikdir.

Prezident İlham Əliyev ölkədə yoxsulluğun aradan qaldırılmasını, insanların sosial problemlərinin həllini hökumət qarşısında mühüm vəzifələrdən biri kimi müəyyənləşdirib. Minimum əməkhaqqı, pensiya və müavinətlər müntəzəm olaraq artırılır, sosial obyektlərin tikintisi genişlənir. Bununla belə mövcud problemlərin həllini bütünlüklə hökumətin üzərinə qoymaq, orta təbəqəni, qeyri-hökumət təşkilatlarını, vətəndaş cəmiyyəti institutlarını məsuliyyətdən tamamilə kənarlaşdırmaq da düzgün yanaşma deyil. Bu mənada Heydər Əliyev Fondunun nəcib, xeyirxah fəaliyyəti digər qurumlar üçün də nümunə, örnəkdir.

Birinci vitse-prezident vəzifəsində də Mehriban xanım Əliyeva milyonlarla insanın ümid, güvənc yerinə çevrilib, ali dövlət səlahiyyətlisi simasında vətəndaşlara həssas münasibətin mükəmməl nümunəsini yaradıb. İnsanlara qayğıkeşliyi, mərhəməti, ehtiyacı olanlara əl tutması onun fəaliyyətinin real miqyasını tam əhatə etmir. Cəmiyyət həyatı ilə bağlı məsələlərə adekvat reaksiyası, vətəndaş müraciətlərinə operativ və həssas yanaşması onun yüksək humanizminin, insanpərvərliyinin, vətəndaşlıq məsuliyyətinin bariz təcəssümüdür. Qlobal humanitar layihələrin müəllifi kimi çıxış edən Azərbaycanın birinci xanımının istər respublikamızda, istərsə də ölkə xaricində ilbəil artan nüfuzu məhz onun yüksək mənəvi və işgüzar keyfiyyətləri, humanizmi ilə şərtlənir.

İdarəçilikdə yeni yanaşmaların vacibliyini önə çəkən Mehriban xanım Əliyevanın bu fikirləri xüsusilə təqdirəlayiqdir: *"Biz azacıq imkan olan yerdə kömək etməyə çalışırıq. Bilirsiniz, həm də ən vacibi nədir? Ən vacibi əlaqədir... Əgər insan məktub yazırsa, elə ertəsi günü, yaxud hansısa qısa müddətdən sonra onunla əlaqə saxlamağa və öyrənməyə çalışırıq. Çünki biz öyrənməliyik. Bəzən elə olur ki, məktubda yazılanlar həqiqətə uyğun gəlmir. Əgər həqiqətən köməyin lazım olduğunu görürüksə, çalışırıq kömək edək. Hesab edirəm ki, Heydər Əliyev Fondu məhz bunun sayəsində insanların sevgi və hörmətini qazanıb".*

Birinci vitse-prezident haqlı olaraq qeyd edir ki, xeyriyyəçilik cəmiyyətdə mənəvi-psixoloji mühitin yaxşılaşmasına şərait yaradır, insanlar arasında münasibətləri humanistləşdirir, onların daha xeyirxah, səmimi və həssas olmasına müsbət təsir göstərir. Çətin məqamda başqalarından dəstək almış insan imkanı daxilində başqalarına kömək göstərməyə daha çox meyil edir. Beləliklə, cəmiyyətdə xeyirxah işlərin dairəsi genişlənir, qarşılıqlı kömək və dəstək sistemi yaranır. Bütün bunlar isə son nəticədə insanların qarşılıqlı münasibətlərinə, onların ovqatına və sosial əhvali-ruhiyyəsinə müsbət təsir göstərir.

Ölkənin hərtərəfli inkişafı, cəmiyyətin mənəvi-intellektual yüksəlişi baxımından təhsil məsələlərinin həlli də diqqətdə saxlanılır. Təhsil sistemindəki kadr islahatları, müəllimlərin əməyinin qiymətləndirilməsində müasir standartların tətbiqi, əlavələrin müəyyən edilməsi ölkə təhsilində özünü göstərən problemlərinə həllinə hesablanıb. Azərbaycanın zəruri ehtiyaclarını nəzərə alan Heydər Əliyev Fondunun yeni məktəblərin tikintisi, mövcud ümumtəhsil müəssisələrinin əsaslı təmir və bərpası istiqamətində həyata keçirdiyi layihələr bu gün yeni miqyasda davam etdirilir, maarifləndirmə strategiyası inamla reallaşdırılır. Təkcə onu demək kifayətdir ki, Mehriban xanım Əliyevanın təşəbbüsü ilə qısa müddətdə Mərdəkan qəsəbəsində "İnci" körpələr evi-uşaq bağçası, Maştağa qəsəbəsində 9 saylı sanatoriya tipli körpələr evi-uşaq bağçası, habelə Bakının Nərimanov rayonunda 80 saylı körpələr evi-uşaq bağçası və 11 saylı xüsusi təhsil məktəbi, Səbail rayonunda 157 nömrəli uşaq bağçası, Şüvəlan qəsəbəsində "Cırtdan" Respublika Uşaq-Gənclər İstirahət və Sağlamlıq Mərkəzi və digər müəssisələr istifadəyə verilib. Açılış mərasimlərində şəxsən iştirak edən Birinci vitse-prezident məktəbəqədər və orta təhsilin cəmiyyət həyatındakı roluna yüksək önəm verdiyini əyani nümayiş etdirir, maarifçilik yoluna alternativin olmaması ilə bağlı ictimaiyyətə ciddi ismarıclar ötürür. Onun təşəbbüsü ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində, eləcə də 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günündə uşaqlar üçün bayram şənliklərinin təşkili də ənənə halını alıb.

Fondun təhsillə bağlı layihələri sırf Azərbaycanla məhdudlaşmır. Hələ 2007-ci ildə Hollandiyanın paytaxtı Amsterdamda fəaliyyətə başlayan Azərbaycan məktəbi Heydər Əliyev Fondunun diqqətindən kənarda qalmamış, məktəbə kompüter dəsti və dərs vəsaitləri göndərilmişdir. 2008-ci ilin fevralında isə fondun "Təhsilə dəstək" layihəsi çərçivəsində Pakistanın Müzəffərabad şəhərində dağıdıcı zəlzələ nəticəsində yararsız vəziyyətə düşən məktəb yenidən tikilmiş, yüksəksəviyyəli tədrisə imkan yaradan avadanlıqlarla təmin olunmuşdur. Eyni zamanda Azərbaycanın birinci xanımının təşəbbüsü ilə Rusiyada, Gürcüstanda, Misirdə yeni məktəb binaları tikilərək istifadəyə verilmişdir.

Son 10 ildə "Avrovizion-2012" musiqi yarışması, Birinci Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunlarına hazırlıq üzrə təşkilat komitələrinə inamla rəhbərlik etmiş Mehriban xanım Əliyeva ölkəmizin idman və əlverişli turizm məkanı kimi tanınmasını təmin edib. Respublikamızın nümayiş etdirdiyi yüksək təşkilatçılıq, qonaqpərvərlik nəticəsində Avropanın təkcə iqtisadi deyil, mənəvi-intellektual, mədəni baxımdan zəngin, multikultural ölkəsi olduğunu sübuta yetirib. Ən başlıcası, xalqımıza xas milli kaloriti, mətbəxi, ədət-ənənələri, incəsənət nümunələrini Avropaya təqdim edib. Birinci vitse-prezident statusunda müxtəlif ölkələrdə rəsmi səfərlərdə olaraq milli həqiqətlərimizi beynəlxalq ictimaiyyətə dolğun şəkildə çatdırıb. Çoxsaylı qonaqları qəbul edib, eləcə də Fransa, İtaliya və Rusiyada əhəmiyyətli görüşlər keçirib. Rusiya Federasiyası ilə Azərbaycan arasında əməkdaşlığın dərinləşməsində fəal roluna görə Birinci vitse-prezidentin qonşu dövlətin "Dostluq" ordeni ilə təltif edilməsi də xüsusi qeyd olunmalıdır.

Üzərinə götürdüyü şərəfli və məsuliyyətli missiya ilə Mehriban xanım Əliyeva Azərbaycanın demokratik dəyərlərə bağlı multikultural və tolerant ölkə kimi tanınmasına çalışır. Bu istiqamətdə ilk mötəbər tədbirlərdən biri Heydər Əliyev Fondunun təşkilatçılığı ilə hələ 2008-ci ildə Bakıda təşkil olunmuş "Mədəniyyətlərarası dialoqda qadınların rolu" mövzusunda konfrans olub. Sonrakı mərhələdə UNESCO, ICESCO, BMT-nin Sivilizasiyalar Alyansı və Avropa Şurasının dəstəyi ilə Bakıda Ümumdünya mədəniyyətlərarası dialoq forumları keçirilib. Bakı şəhəri 2011-ci ildən Bakı Beynəlxalq Humanitar forumlarını, habelə Dünya Dini Liderlərinin Sammitini, MDB Dinlərarası Şurasının, MDB Müsəlmanlarının Məşvərət Şurasının iclaslarını yüksək səviyyədə təşkil edib.

Müxtəlif beynəlxalq tədbirlərdə aparılan müzakirələr zamanı Azərbaycan multikulturalizminin inkişafında Heydər Əliyev Fondunun xidmətləri xüsusi qeyd olunub. "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində fond katolik, pravoslav kilsələrinin, sinaqoqların təmirinə ciddi töhfələr verib, eyni zamanda Vatikan tarixində ilk dəfə Romada müqəddəs Marçelino və Pyotr katakombalarının bərpasına yardım göstərib. Fond həmçinin Fransada Dünya Mədəni İrs siyahısına daxil edilmiş Versal sarayını, Parisdə on dördüncü əsrə aid Notr-Dam, Strasburq Kafedral kilsələrinin, İkinci Dünya müharibəsində dağılmış Berlin şəhər sarayının, həmçinin Vatikan arxivlərində saxlanılan Azərbaycan Orta əsrlər əlyazmalarının bərpa olunmasına kömək edib. Heydər Əliyev Fondu ilə Müqəddəs Arxeologiya üzrə Papa Komissiyası arasında imzalanmış Anlaşma Memorandumuna əsasən, fond Romanın Kapitoli Muzeyində bərpa işlərinin həyata keçirilməsinə dəstək verib.

Mədəniyyət layihələri çərçivəsində Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının, musiqiçilərinin yubileyinin keçirilməsi, Qəbələdə və azad olunmuş Şuşada beynəlxalq musiqi festivallarının təşkili də xüsusi qeyd olunmalıdır. Bir neçə gün əvvəl Bakıda dünyaşöhrətli azərbaycanlı opera və estrada müğənnisi, bəstəkar Müslüm Maqomayevin 80 illik yubileyinin yüksək səviyyədə keçirilməsi də dövlət başçısı İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyevanın korifey sənətkarlarımıza həssas, səmimi münasibətinin növbəti təzahürü idi.

Xatırlatmaq lazımdır ki, Mehriban xanım Əliyevanın 2004-cü ilin sentyabrında UNESCO-nun xoşməramlı səfiri seçilməsi ilə fondun milli irsin mühafizəsi sahəsindəki fəaliyyəti bir qədər də genişlənib. Azərbaycanın görkəmli şəxsiyyətlərinin və əlamətdar hadisələrin yubileylərinin UNESCO çərçivəsində qeyd edilməsi bu qurumla əlaqələrin yüksək səviyyəsindən xəbər verir. Füzulinin 500 illik, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illik, "Leyli və Məcnun" operasının ilk tamaşasının, dünyaşöhrətli alim, akademik Yusif Məmmədəliyevin, görkəmli yazıçı və ədəbiyyatşünas Mir Cəlal Paşayevin 100 illik yubileyləri, habelə bu qəbildən olan digər tədbirlər beynəlxalq təşkilat tərəfindən təntənə ilə qeyd edilib.

Bundan əlavə, Heydər Əliyev Fondunun rəhbərinin böyük səyləri, nüfuzu sayəsində Qobustan Dövlət Tarixi-Bədii Qoruğu, İçərişəhər, Qız qalası, Şirvanşahlar Sarayı Kompleksi, Şəki şəhərinin tarixi mərkəzi, Xan Sarayı UNESCO-nun Dünya İrsi Siyahısına, Azərbaycan muğamı, aşıq, xalçaçılıq, tar ifaçılığı və hazırlanması sənətləri, Novruz bayramı, dolma, lavaş və kəlağayı, Lahıc misgərlik sənəti UNESCO-nun Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrs üzrə Reprezentativ Siyahısına, çövkən oyunu UNESCO-nun təcili qorunmağa ehtiyacı olan Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilib.

Tarixi mədəniyyət abidələrinin təmiri və bərpasına göstərdiyi kömək də Heydər Əliyev Fondunun həyata keçirdiyi qlobal layihələr sırasındadır. Son 15 ildə Gəncədəki Cavadxan türbəsi, habelə Comərd Qəssab məqbərəsi, Bakının Şüvəlan qəsəbəsindəki Pirhəsən ziyarətgahı, Abdulla Şaiqin ev-muzeyi əsaslı təmir edilib. Məşhur mesenat Hacı Zeynalabdin Tağıyevin Mərdəkandakı ev-muzeyinin yüksək səviyyədə təmir olunması da fondun həyata keçirdiyi mütərəqqi layihələrdəndir. Azərbaycanın görkəmli şəxsiyyətlərinin adı ilə bağlı tarixi abidələrin bərpası yalnız keçmişə hörmət və tarixi həqiqətin bərpası kimi deyil, eyni zamanda gənc nəsli milli vətənpərvərlik ruhunda tərbiyəsinin əsas elementi, azərbaycançılıq ideologiyasının təşviqi kimi dəyərləndirilməlidir.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın avqustun 12-də Qobustan rayonunda Diri Baba türbəsində, eləcə də İsmayıllıda "Basqal" Dövlət Tarix-Memarlıq Qoruğunda aparılan yenidənqurma, tikinti-bərpa işləri ilə tanış olmaları turizmin inkişafına və milli mədəni irsə qayğı örnəyi kimi diqqətəlayiqdir.

Xalqımız 30 illik yurd nisgilindən sonra nəhayət ki, 2020-ci il noyabrın 10-da işğala son qoyaraq tarixi Zəfərə imza atıb. Bu həm də 30 ildən çox müddətdə Vətən həsrəti ilə yaşayan insanların nisgilinə, onların ümidsizliyinə son qoyulması idi. Müharibənin davam etdiyi günlərdə və sonrakı dövrdə Azərbaycanın Birinci vitse-prezidentinin rəsmi sosial şəbəkə hesabları üzərindən paylaşdığı məzmunlu, səmimi fikirlər, eləcə də videogörüntülər cəmiyyətin vətənpərvərlik ruhunda köklənməsi, münaqişə ilə bağlı üzləşdiyimiz gerçəkliklərin dünya ictimaiyyətinə çatdırılması baxımından son dərəcə əhəmiyyətlidir.

Vətən müharibəsindən sonra işğaldan azad edilmiş ərazilərdə başlanmış genişmiqyaslı abadlıq və yenidənqurma işlərinin reallaşdırılmasına Azərbaycanın Birinci vitse-prezidenti də layiqli töhfələrini verir. Mehriban xanımın tapşırıqları əsasında Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurda, xüsusilə Şuşa şəhərində tarixi mədəniyyət abidələrinin, dini ziyarətgahların bərpası prosesində yaxından iştirak edir. Ümumiyyətlə, fondun layihələri çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahların bərpası, konservasiyası və yenidən qurulması həyata keçirilir. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə başlanılıb.

Bu gün həm Heydər Əliyev Fondu "YAŞAT" Fondu ilə birlikdə şəhid ailələrinin, Qarabağ qazilərinin, eləcə də onların ailə üzvlərinin sosial təminatının gücləndirilməsi ilə bağlı mühüm işlər görür. Birinci vitse-prezidentin göstərişi əsasında Heydər Əliyev Fondu Vətən müharibəsi zamanı torpaqlarımızın ərazi bütövlüyü uğrunda şəhid olan hərbçilərin ailələrini və qazilərimizi diqqətdə saxlayır, onların qayğısına qalır. Fond bu kateqoriyadan olan insanların problemləri ilə yaxından maraqlanır, onları narahat edən məsələlərin həlli üçün mütəmadi olaraq tədbirlər həyata keçirir. Fondun dəstəyi ilə Vətən müharibəsində ağır yaralanan qazilərimiz müalicə və reabilitasiya üçün Türkiyəyə göndərilir, müasir protezlərlə təmin edilirlər.

*Bütün bunlar bir daha göstərir ki, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva dəyərli vaxtını, enerjisini insanların rifahına, firavanlığına, ali bəşəri dəyərlərin təbliğinə sərf edir. Bu fəaliyyətin fəlsəfəsində insanlara yaxşılıq, mərhəmət, insanpərvərlik kimi mütərəqqi ideyalar, nəcib amallar daim ön plandadır. Əminliklə demək olar ki, Birinci vitse-prezident cəmiyyətin rifahına yönəlmiş fəaliyyətini bundan sonra da inamla davam etdirəcək, Prezident İlham Əliyevin yaxın silahdaşı olaraq ölkəmizin tərəqqisi prosesinə sanballı töhfələrini verəcək.*

***Qüdrət KƏRİMOV,***
***"Xəzər" QSC-nin sədri, iqtisad elmləri doktoru***



# İncəqəlbli birinci xanım

## Anaların və uşaqların böyük himayədarı

2020-ci il noyabrın 8-də dövlət başçısı, Müzəffər Ali Baş Komandan İlham Əliyev Azərbaycan xalqına Şuşanın azad edilməsi xəbərini çatdıranda "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim" dedi. Bütün dünyada böyük siyasi nüfuz və vətənimizdə isə xalqın dərin sevgisini qazanmış Prezidentimiz həqiqətən xoşbəxt insandır və bunu şərtləndirən amillər, təsdiqləyən faktlar çoxdur. Bunlardan biri də onunla çiyin-çiyinə addımlayan ömür-gün yoldaşının, dostu və silahdaşının olmasıdır.

Mehriban xanım Əliyevaya da xalqın rəğbəti, məhəbbəti, etimadı böyükdür. Belə ki, Azərbaycanın bugünkü yüksəlişində Birinci vitse-prezident, birinci xanım, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın zəhməti və xidmətləri danılmazdır. Eyni zamanda UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri olan Mehriban xanımın gördüyü böyük işlərin, həyata keçirdiyi nəhəng layihələrin hər birinin arxasında böyük zəhmət, səriştə və məsuliyyət dayanır. Başqa sözlə, onların hər birinin layiqincə yerinə yetirilməsi səbir, düşüncə, bilik və təcrübə, əməli işlər görmək tələb edir. Mehriban xanım Əliyevada isə bu xüsusiyyətlərin hamısı var.

Bütün bunlarla yanaşı, o, təbiətən xeyirxah, mərhəmətli və qayğıkeş bir insandır. Təsadüfi deyil ki, Azərbaycan qadınları, analar və uşaqlar bu incəqəlbli xanımın simasında özlərinin həmdəmini, himayədarını tapıblar.

Mehriban xanım Əliyeva daşıdığı bütün vəzifələrə ana qəlbi və ana təmkini ilə yanaşır. Başladığı hər yeni layihəyə, keçirdiyi hər bir tədbirə ana qəlbinin odunu, hərarətini qatır. Bütün çıxışlarından ana səsi-sədası gəlir, bütün söhbətlərində ana qayğısı, nəvazişi duyulur. Azərbaycanın birinci xanımının daşıdığı böyük, müqəddəs bir ad da var - Ana adı!

Ana adı və missiyası Mehriban xanım üçün çox əzizdir. Ona görə də o, belə deyib: "Əlbəttə, hər şəxsin formalaşmasında ailənin, ailə mühitinin, ailə tərbiyəsinin rolu əvəzsizdir. Ailəyə bağlılıq, ailə dəyərləri, uşaqlara qayğı, böyüklərə hörmət Azərbaycan xalqına məxsus olan ən gözəl xüsusiyyətlərdən biridir... Hər bir qadın üçün onun ailəsi, onun uşaqları həyatının ən vacib, ən mühüm hissəsidir. Mən özüm üç uşaq anası olaraq analıq missiyasını həyatımın ən vacib missiyası kimi dəyərləndirirəm. Əlbəttə ki, hər bir valideyn arzulayır ki, onun uşağı sağlam, bilikli, savadlı, xoşbəxt böyüsün və bunun üçün əlindən gələni edir".

Azərbaycan xalqının leksikonunda qədim zamanlardan belə bir ifadə də var - el anası. Ehtiyacı olanın çətinliyini duymağı bacaran, dərdliyə həmdəmlik edən, yetimi sinəsinə çəkən, qısası, bir kəndin, bir obanın camaatına qayğı göstərməyə qadir olan genişürəkli xanımlara el anası deyiblər!

Azərbaycanın birinci xanımının bu yönümdəki xeyirxahlıq missiyası bir ailənin, kəndin, yaxud şəhərin çərçivəsindən çıxaraq daha geniş miqyas alıb. Mehriban xanım Əliyeva bütün Azərbaycan xalqının xeyirxahı, həmdəmi, qayğıkeşidir. O, hamıya kömək etməyə, yaxşı işlərdə dəstək verməyə, yardım göstərməyə qadir və həmişə hazır olan böyük Anadır!

Mehriban Əliyevanın xeyirxahlıq missiyası təkcə özümüzə deyil, bütün dünyaya bəllidir. Bu missiyanın bəhrələri özünü artıq Yer üzünün ayrı-ayrı guşələrində də göstərməkdədir.

Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə reallaşan "Diabetli uşaqlara ən yüksək qayğı" və "Talassemiyasız həyat naminə" layihələri sözügedən xəstəliklərdən əziyyət çəkən insanların, xüsusilə uşaqların pulsuz müayinə olunmasına və müalicə almasına, nəticədə şəfa tapmasına imkan yaradıb. Bu və digər xəstəliklərin aradan qaldırılmasına kömək edən neçə-neçə yeni tibb müəssisəsi, o cümlədən Talassemiya Mərkəzi, keçən il isə Autizm Mərkəzi istifadəyə verilib.

Bakıda və ölkənin digər regionlarında mütəmadi keçirilən qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən uşaqların əməliyyat olunması, aztəminatlı ailələrin üzvlərinin müayinələri, lazım gəldikdə insanların xarici ölkələrə müalicəyə göndərilməsi... Bütün bunlar Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın xeyirxah əməlləri nəticəsində baş tutur.

Hələ biz "Uşaq evləri və internat məktəblərinin inkişafı", "Yeniləşən Azərbaycana yeni məktəb", "Təhsilə dəstək" və digər layihələri demirik...

Bir zamanlar uşaq evindəki balaca oğlan və qızların o qədər də yaxşı qidalanmaması, ailələrdə böyüyən atalı-analı yaşıdlarından geyim-kecimdə də geridə qalması hamıya məlum olan həqiqət idi. İndi bu uşaqların heç nəyə ehtiyacı yoxdur! Necə deyərlər, kefləri kök, damaqları çağdır. Bunun hamısı Mehriban Əliyevanın zəhməti, səyi nəticəsində olub. Ancaq uşağı çörəklə, ləziz nemətlərlə doydurmaq, əyin-başını düzəltmək hələ işin yarısıdır. Onun isti nəfəsə, qayğıya ehtiyacı daha çox olur. Hamımız Mehriban xanımın yetim, yaxud xəstə uşağı necə məhəbbətlə qucağına götürdüyünü, necə istəklə bağrına basdığını çox görmüşük! Bu, internatlarda və uşaq evlərində işləyən qadınlara bir nümunə, bizim hamımıza, bütün cəmiyyətə bir mesajdır!

Əvvəllər uşaq evində böyüyən oğlan və qızların məktəbi bitirəndən, yəni yetkinlik yaşına çatandan sonra haraya üz tutacağı, harada yaşayacağı da cəmiyyəti narahat edən bir problem idi. Mehriban xanım bu uşaqların da qayğısına bir ana kimi qaldı. Onlar üçün ev tikdirdi...

Şanlı Qələbəmizədək yaşadığımız son illər ərzində Mehriban xanım Əliyeva qaçqın və məcburi köçkünlərin problemlərinin həlli üçün də ardıcıl işlər aparıb. Təsadüfi deyil ki, Birinci vitse-prezident vəzifəsinə təyin olunandan sonra ilk müşavirəsi də onlara həsr edilmişdi. "Bakı və Sumqayıt şəhərlərində yararsız, qəzalı binalarda yaşayan bütün köçkün ailələri tezliklə yeni mənzillərə köçürülməlidir. Bu məqsədlə əlavə vəsait ayrılmalıdır, binaların inşası üçün ərazi müəyyənləşdirilməlidir və tezliklə binaların inşası başlamalıdır. Bununla yanaşı, Bakı və Sumqayıt şəhərlərində tikilmiş yeni binalarda köçkün ailələrini yerləşdirmək üçün mənzillər alınmalıdır". Həmin tədbirdə Mehriban Əliyeva belə dedi. Dedi və həmişə olduğu kimi vədinə əməl etdi. Birinci xanım da dövlət başçısı kimi vədinə, verdiyi sözə həmişə sadiqdir.

Mehriban Əliyeva Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən üzərində Qələbə çalmış Vətən oğulları ilə qürur duyaraq "Fəxr edirəm ki, belə qardaşlarım var" deyir. Uca şəhidlik mərtəbəsinə yüksələn oğullarımızın ailələri daim Mehriban xanımı öz yanlarında görürlər. O öz ciyərparasını itirmiş anaların, körpəsi atasız qalmış gəlinlərin dərdinə şərik çıxır, kədərini bölür və onlara təsəlli verir. Bununla bahəm kövrəldiyini bəzən gizlədə bilmir...

Birinci xanım daim Prezidentlə bir yerdə, çiyin-çiyinədir. O cümlədən işğaldan azad edilmiş ərazilərimizdə də. Erməni vandallarının illərlə viranə qoyduğu mədəni-tarixi abidələrimizi vətəndaşlıq ləyaqəti və incə zövqü ilə bərpa etdirir. Mehriban xanımın təşkilatçılığı ilə o yerlərdə muğam, mahnı festivalları yenidən aləmə səs salır...

*Flora SADIQLI,*
*"Azərbaycan"*

# Mavi dünyanın ulduzları




Hər uşaq bir ulduzdur. Hər uşaq bir arzu, bir ümiddir. Onlar üçün özlərini xoşbəxt hiss etmək o qədər asandır ki... Çünki böyüklərin adi bildiklərinə, ya da heç əhəmiyyət vermədiklərinə ürəkdən sevinə, fərəhlənə bilirlər...

Uşaqlıq ömrün ən qayğısız çağıdır deyirlər. Sağlamlığında problemlər olan uşaqlar isə qayğıkeşlikdən məhrum olmamalıdırlar. Onlara xüsusi diqqət lazımdır. O cümlədən autizmli uşaqlara.

### Böyük sevinc, misilsiz hədiyyə...

Son illər dünyada, eləcə də ölkəmizdə autizmli uşaqların sayı artıb. 2021-ci ilin statistikasına görə, dünyaya gələn hər 44 körpədən biri autizm xəstəsidir. Autizm spektr pozuntusudur. Belə uşaqların reabilitasiyası baxımından intensiv terapiya alması mühümdür. Respublikamızda Autizm Mərkəzi yaradılıb. Mərkəz 2013-cü ildən fəaliyyət göstərir. Məqsədi autizm spektr pozğunluqları ilə üzləşən uşaqlara zəruri ünsiyyət və həyat bacarıqlarını öyrətmək, onları müstəqil həyata hazırlamaq üzrə ailələrlə işləmək, ölkə və beynəlxalq səviyyədə autizm sahəsində maarifləndirici layihələr həyata keçirməkdir.

Ölkəmizdə bu mərkəz yaradılanadək autizm diaqnozu qoyulmuş uşaqlar da, onların valideynləri də çox əziyyətlərə qatlaşmalı olublar. Autizm Mərkəzinin direktoru Aytən Eynalova deyir ki, respublikamızda belə bir məkan olmadığından belə uşaqları qonşu ölkələrə aparmaq məcburiyyətində qalırdıq. Bu isə böyük zəhmət tələb edirdi. Digər tərəfdən də maddi cəhətdən böyük problemlər yaranırdı. Bu mərkəz yaradılandan sonra da uşaqlar müəyyən müddət bir çox çətinliklərlə, qayğılarla qarşılaşdılar. Ən böyük problemləri isə Autizm Mərkəzinin daimi və müasir standarlara əsasən qurulmuş binasının olmaması idi. Amma Mehriban xanım bu problemi də həll etdi.

Respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə Bakının Nizami rayonunda Autizm Mərkəzi üçün bina inşa edildi. Heydər Əliyev Fondunun dəstəyi ilə qurulan və istifadəyə verilən mərkəzdə autizmli uşaqların reabilitasiyası üçün mükəmməl şərait yaradıldı.

Autizm Mərkəzinin direktoru A.Eynalova respublikamızın Birinci vitse-prezidenti Mehriban Əliyevanın diqqət və qayğısını hər zaman hiss etdiklərini minnətdarlıqla dilə gətirir. Vurğulayır ki, Mehriban xanım Əliyeva üç dəfə mərkəzimizi ziyarət edib. Hələ 2019-cu il oktyabrın 31-də Birinci vitse-prezident Mehriban Əliyeva paytaxtın Nərimanov rayonundakı "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Autizmli uşaqlar üçün reabilitasiya Mərkəzinə gəlib. Uşaqlarla görüşüb, onların yaşayış şəraiti, göstərilən sosial və reabilitasiya yönümlü xidmətlərlə tanış olub.

Birinci vitse-prezidentin bu qayğıkeş ziyarəti oradakı uşaqların və mütəxəssislərin böyük sevincinə səbəb olub, onlarda, eləcə də valideynlərdə uşaqların sağlam gələcəyinə inamı artırıb. Bu ziyarət autizmli uşaqların cəmiyyətdən təcrid edilmədiyini, əksinə, onların gələcəyinin dövlətin daim diqqət mərkəzində olduğunu göstərib.

Aytən Eynalova həmin görüşdə keçirdiyi duyğuları yada salır: "Birinci vitse-prezident Mehriban xanım Əliyeva həm uşaqlarla, həm də mütəxəssislərimizlə çox gözəl, unudulmaz bir gün keçirdi. O, uşaqlarla ünsiyyət qurdu, onlarla sosial baxımdan əyləncəli olan gün keçirdi".




### Uşaqlara qayğının bariz nümunəsi

Mərkəzin direktoru bildirir ki, autizm sindromlu insanlar lazım olan bütün qayğı ilə əhatə olunsalar da, onlar üçün, eləcə də valideynləri üçün daha vacib olanı dövlətin qayğısını hiss etmələridir: "Birinci vitse-prezident Mehriban Əliyevanın "Birgə və Sağlam" İctimai Birliyinin nəzdində fəaliyyət göstərən Autizmli uşaqlar üçün reabilitasiya Mərkəzinə etdiyi ziyarətlər, verdiyi dəstək respublikamızda belə uşaqlara qayğının ən yüksək səviyyədə göstərilməsinin bariz nümunəsidir. Cəmiyyət tərəfindən qəbul edilməmələri autizm sindromlu uşaqların ən böyük sıxıntılarından biri, bəlkə də birincisidir. Autizm sindromu ilə bağlı maarifləndirmənin aparılması baxımından ən önəmli dəstək məhz dövlətin qayğısıdır. Bunu da ən gözəl şəkildə Birinci vitse-prezident Mehriban xanım Əliyeva öz qağıkeş ziyarəti ilə göstərdi. Mən də bir autizmli övlad anası olaraq, diqqətə çatdırım ki, övladlarımızın gələcəyi naminə bu sahədə dövlət qayğısını görmək bizim üçün çox vacibdir. Mən həm öz adımdan, həm də bütün valideynlər adından Mehriban xanım Əliyevaya dərin təşəkkürümü bildirmək istəyirəm. Bizim ümidimiz var ki, dövlət gələcəkdə də onların daha rahat, daha sərbəst addım ata bilməsi üçün qayğı göstərəcək".

A.Eynalova bildirir ki, hər zaman xeyirxahlıq nümunəsi göstərən Heydər Əliyev Fondu autizm spektr pozuntulu uşaqları da unutmayıb: "Ötən il dekabrın 31-i - Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il bayramı ərəfəsində mərkəzin binasının istifadəyə verilməsi uşaqlarımız üçün çox böyük sevinc, misilsiz hədiyyə oldu".

2021-ci ilin dekabrında Bakının Nizami rayonunda Heydər Əliyev Fondu tərəfindən yeni inşa edilən və istifadəyə verilən Autizm Mərkəzinin açılışında Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva iştirak ediblər.

Autizm Mərkəzi autizmli şəxslərin istər fizioloji, istərsə də fiziki inkişafına ciddi dəstək verən bütün lazımi avadanlıqlarla təmin olunub. Mərkəzdə ən müasir standartlara cavab verən 21 dərs otağı mövcuddur. İndividual yanaşma ilə həyata keçirilən dərs prosesinin aparıldığı otaqlarla yanaşı, xüsusi terapiyalar üçün idman zalı, autizmli şəxslərin özünəqulluq bacarıqlarını inkişaf etdirə biləcəkləri nümunəvi yaşam otaqları, musiqi kabineti var. Bir sözlə, autizm xəstəliyindən əziyyət çəkən uşaqların intensiv terapiya alması və onların asudə vaxtlarının səmərəli təşkili üçün mərkəzdə lazımi şərait yaradılıb. Autizm mərkəzində 23 yaşınadək şəxslərin qayğısı ilə müvafiq təlim keçən mütəxəssislər məşğul olurlar. Mərkəzdə 40-dək mütəxəssis çalışır. Onların hər biri öz işində səriştəli, yüksəkixtisaslıdır.

### Sevginin qarşılığı sevgi ilə verilir

Mərkəzdə "Kashalata cafe" fəaliyyət göstərir. Bura dünyanın nadir məkanlarındandır ki, personalı autizmli şəxslərdir. Belə ki, kafedə çalışanlar yeniyetmə və gənc autizmli xəstələrdir. Burada onlara peşə öyrədilir. Onlar mütəxəssislərin nəzarəti altında menyudakı şirniyyatların hazırlanmasında, xidmət sahəsində fəaliyyət göstərirlər. Mehriban Əliyeva ötən il mərkəzdə yerləşən "Kashalata kafe"də uşaqlarla birgə şirniyyat da hazırlayıb.

Mərkəzdə "Mavi ürəklər" adlı xor və ritm qrupu da fəaliyyət göstərir. Aytən Eynalova deyir: "Keçən il uşaqlarımız "Adı kimi Mehribandır" adlı mahnı ifa etdilər. Mahnının sözlərini və musiqisini bizim "Mavi ürəklər" xor və ritm qrupumuzun rəhbəri Arzu Səmədqızı yazıb. O mahnı Mehriban xanımın çox xoşuna gəldi. Öz sosial şəbəkə hesabından da paylaşdı. Bu mahnı onu çox duyğulandırdı. Bildirdi ki, qısa zamanda sizi ziyarətə gəlib, o mahnını da birlikdə oxuyacağıq. Gəldi, bizə mərkəz təsis etdi və o mahnını da uşaqlarımızla birlikdə oxudu".

Bütün dünyada mavi rəng autizmin simvoludur. Göy üzünün, üfüqün və dənizin rəngi olduğuna görə mavi rəng azadlığın və sərhədsizliyin simvolu hesab edilir. Onlar isə mavi dünyanın işıqlarıdırlar. Xüsusi qayğıya və sevgiyə ehtiyacları var.

Aytən Eynalova Birinci vitse-prezident Mehriban Əliyevanın Autizm Mərkəzinə hər ziyarətində uşaqlarla çox gözəl və fərqli ünsiyyət qurduqlarını diqqətə çatdırır. Vurğulayır ki, Mehriban xanım uşaqlarımızla zaman keçirir, onlara qayğı göstərir, necə diqqətcil olduğunu göstərir: "Mehriban xanım uşaqlarla çox gözəl ünsiyyət qurur. Adətən autizmli uşaqlara yanaşmaqda çox adam çətinlik çəkir, çəkinir. Onlarla necə ünsiyyət quracaqlarını bilmirlər. Bir məsələni də diqqətə çatdırım, autizm oğlanlarda qızlara nisbətən dörd dəfə daha çox görünür. Amma qızlarda daha şiddətli olur. Bizim bir qızımız çox narahat, olduqca təşvişli olur. Mehriban xanım Əliyeva mərkəzimizə gəldiyi zaman onu qucaqladı, bağrına basdı. Onun uşaqlarımızın hər biri ilə ünsiyyəti gözəl alındı. Onu da deyim ki, Mehriban xanım Əliyeva bütün uşaqlara sevgi göstərməklə yanaşı, onlara həm də individual yanaşır. Mərkəzimizin yetirmələrindən olan Əlisahib Bayramovun qeyri-adi istedadını da gördü və dəyərləndirdi. Əlisahib bu diqqət, qayğı və sevgi sayəsində Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində oxudu. Ən böyük arzularından biri isə magistraturada təhsilini davam etdirməkdir. İstər Heydər Əliyev Fondunun xətti ilə, istərsə də şəxsi layihələri ilə Mehriban xanım Əliyevanın uşaqlara qayğı göstərdiyini daim görürük. Bizim övladlarımız onları kimin sevdiyini hiss edir, anlayırlar. İstər tipik inkişafı, istərsə də xüsusi qayğıya ehtiyacı olsun, bütün uşaqlar həssasdırlar. Ona görə də bu uşaqlar Mehriban xanımla bir yerdə olanda özlərini çox rahat hiss edirlər. Sevginin hiss olunduğu yerdə qarşılıq isə yenə də sevgi ilə verilir".

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

**Belə bir məşhur kəlam var ki, insanlar nəsihətlərdən çox onlara göstərilən fərdi nümunələrdən öyrənirlər. Hər birimizin cəmiyyətin layiqli üzvü kimi davranmağımız, özümüzə və başqalarına faydalar yaratmağımız üçün bütün zamanlarda parlaq örnəklərə ehtiyacımız var.**



# Vətənə sevgi nümunəsi

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun rəhbəri, UNESCO və İCESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın müasir tariximizdəki yeri və roluna, daşıdığı çoxşaxəli missiyaya müxtəlif baxış bucaqlarından nəzər yetirə bilərik. Bütün bunların hamısı ölkənin birinci xanımının fəaliyyət göstərdiyi hər yerdə insanlar üçün yaratdığı örnəklərlə tamamlanacaq. Bizə dünya və bəşəriyyət qarşısında ictimai məsuliyyətimizi anlamağı, müsbət dəyişikliklər yaratmaqdan ötrü sözdən əmələ keçməyi, elmin, mədəniyyətin, təhsilin gücünü, milliyyətindən, dilindən, dinindən asılı olmayaraq insana sevginin, onun sülh və rifah içində yaşamasından ötrü çalışmağın gözəlliyini anladacaq. Fərdləri, cəmiyyətləri bir-birindən ayıran uçurumları dərinləşdirib dünyamız üçün böyük qarşıdurmaların, faciələrin təməlini qoymaqdansa, onları bir-birinə yaxınlaşdırmaqdan ötrü mənəvi körpülər qurmağın, mədəniyyətlərin dialoquna nail olmağın, tolerantlıq, multikulturalizm ideyalarının nəticələrini nümayiş etdirəcək.

Mehriban xanım Əliyeva xalqımızın qürur duyduğu şəxsiyyətdir, millətin tərəqqisi üçün yeniləşən ideyalar sahibidir. Azərbaycanın Birinci vitse-prezidentinin inkişafa doğru hər addımı sosial reallığı dəyişən, daha gözəl, daha sağlam, hər kəs tərəfindən məmnunluqla qarşılanan yaradıcılıq məzmunu təqdim edir. Cəmiyyətin firavanlığına bu proseslərin əsas məqsədi kimi yanaşır, insanı müasir həyatımızın ən qiymətli dəyəri kimi qəbul edir. Bu baxımdan Mehriban xanımın fəaliyyətində məsuliyyət yükü ağır və şərəflidir. Çünki onun həyata keçirdiyi ali məqsədlərdir, yüksək amallardır. Bunlar o dəyərlərdir ki, tarixin heç bir dönəmində başqalaşmır, məzmununa xələl gətirmir. Dünyanı yaşadan, gələcəyə ümidi, inamı sarsılmaz edən belə dəyərli insanların haqq yolunda apardıqları qətiyyətli fəaliyyəti və hər addımda ümumxalq dəstəyi ilə əhatə olunmasıdır.

## Zəmanəsinin yetirdiyi şəxsiyyət

Böyük şəxsiyyətləri, adətən, öz zəmanələri yetirir. Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ilk dəfə ölkəmizin ictimai-siyasi həyatında görünməyə başladığı ötən əsrin 90-cı illərinin ortaları da Azərbaycan qadını üçün çağırışlarla zəngin bir dövr idi. Tariximizin həssas məqamlarında bu zərif təbəqənin sarsılmaz iradəsi, böyük fədakarlığı hər birimiz üçün qürur mənbəyi olub. Öz sədaqəti, əhdinə vəfası, Vətən sevgisi ilə adını mənəviyyat salnaməmizə qızıl hərflərlə yazmış Azərbaycan qadını ölkəmizin müstəqilliyi dövründə də potensialını ortaya qoymalı, beynəlxalq məkanda layiq olduğu ucalıqlarda qərarlaşmalı idi. Bu zərif cinsin nümayəndələri Mehriban xanım Əliyevanın timsalında bunu bacardı. Birinci vitse-prezident öz parlaq şəxsiyyəti ilə Azərbaycan qadınını dünyaya yenidən təqdim etdi. Onun şərəfli adını layiq olduğu ən yüksək zirvələrə ucaltdı. Tarixən böyük fədakarlıqlar göstərən, milli-mənəvi dəyərlərə sahib çıxan, evin, ocağın, yurdun bütövlüyünü qoruyan, vətən üçün layiqli övladlar yetişdirən Azərbaycan qadınını dünya bir daha Mehriban xanımın timsalında görüb tanıdı. Onun şəxsiyyətinə, zəkasına, amallarına, mənəvi keyfiyyətlərinə heyran qaldı. Nəcib əməlləri ilə yüksəldiyi zirvə həm bugünkü, həm də gələcək nəsillər üçün böyük qürur mənbəyidir.

Xeyirxah əməllər, el-obanın, xalqın tükənməz sevgisini qazandıran işlər, insanlar üçün yaradılan faydalar belə şəxsiyyətlər üçün həyatın mənasıdır. Bu, Mehriban xanım kimi insanların şüurlu seçimidir və həyatını məhz belə yaşamaq gələcək qarşısındakı dərk edilmiş məsuliyyət duyğusundan irəli gəlir. İnsan mənəvi kamilliyə, ruhani ucalığa məhz bu yolla qovuşur. Öz davranışları ilə mənsub olduğu xalqın özünəməxsus keyfiyyətlərini, zəngin aləmini də yaşadır, nəsillərdən-nəsillərə də ötürür.

Ölkəmizdə qadın fəallığı ənənələrinin yeni və ən parlaq mərhələsi məhz Mehriban xanım Əliyevanın adı ilə başlanır. Müsəlman Şərqində ilk dəfə olaraq qadınlara səsvermə hüququ vermiş dövlət olaraq Azərbaycanda qadın fəallığı ənənələrinin zəngin tarixi var. Ulu Öndər Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə bu ənənələr daha da inkişaf etmiş, xanımlarımızın cəmiyyətin ictimai-siyasi həyatında fəal iştirakı üçün lazımi şərait yaradılmışdır. Mehriban xanım isə müstəqillik dövründə Azərbaycan dövlətçiliyinin inkişafına verdiyi töhfələrlə bu sahədə bir sıra mütərəqqi ilklərin müəllifinə çevrilmişdir.

Mehriban xanım Əliyeva zamana, aktual məsələlərə geniş baxış bucağı, gələcək haqqında aydın təsəvvürləri ilə ölkəmizdə qadın fəallığı ənənələrini gücləndirmiş, bu hərəkatın forma və metodlarını modernləşdirmişdir. O, Azərbaycanın qadın hərəkatı tarixində fəaliyyəti təhsildən səhiyyəyə, idmandan milli mədəniyyətimizin təbliğinə, xeyriyyəçilikdən ətraf mühitin qorunmasına, millət vəkilliyindən idarəçiliyə qədər çox geniş spektri əhatə edən ilk şəxsiyyətdir.

Mehriban xanım Əliyevanın təşəbbüsü və bilavasitə rəhbərliyi ilə həyata keçirilən tədbirlərin əhatə dairəsi Azərbaycan hüdudlarından çox genişdir. Eyni zamanda beynəlxalq sülh və sabitliyin təmin edilməsində önəmli rol oynayan sivilizasiyalararası dialoq mühitinin formalaşdırılması, dünya mədəni irsinin qorunması üzrə aktual sahələrə şaxələnir. Bu çoxistiqamətli, əhatəcə geniş fəaliyyətin əsasında isə xalqa, insanlara sevgi, vətənpərvərlik, bəşəri ideallara sadiqlik, zərif, eyni zamanda mükəmməl bir humanizm durur.

Təkcə bir faktı xatırladaq ki, Mehriban xanım Əliyeva eyni zamanda həm Qərb dünyasına aid UNESCO-nun, həm də İslam dünyasının dəyərlərini təmsil edən ICESCO-nun xoşməramlı səfiri missiyasını daşıyan yeganə şəxsiyyətdir. Müasir dünyamızda iki dünyagörüşünü, sivilizasiyanı şəxsiyyətində bir araya gətirən və fəaliyyəti ilə hər iki qurumun ali məqsədlərinə xidmət edərək öz missiyasının icrasında böyük uğurlar qazanan ikinci bir ictimai-siyasi xadim yoxdur. Qərb və Şərq, iki mədəniyyət, onların fərqli dəyərləri, baxışları, bəşəriyyətə faydalı olmaq niyyətləri Mehriban xanım Əliyevanın həyata keçirdiyi real işlərdə bir araya gəlir.

Ölkənin birinci xanımı bu illər ərzində öz fəaliyyəti ilə milli dövlətçilik tariximizdə daha bir ilkin əsasını qoydu, müstəsna xidmətləri ilə bu tarixin yeni ənənələrini formalaşdırdı. Azərbaycanda birinci xanım institutunun fəaliyyəti, Heydər Əliyev Fondu kimi ölkə miqyasından kənarda da böyük nüfuza malik olan qurumun uğurları, milli mədəniyyətimizin dünyada təbliği ilə bağlı səmərəli həllər, mədəniyyət diplomatiyasının nailiyyətləri bilavasitə bu şəxsiyyətin adı ilə bağlıdır. Azərbaycanda Birinci vitse-prezidentlik institutunun ən gözəl fəaliyyət örnəyini də məhz Mehriban xanım Əliyeva yaratdı.

## Mədəniyyət diplomatiyasına xidmət

Onun fəaliyyətinin ilk dövrü daha çox Azərbaycanın mədəniyyət diplomatiyasının inkişafı ilə bağlıdır və bu fəaliyyət günümüzdə də davam edir. Ötən illərdə Azərbaycan Mədəniyyətinin Dostları Fondunun və "Azərbaycan-İrs" jurnalının təşkilatçılığı ilə milli musiqi korifeylərimizin albomları hazırlandı. Dünya yurdumuzun mənəvi sərvəti olan bu sənət adamlarını yenidən tanıdı, o dövrə qədər daha çox neft ölkəsi kimi gördüyü Azərbaycanın mədəniyyət xəzinəsini kəşf etməyə başladı.

Həm ölkə daxilində, həm də beynəlxalq arenada çoxsaylı təqdimat mərasimləri, sərgilər, festivallar, mədəniyyət günləri təşkil olundu. Sonrakı mərhələlərdə Bakı Muğam Mərkəzinin yaradılması, "Qarabağ xanəndələri" musiqi albomunun buraxılışı, Bakı Beynəlxalq Caz festivallarının təşkili kimi hadisələr də Azərbaycan Mədəniyyətinin Dostları Fondunun başladığı işin davamı idi.

Azərbaycan Milli Olimpiya Komitəsinin rəhbəri kimi hələ ötən əsrin 90-cı illərinin sonlarından ölkəmizdə idmanın inkişafı istiqamətində mühüm işlər görməyə başlamış Prezident İlham Əliyevin bu sahədəki fəaliyyətinə dəstək, Azərbaycanın idman ölkəsinə çevrilməsi, gənclərimizin fiziki və mənəvi sağlamlığı da Mehriban xanımı düşündürən məsələlərdən idi. Bu sahədə də faydalı olmaq istəyindən irəli gələrək o, 2002-ci ildə Azərbaycan Gimnastika Federasiyasının prezidenti missiyasını üzərinə götürdü. 2004-cü ildə isə Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü seçildi. Müxtəlif illərdə gimnastika üzrə dünya və Avropa çempionatlarının republikamızda keçirilməsi ölkəmizdə bu idman növünə marağın artmasında, ailələrin, xüsusilə qız övladlarını böyük həvəslə idmanın bu növünə yönəltməsində, Azərbaycanın idman ölkəsi kimi dünyada tanıdılmasında mühüm rol oynadı və bu gün də oynamaqdadır.

## Azərbaycanın birinci xanımı

Mehriban xanım Əliyeva 2003-cü ildən başlayaraq ölkəmizdə birinci xanım institutunu formalaşdırmış, bu statusun meyarlarını, ənənələrini fəaliyyəti ilə müəyyənləşdirmiş tarixi simadır. Ona qədər bəzi obyektiv səbəblərdən Azərbaycanda inkişaf etmiş bir çox Qərb ölkələrinin dövlətçilik ənənələri üçün uzun illərdən bəri xarakterik sayılan "birinci xanım" statusu mövcud olmamışdır. Mehriban xanım milli dövlətçilik tariximizdəki bu mütərəqqi ilkin müəllifidir.

2004-cü ildə onun rəhbərliyi ilə Heydər Əliyev Fondunun təsis edilməsi ölkəmizin ictimai həyatında yeni bir səhifə açdı. 2004-cü ildən bəri bu fond köməyə, şəfqətə ehtiyacı olan insanların ümid yerinə çevrilib. Ulu Öndər Heydər Əliyevin zəngin mənəvi-siyasi irsinin öyrənilməsində, milli dövlətçilik ideyalarının nəsildən-nəslə ötürülməsində bu fond müstəsna işlər görüb. Müasir dünyamızın yeni və qabaqcıl ideyalarla hərəkət edən təsisatlarından olaraq fond təhsil, mədəniyyət, səhiyyə, idman, elm, texnologiya, ekologiya və sosial sahələrdə son dərəcə faydalı layihələr reallaşdırıb. Azərbaycan vətəndaşlarının yaradıcı potensialının üzə çıxarılmasında və inkişafında, milli-mənəvi dəyərlərimizin qorunmasında və təbliğində, azərbaycançılıq ideologiyasının, mədəniyyətlərarası dialoqun, multikultural dəyərlərin təşviqində tarixi işlərə imza atıb. Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasına, müstəqil dövlətimizin beynəlxalq nüfuzunun daha da güclənməsinə, tərəfdaşlıq əlaqələrinin genişlənməsinə zəngin töhfələr verib.

## Xalqın gələcəyinə xidmət

Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyətində Azərbaycanın təhsil sisteminin qabaqcıl dünya standartları əsasında təkmilləşdirilməsi, insanlarımızın bu sahəyə marağının artırılması hər zaman xüsusi yer tutub. 2005-ci ildən etibarən Heydər Əliyev Fondunun dəstəyi və Mehriban xanımın rəhbərliyi ilə "Yeniləşən Azərbaycana yeni məktəb", eləcə də "Uşaq evləri və internat məktəblərinin inkişafına dəstək" layihələrinin icrasına başlanmış, ölkəmizin müxtəlif bölgələrində yüzlərlə yeni məktəb tikilərək istifadəyə verilmişdir. Müvafiq dövlət təşkilatları ilə yanaşı, biznes qurumları, ictimai birliklər, qeyri-hökumət təşkilatları da bu prosesə fəal şəkildə qoşulmuş, beləliklə, bazar iqtisadiyyatı dövründə cəmiyyətimizdə korporativ sosial məsuliyyət ənənələri formalaşmış, ümumilikdə insanların təhsilə artan marağı təhsili ictimai hərəkata çevirmişdir. Bütün bunlar xalqın gələcəyinə xidmətdir və ömrünü elmə, maarifə həsr etmiş bütün mütəfəkkirlər kimi Mehriban xanım Əliyeva da təhsilin inkişafına, insanların savadlanmasına dəstəyi ilə adını tarixə əbədi yazmışdır.

## Ali dəyərlər daşıyıcısı

Ölkə hüdudlarından kənarda reallaşdırılmış layihələr təkcə təhsillə də məhdudlaşmır. Mehriban xanımın təşəbbüsü, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Marçellinio və Pietro katakombalarının, Luvr muzeyinin bir hissəsinin bərpası və digər muzey komplekslərinin tikilməsində iştirakı Azərbaycanın nadir tolerantlıq məkanı kimi dünya miqyasında mədəniyyətlər və dinlərarası dialoqda oynadığı misilsiz tarixi rolun ifadəsidir.

Mehriban xanım Əliyeva müasir dünyamızda mədəniyyətlər arasında dialoq, multikulturalizm, tolerantlıq ideyalarını aşılayır. Bütün dinlərin, mədəniyyətlərin bəşəriyyətə təlqin etdiyi ali dəyərləri - insana sevgini, şəfqəti, xeyirxahlığı, köməyə ehtiyacı olana əl tutmağı, eləcə də çağdaş dövrümüzdə bu dəyərlərin daşıyıcılarına nə qədər böyük ehtiyacın olduğunu öz fəaliyyəti ilə ifadə edir, bir insanın bu dəyərləri öz şəxsində bir araya gətirməsinin mümkünlüyünü göstərir.

Mehriban xanım kimi böyük nüfuz sahiblərinin insanlara təsir imkanları geniş olduğundan onun fəaliyyəti, göstərdiyi nümunələr xeyirxahlığı, xoş əməllər sahibi olmağı cəmiyyət üçün normaya çevirir, yeni ictimai meyarlar, ideallar formalaşdırır.

## Mahir təşkilatçı

Birinci vitse-prezidentin fəaliyyətində insanların sosial problemlərinin həlli, o cümlədən səhiyyə məsələləri də daim aktuallıq kəsb etmişdir. Daun Sindromlu Şəxslərin Reabilitasiyası Mərkəzinin, Talassemiya Mərkəzinin tikilməsi, bütün ölkə boyu bir çox yeni tibb müəssisələrinin inşası, abadlaşdırılması Mehriban xanım Əliyevanın Azərbaycan insanlarının sağlamlığına böyük töhfəsidir.

Vətən müharibəsindəki tarixi qələbəmizə qədər, torpaqlarımızın işğal altında olduğu dövrdə məcburi köçkünlərimizin sosial vəziyyətinin yaxşılaşdırılması, onlar üçün yeni yaşayış binalarının tikilməsi məsələsinə də birinci xanım xüsusi diqqət yetirmiş, Prezident İlham Əliyevin bu istiqamətdə həyata keçirdiyi məqsədyönlü tədbirlərə böyük fayda vermişdir.

O, Milli Məclisin deputatı kimi 10 illik fəaliyyəti dövründə də gördüyü işlərlə, seçicilərinə münasibəti ilə millətə vəkilliyin parlaq örnəyini yaratmışdır. Mehriban xanımın bir neçə dəfə ölkə parlamenti qarşısında irəli sürdüyü amnistiya təşəbbüsləri ilə 30 mindən çox vətəndaşımız azadlığa qovuşmuşdur.

Ölkənin birinci xanımının təşkilatçılıq bacarıqları böyük bir məktəbdir. Məhz Mehriban Əliyevanın rəhbərlik etdiyi layihələrin icrasına məsuliyyətli münasibəti, həssaslıqla nəzarəti sayəsində Azərbaycan 2012-ci ildə "Avroviziya" Beynəlxalq Mahnı Müsabiqəsini, 2015-ci ildə I Avropa Oyunlarını, 2017-ci ildə IV İslam Həmrəyliyi Oyunlarını ən yüksək səviyyədə keçirmiş, bu beynəlxalq tədbirlərin yeni keyfiyyət meyarlarını, üstün standartlarını formalaşdırmışdır.

2017-ci ilin 21 fevralından Mehriban xanım Əliyeva ona rəğbət bəsləyən bütün Azərbaycan xalqının sosial sifarişi kimi daha bir mühüm tarixi missiya yerinə yetirir, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti kimi ölkəmizin tərəqqisinə, həyata keçirilən dövlət siyasətinin icrasına dəyərli töhfələrini verir. Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətin uğurları sayəsində bu gün tarixinin ən qüdrətli mərhələsinə gəlib çatmış Azərbaycanın qazandığı nailiyyətlərdə dövlət rəhbərimizin ən yaxın silahdaşı kimi Mehriban xanım Əliyevanın böyük xidmətləri var. Dövlətimizin sosial, humanitar sahələrdə həyata keçirdiyi inkişaf proqramlarının icrasında, bu proqramların öz hədəflərinə çatmasında o, mahir təşkilatçı, təcrübəli idarəçi kimi mühüm rol oynayır. Mehriban xanım Əliyevanın təşəbbüsü və rəhbərliyi ilə reallaşdırılan layihələr Vətən müharibəsindəki şanlı qələbəmiz nəticəsində işğaldan azad edilmiş doğma yurdlarımızın dirçəlişinə töhfə verir, erməni vandallarının işğal dövründə tar-mar etdikləri tarixi irsimizi yenidən həyata qaytarır, yurdun mədəni yaddaşını bərpa edir.

## Azərbaycan sevgisinin gücü

O, Azərbaycan naminə gördüyü bütün işlərə qəlbinin sevgisini qoyur, bütün nəcib əməllərində, nail olduğu xoş nəticələrdə bu sevgi görünür, duyulur, hiss edilir. Ona görə də apardığı işlər bu qədər uğurlu alınır. Azərbaycan insanı ona ailəsinin yaxın bir üzvü kimi yanaşır və bu yanaşmasında haqlıdır, çünki hər bir Azərbaycan vətəndaşının evində, ocağında Mehriban xanımın sevgisinin, qayğısının, bu yurdun insanlarına həssas münasibətinin işığı var. Mehriban Əliyeva bu yurdun köməyə ehtiyacı olan insanına doğmalarından artıq həyan, kimsəsizlərə arxa-dayaq, yaşlısına qayğıkeş övladdır. Pandemiyanın bütün dünyanı çənginə aldığı, Azərbaycan dövlətinin də vətəndaşlarımızı qorumaq üçün karantin tədbirləri həyata keçirmək məcburiyyətində qaldığı günlərdə onun insanlarımıza müraciətlərini, isti, qayğıkeş kəlmələrini kim unudar?!

Birinci vitse-prezident Mehriban xanım Əliyeva ömrünün hər bir məqamında Azərbaycan qadını adına sadiqdir, ömürgün yoldaşına dövlətimiz naminə gördüyü işlərdə ardıcıl dəstəyi, fədakarlığı, Vətən üçün böyüyüb boya-başa çatdırdığı xeyirli övladları ilə də nümunədir.

Bu gün Mehriban xanım Əliyeva ömrünün daha bir zirvəsinə qədəm qoyur, mənalı həyat tarixi bir ilin salnaməsi ilə daha da zənginləşir. Azərbaycanın ən yeni tarixinin şərəf səhifəsinə çevrilmiş ömrünün daha bir ucalığı münasibətilə Mehriban xanım Əliyevanı təbrik edir, sağlamlıq, xoşbəxtlik, Vətənimiz naminə fədakar fəaliyyətində yeni-yeni nailiyyətlər arzulayırıq.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# «Nə yaxşı ki, Mehriban xanım kimi ümid, güvənc yerimiz var»

## Onun xeyirxah əməlləri gələcək nəsillər üçün nümunədir

Həyatda hər kəs şanslı doğulmur. Kimi sonradan, kimisi də anadangəlmə qüsurlu olur. Bu gün həmin uşaqların bu xəstəliklərdən xilas olub cəmiyyətə qaytarılması dövlətin əsas prioritetlərindən biridir. Xüsusi qayğıya ehtiyacı olan belə uşaqların müalicəsi üçün əsas qayda - problemin vaxtında aşkarlanması, düzgün diaqnozun qoyulması və yetkinlik yaşına çatanadək ardıcıl müalicələrin aparılması və həkim nəzarətinin olmasıdır. Bəzən isə ailələr məhz imkansızlıq səbəbindən xəstə doğulan övladlarının müalicəsini gecikdirir.



Lakin Azərbaycan dövləti bu istiqamətdə çox mühüm addımlar atır. Səhiyyə sisteminin modernləşməsi ilə əhalinin sağlamlığının qorunması istiqamətində bir-birinin ardınca mühüm əhəmiyyətli layihələr həyata keçirilir.

Prezident İlham Əliyevin həyata keçirdiyi  siyasətin mərkəzində insan amili dayandığını səhiyyədəki islahatlar bir daha təsdiq edir. Nəticədə yeni tibb müəssisələri yaradılır, onların maddi-texniki bazası gücləndirilir. İnsanlar belə mərkəzlərə ümid yeri kimi baxır. Belə tibb müəssisələrindən biri də Talassemiya Mərkəzidir.

### İnsanların ümid yerinə çevrilən mərkəz

Müəssisə Milli Hematologiya və Transfuziologiya Mərkəzinin nəzdindədir. Profilinə görə regionda yeganə tibb müəssisəsi olan Talassemiya Mərkəzində son illər bir sıra islahatlar həyata keçirilir. Ölkə Prezidentinin 13 noyabr 2017-ci il tarixli fərmanı ilə Talassemiya Mərkəzi Publik Hüquqi Şəxs statusu alıb. Bu sərəncam mərkəzin fəaliyyətindən nəinki talassemiyalı xəstələrin, eləcə də onkohematoloji və digər xəstəliklərdən əziyyət çəkən vətəndaşlarımızın daha səmərəli istifadəsi üçün geniş imkanlar yaradır. Prezidentin sərəncamı Talassemiya Mərkəzinin unikal imkanları ilə digər dövlətlərin vətəndaşlarına da tibbi xidmət göstərmək üçün zəmin yaradıb.

Uşaqların sağlamlığını öz fəaliyyətinin mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirən Heydər Əliyev Fondu və onun prezidenti Mehriban Əliyevanın talassemiyalı uşaqlara diqqəti xüsusilə qeyd olunmalıdır. Fond 2005-ci ildən ölkədə bu xəstəliyin yayılmasının qarşısını almaq məqsədilə "Talassemiyasız həyat naminə" layihəsini həyata keçirməyə başlayıb. Bu layihə həmin xəstəlikdən əziyyət çəkənlər və onların doğmaları üçün böyük dəstək olub. Proqram çərçivəsində Bakıda tikilən Talassemiya Mərkəzi isə hemofiliyalı insanların böyük ümid yerinə çevrilib. Mərkəzin açılışında Prezident İlham Əliyevin və Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın iştirakı bu sahəyə verilən önəmin daha bir göstəricisidir. 2019-cu ilin dekabrında Talassemiya Mərkəzinin Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutu ilə birləşməsi nəticəsində Milli Hematologiya və Transfuziologiya Mərkəzinin yaradılması xəstələrin qanla təminatı sahəsindəki problemlərin aradan qaldırılmasında mühüm əhəmiyyət kəsb edib.

Stasionar, poliklinika və sümük iliyi transplantasiyası şöbəsi, laboratoriya, o cümlədən Azərbaycanda yeganə genişmiqyasli və yeni nəsil sekvenləşdirmənin tətbiq olunduğu genetik laboratoriya, diaqnostika və digər zəruri şöbələrə malik olan Talassemiya Mərkəzi beynəlxalq standartlara tam cavab verir. Burada quraşdırılan ən müasir tibbi avadanlıq müalicənin yüksək səviyyədə aparılmasına şərait yaradır. Təbii ki, bu, ciddi qayğının nəticəsidir. Layihənin həyata keçirildiyi müddətdə inkişaf etmiş Avropa dövlətlərinin talassemiya ilə mübarizə sahəsindəki təcrübəsi ətraflı öyrənilib. Həmin ölkələrin tanınmış mütəxəssislərinin ölkəmizə səfərləri zamanı təcrübə mübadilələrinin aparılması nəticəsində yerli mütəxəssislər hazırlanıb.









Burada həkimlərimizin, tibb işçilərimizin əsl fədakarlıqlarının, öz humanist missiyalarını necə əzmkarlıqla, insana olan böyük məhəbbət və qayğıkeşliklə yerinə yetirildiyinin şahidi olduq. Mərkəzə üz tutan xəstələr yaşından aslı olmayaraq, hər cür qayğı ilə əhatə olunurlar. Onlar burda müalicə aldıqlarına görə çox ümidli və nikbin görünürdülər. Müxtəlif sistemlərin, iynələrin vaxtlı-vaxtında vurulmasını, həblərin qrafik üzrə qəbulu həkimlərin daimi diqqəti və nəzarəti altında aparılır. Mərkəzin tibbi personalı öz gündəlik fəaliyyətləri, qayğıkeşlikləri ilə sadəcə tibb bacıları deyil, onların halına qəlbən yanan ana-bacılardır.

### "Bu xəstəlikdən əziyyət çəkən uşaqlar onun himayəsindədirlər"

Ölkəmizdə irsi qan xəstəliyindən əziyyət çəkən şəxslərin sağlamlığının qorunması və müalicəsi üçün Bakı şəhərində Talassemiya Mərkəzinin yaradılması məhz Mehriban Əliyevanın rəhbərliyi altında həyata keçirilmişdir. Nəticədə Azərbaycanda könüllü donorluq daha da inkişaf etmiş və belə uşaqların qanla təminatı problemi aradan qaldırılmışdır. Hər il 300-ə yaxın uşaq talassemiya xəstəliyi ilə doğulur. Sözügedən xəstəlikdən əziyyət çəkənlərin daim qana ehtiyacı olur. Talassemiyanın əsas səbəblərindən biri qohumlar arasında bağlanan nikahlardır. Bundan əziyyət çəkən insanların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələləri görülən işlərin əsas istiqamətləridir.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin icraçı direktoru Valeh Hüseynov qeyd edir ki, Heydər Əliyev Fondu indiyədək maddi vəziyyəti ağır olan minlərlə xəstəni əməliyyat və müalicə etdirərək onların yenidən həyata qayıtmasına dəstək olub: "Mehriban xanım Əliyevanın sosial sahədəki genişmiqyaslı proqram və layihələri həm də səhiyyə sistemini təkmilləşdirmək və onun dünya səhiyyə sisteminə inteqrasiyasını təmin etmək məqsədi daşıyır. Talassemiyalı xəstələrin müalicə olunduğu mərkəz də birinci xanımın xüsusi diqqət və qayğısı ilə əhatə olunub. Bu xəstəlikdən əziyyət çəkən uşaqlar onun himayəsindədirlər".

Valeh Hüseynov bildirdi ki, hələ 2005-ci ildə Mehriban Əliyevanın təşəbbüsü ilə keçirilən "dəyirmi masa" ölkəmizdə talassemiya problemlərinin həlli istiqamətində atılan mühüm addımların başlanğıcı oldu: "Heydər Əliyev Fondunun səhiyyə sahəsindəki mühüm layihələrindən biri də "Talassemiyasız həyat naminə"  proqramıdır. Məqsəd bu sahədə olan problemləri həll etmək olmuşdur. "Talassemiyasız həyat naminə" şüarını əsas götürərək respublikamızda bir nəfər belə talassemiya xəstəsinin doğulmamasına nail olmaq, beynəlxalq sahədə təbabətin əldə etdiyi ən yüksək səviyyədəki metodları öyrənmək və tətbiq etmək, bu fəlaiyyəti akademik şəraitdə davam etdirmək əsas hədəfimizdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə ölkəmizdə bu problemlə məşğul olan Talassemiya Mərkəzi fəaliyyət göstərir. Mərkəzin yaradılmasında əsas məqsəd ixtisaslaşdırılmış tibb ocağının və qan bankının təşkili, yüksəkixtisaslı kadrların hazırlanması, talassemiyadan əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qan komponentləri ilə, eləcə də tibbi xidmətlə təmin olunmasıdır. Sözügedən xəstəliklə doğulanların sayının artmaması üçün əhalinin maarifləndirilməsi, bu sahədə elmi tədqiqatların aparılması, həmçinin beynəlxalq təcrübənin öyrənilməsi mərkəzin fəaliyyətinin əsas istiqamətlərindəndir".

Artıq ölkəmizdə talassemiyanın radikal müalicə üsulu olan sümük iliyi transplantasiyası uğurla həyata keçirilir. İcraçı direktor onu da deyir ki, Talassemiya Mərkəzinin yaradılması nəticəsində bu xəstələrin müalicəsinin müasir səviyyədə təşkili mümkün olub: "Hazırda mərkəzdə talassemiyanın müasir müalicə üsulu olan sümük iliyi transplantasiyası uğurla həyata keçirilir. Görülən tədbirlər nəticəsində talassemiyalı xəstələrin normal həyat fəaliyyəti təmin olunub, bu xəstəlikdən əlillik və ölüm halları xeyli azalıb".

### "Tam ödənişsiz dərmanlarla təmin olunuruq"

Talassemiya Mərkəzinin baş həkimi Xuraman Cəfərova bildirir ki, hazırda pasiyentlər vacib olan bütün növ tibbi xidmətlərlə təmin olunurlar: "Talassemiyalı xəstələrin dövlət proqramı çərçivəsində müasir standartlarla müayinə və müalicəsi aparılır. Mehriban xanımın qayğısı sayəsində mərkəzin maddi-texniki bazası gücləndirilib, müalicə-diaqnostika fəaliyyəti ən müasir səviyyəyə  uyğunlaşdırılıb. Mərkəzimiz hər zaman birinci xanımın diqqət və qayğısını öz üzərində hiss edir. Xəstələrin hər birinə özəl olaraq qayğı ilə yanaşılır. Mehriban xanım hər zaman onların müayinə və müalicələrini yaxından izləyərək dəstəyini əsirgəməyir. Bu xeyirxah addımlara, nəcib əməllərə görə ona  minnətdarıq".

Mərkəzlə tanışlıq zamanı pasiyentlər Mehriban Əliyevaya, bu cür gözəl mərkəzin tikilməsində əməyi olan hər kəsə təşəkkürlərini bildirdilər və buranın yüksək səviyyədə fəaliyyətinin davam etdirilməsi üçün yaradılan şəraitdən razılıqlarını ifadə etdilər.

Övladı Talassemiya Mərkəzində müalicə alan Nargilə Səmədova da digər pasiyentlər kimi mərkəzin xidmətlərindən təmənnasız şəkildə istifadə edir. Mərkəzdəki bütün talassemiyalı xəstələrin Birinci vitse-prezidentin qayğısı ilə əhatə olunduğunu deyən valideyn bildirir ki, həm Mehriban Əliyeva, həm də Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva tez-tez buranı ziyarət edərək xəstələrlə maraqlanırlar, ortaya çıxan çətinliklərin həlli üçün lazımi işlər görürlər: "Qızım talassemiya mərkəzində müalicə alır. Burada yaradılan şəraitdən çox razıyam. Allah Mehriban xanımın canını sağ eləsin. Hər zaman bizə diqqət və qayğı göstərir. Nə yaxşı ki, bizim Mehriban xanım kimi ümid, güvənc yerimiz var. Birinci xanımın dəstəyi olmasaydı, mənim övladımın müalicəsini etdirməyə maddi gücüm yetməzdi. Mərkəz tərəfindən tam ödənişsiz olaraq dərmanlarla təmin olunuruq. Yalnız qanköçürmə proseduru və dərmanla bağlı preparatların verilməsi üçün deyil, uşaqda sağlamlıqla bağlı yarana biləcək digər problemlərlə bağlı da buradakı həkimlərə müraciət edirik. Bütün valideynlərin adından deyə bilərəm ki, mərkəzin qayğısından çox razıyıq. Həkimlərin peşəkarlığı sayəsində övladlarımızın vəziyyəti stabil qalır, geriləmə baş vermir".

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın xeyirxah əməlləri, təhsilimizin, milli dəyərlərimizin təbliği, xalqın rifahı naminə gördüyü işlər beynəlxalq aləmdə sonsuz rəğbətlə qarşılanır. Qərb dünyası onu Şərqin ağıllı, müdrik, xeyirxah insanı, peşəkar bir siyasətçisi kimi tanıyır, onun simasında Azərbaycan qadınının ictimai-siyasi həyatda oynadığı rolun əhəmiyyətini görür. Birinci xanım böyük və çoxşaxəli fəaliyyəti dövründə bir-birindən fərqli layihələrin müəllifi olaraq saysız insanların mənəvi dostuna çevrilib. UNESCO-nun və ICESCO-nun xoşməramlı səfiri kimi Mehriban Əliyevanın istər Azərbaycanda, istərsə də dünya miqyasında həyata keçirdiyi tədbirlər həmişə böyük rəğbətlə qarşılanmış və respublikamızın birinci xanımının səmərəli fəaliyyəti müxtəlif beynəlxalq mükafatlarla qiymətləndirilmiş, o, bir sıra ölkələrin ən yüksək dövlət təltiflərinə layiq görülmüşdür.

### Təmənnasız insan sevgisi

Heydər Əliyev Fondunun təşəbbüsü ilə paytaxt və regionlarda mütəmadi olaraq qanvermə aksiyaları, ürək çatışmazlığından, dodaq və damaq bitişməzliyi patologiyasından əziyyət çəkən azyaşlılar üzərində əməliyyatlar, aztəminatlı ailələrdən olan şəxslərin müayinələri və digər tədbirlər həyata keçirilir.

Dünyada və ölkəmizdə hökm sürən COVID-19 pandemiyası ilə mübarizədə də Mehriban xanım Əliyeva öz diqqət və qayğısını xalqından əsirgəməmişdir. Birinci xanım bir çox çağırışlar edərək xalqımızın bu çətin günlərdə bir-birinə yardım etmələri təşəbbüsünü irəli sürmüşdür. Onun bu çağırışı sayəsində ölkəmizdə irsi qan xəstəliyindən və digər hematoloji xəstəliklərdən əziyyət çəkən insanlara kömək etmək məqsədilə ilk növbədə Heydər Əliyev Fondu və digər təşkilatlar, qurumlar və sıravi vətəndaşlar bu təşəbbüsdən irəli gələn qanvermə aksiyalarına qoşulmuşlar.

Milli dəyərlərə sadiqlik Mehriban Əliyevaya xalqın rəğbət və sevgisini qazandırıb. Ölkəmizdəki qadın hərəkatı tarixində ilk şəxsiyyətdir ki, təhsildən  səhiyyəyə, idmandan mədəniyyətimizin təbliğinə, xeyriyyəçilikdən ətraf mühitin qorunmasına qədər geniş bir fəaliyyət məkanını əhatə edib. O fəaliyyəti ilə sübut edib ki, bu gün qəlbimiz daha çox insan sevgisi ilə dolu olmalıdır.

Əminliklə deyə bilərik ki, Mehriban xanım Əliyevanın xalqa xidməti, gördüyü işlər çoxşaxəli və misilsizdir.  O, bütün gücünü, vaxtını və enerjisini xeyirxah əməllərə, cəmiyyətimiz üçün vacib məsələlərə sərf edir.

*Elşən YƏHYAYEV,*
*"Azərbaycan"*

# "Hər zaman yanımızda olan birinci xanıma minnətdarıq"

## Əlillər Mehriban Əliyevanın onlara göstərdiyi qayğıdan razılıq edirlər

**Onlar bu vətənin qəhrəmanlıq tarixinin canlı səhifələridir. Onlar əsl döyüşçü, qazilərdir! Düşmən torpaqlarımıza basqın edən zaman əlinə silah götürüb sinəsini yağılara sipər edib, heç bir təmənna ummadan canlarını vətənə fəda edənlərdir. Onlar vətəni böyük məhəbbətlə sevməyi bacaranlardır... Qürurludurlar, həssasdırlar... Aralarında yaddaşını itirənlər də var, qolundan, qıçından, gözündən məhrum olanlar da var... Amma ruhən şikəst deyillər. Dağ boyda ürəkləri var.**

### Bu vətən, bu dövlət yaşasın deyə, özlərini hər zaman əsgər bilən fədakarlar

Sevgi qarşılıqlı olanda daha gözəl olur. Dövlətimiz də onları hər zaman əziz bilib diqqətdə saxlayır. Prezident İlham Əliyev, birinci xanım Mehriban Əliyeva hər zaman onların problemləri ilə maraqlanıb, qayğı göstərirlər.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Şağan Reabilitasiya Pansionatındayıq. Xatırladaq ki, yaşıllıqlar qoynunda yerləşən bu gözəl məkan Ümummilli Lider Heydər Əliyevin tapşırığı ilə 2003-cü ildə istifadəyə verilib. Ötən il isə burada Heydər Əliyev Fondunun Prezidenti, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın təşəbbüsü ilə əsaslı təmir işləri görülüb. 2021-ci ildə yenidən qurulan 250 çarpayılıq pansionat ildə 5 min nəfərədək xəstə qəbul edə bilir. Müəssisədə ürək, qan-damar, oynaq-hərəkət, əsəb sistemi, endokrin və digər xəstəliklərdən əziyyət çəkən əlillərə xidmət göstərilir. Əsas xidmətlər isə funksional diaqnostika, fizioterapiya müalicəsi, tibbi vannalar, bədən tərbiyəsi, sosial-psixoloji reabilitasiyadır. 25 fevral 2021-ci ildə pansionatın əsaslı təmirdən sonra açılışında ölkə Prezidenti İlham Əliyev iştirak edib.

Pansionat səliqə-sahmanı, təmizliyi ilə göz oxşayırdı.

Direktor Təranə Quliyeva ilə söhbətimizdə o dedi:

- Pansionatımız 250 çarpayılıqdır. 110 nəfər personalla, o cümlədən 10 nəfər həkim, psixoloq, fizioterapevt, müalicə həkimi və loqopet gecə-gündüz əlillərimizə xidmət göstərir. Vətəndaşlarımız yaşadıqları ərazilər üzrə DOST xidmətlərinə, yaxud da Tibbi Sosial Ekspertiza komissiyalarına müraciət etməklə asanlıqla burada yerləşib reabilitasiya oluna bilərlər. Əvvəllər qayda belə idi ki, hər bir əlil 6 aydan bir reabilitasiya üçün müraciət edə bilərdi. İndi qaydalarda dəyişiklik edilərək müddət 3 aya endirilib. Hazırda pansionatda 167 əlil var. Onların 30 nəfərə yaxını birinci qrupdur. Məlumat üçün bildirək ki, birinci qrup əlillərin baxıcıları, onları müşayiət edən şəxslər də burada yerləşdirilir. 2021-ci ildə pansionata 2111 əlil qəbul etmiş və onlara xidmət göstərmişik. Bu il isə reabilitasiya olunmaq üçün müraciət edənlərin sayı xeyli artıb. Cari ilin 6 ayında artıq 1422 nəfər əlilə xidmət göstərilib. Onlardan 127 nəfəri Birinci Qarabağ savaşında, 111 nəfəri isə İkinci Qarabağ savaşında sağlamlığını itirən şəxslərdir.

Burada əlillər üçün hər cür şərait yaradılıb desək, mübaliğə etmiş olmarıq. Mütəxəssislər müasir idman qurğuları, trenajorlarla təmin edilmiş geniş və yaraşıqlı idman zalında əlillərin bədən tərbiyəsi ilə məşğul olmaları, reabilitasiyaları üçün durmadan çalışırlar. Restorantipli yeməkxanada xəstələrə




























gündə üç dəfə yüksəkkeyfiyyətli yeməklər, mer-meyvə və tərəvəz məhsulları verilir. Hər gün əlillər tibbi personal tərəfindən müayinə olunaraq müalicə almaq imkanına malikdirlər. Geniş və səliqəli otaqlarda onların istirahət etmələri üçün çox gözəl şərait yaradılıb. Adətən, buraya üz tutan əlillərin reabilitasiya müddəti 14 gündür. Pansionatın direktoru Təranə xanım deyir ki, bəzən xəstələrin səhhətlərindəki problemlə əlaqədar onların bərpa müddəti uzadılır. Əlillərimizin asudə vaxtlarının təşkili, günlərinin daha yaddaqalan keçməsi üçün ekskursiyalar təşkil edir, onları konsertlərə, teatrlara, şəhərimizin gəzməli-görməli tarixi məkanlarına aparırıq. Bəzən də incəsənət xadimlərimiz, müğənnilər, sənət adamları buraya gəlib rəngarəng konsert proqramları ilə çıxış edirlər. Bir sözlə, çalışırıq ki, dövlətin qayğısını, onlara olan tükənməz sevgimizi əlillərlə bölüşə bilək.

### Vətənin əsgərləri

Bizə verilən imkandan istifadə edib pansionatda reabilitasiya olunan əlillərlə söhbət edirik. Rəşid Namazov 2016-cı il Aprel döyüşlərinin iştirakçısıdır. Tərtər rayonunun Qafanlı, Seydimli, Əskipara kəndlərində döyüşüb. Çanaq sümüklərindən travma alıb. İlk dəfədir ki, pansionatdadır. O deyir:

- Sözün açığı, belə diqqət görəcəyimə inanmazdım. Hər cür qayğı ilə əhatə olunmuşuq. Çox sağ olsun Prezidentimiz və Mehriban xanım. Burada əlillərin reabilitasiyası üçün hər cür şərait yaradılıb. Özümə qarşı əsl valideyn qayğısı, doğmalıq görürəm. Bizə belə şərait yaratdığı üçün dövlətimizə çox minnətdaram. Vətəndaş dövlətinin qayğısını görəndə, kürəyində dövlətinin əlini hiss edəndə güclü olur. Özümü güclü, arxalı hiss edirəm. Bu vətən, bu dövlət üçün döyüşdüyüm görə çox qürurluyam. Bizə bu şəraiti yaradan, hər zaman qayğısını, diqqətini hiss etdiyimiz Prezidentimizə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya sonsuz minnətdarlığımı bildirirəm.

### "Əsgərin son silahı ölümüdür"

Əfsun Alik oğlu Vəliyev 44 günlük Vətən müharibəsi qazisidir. Bərdədən gəlib, müddətdən artıq xidmət edən hərbi qulluqçu olub. Oktyabrın 7-də Suqovuşanda 951 adlanan yüksəklik uğrunda gedən döyüşlərdə düşmən snayperi Əfsunun hər iki ayağından vurub.

Söhbət zamanı dedi ki, görünür, düşmənin məqsədi ayaqlarımdan vurmaqla məni əsir götürmək olub. Amma bizim son silahımız ölüm idi. Düşmənə əsir düşməkdənsə, canıma qıyardım. Şükür ki, qələbə bizim oldu. Uğrunda döyüşdüyümüz ərazilərimiz də alındı, bütün torpaqlarımız da işğaldan azad edildi. Xoşbəxtəm ki, Vətən müharibəsinin iştirakçısıyam. Qürurluyam ki, Prezident İlham Əliyev kimi bir sərkərdənin, Müzzəffər Ali Baş Komandanın əsgəriyəm. Lazım olarsa, bu gün də döyüşməyə hazıram. Dövlətimin bizə olan qayğısı, diqqəti mənə ruh verir. Bizi qələbəyə aparan da dövlətə olan inam, vətənə sevgi idi. Yaşasın Azərbaycan! Qarabağ Azərbaycandır!

Fəxrəddin Səməd oğlu Əsədov Beyləqan rayonundandır. Fəxrəddingil ailədə 7 qardaş idi, 7-si də hərbçi olub. Qardaşları Ələddin və Saleh Əsədovlar torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə ucalıblar. Fəxrəddinin isə 44 günlük Vətən müharibəsində Murovdağ uğrunda gedən döyüşlərdə yanına mərmi düşüb və onu mərminin dalğası vurub:

- Müddətdən artıq hərbi qulluqçu kimi xidmət edirdim. Xatırladığım odur ki, müharibənin ilk günləri Murovdağ silsiləsində mövqe tutmuşduq. Yanıma mərmi düşdü. Bir də onu gördüm ki, göydə uçuram. 18 gün komada olmuşam. Yaddaşımı itirmişəm. Şəhid olan qardaşlarım Ələddinlə Saleh də yaxşı yadımdadır. Ələddin kəşfiyyat bölüyünün komandiri, mayor idi. Saleh isə topçuların komandiri idi... Getdilər... mən qaldım... Yaddaşım itsə də, bilirəm ki, Qarabağı yenidən qazandıq. Bu, mənim üçün hər şeydən, hətta canımdan da qiymətlidir...

Sadiq Raqub oğlu Məmmədov reabilitasiya üçün Bərdədən gəlib. 2016-cı ilin Aprel döyüşlərinin iştirakçısıdır. Sağ qolunun bazu kələfindən yaralanıb:

- Müddətdən artıq hərbi qulluqçu idim.Vətənimi canımdan çox sevirəm. Elə bu sevgi də məni əsgər, döyüşçü etdi. 2016-cı ildə qolumdan yaralandım. Əlil olsam da, 2020-ci ildə könüllü döyüşmək üçün müraciət etdim, məni döyüşə göndərmədilər. Dedilər ki, sənin döyüşdüyün bəsdir. Amma mən əsgərəm. Hər zaman bu Vətən üçün canımı fəda etməyə hazıram. Dövlətimlə fəxr edirəm. Bizə göstərilən qayğıya, diqqətə görə dövlətimizin başçısı cənab İlham Əliyevə, Birinci vitse-prezident Mehriban xanım Əliyevaya çox minnətdaram.

Elnur Cabir oğlu Əhmədov Birinci Qarabağ müharibəsi qazisidir. Ağdamın Qaradağlı kəndində minaya düşüb. Yaddaşını itirib. Subaydır:

- Mən vətənimi canımdan çox sevirəm. Vətənim üçün döyüşüb sağlamlığımı itirdiyimə görə qəti təəssüf etmirəm. Evlənməmişəm, subayam. Məncə, əsas qolun, qıçın şikəstliyi deyil, gərək ürəyində sevgi olsun. Mən vətənimi seçdim, vətənimi sevdim. Bunu deməklə əsla peşmançılıq keçirdiyimi düşünməyin. Qadınlarımız fədakarlıq etməyi bacarsalar, daha gözəl olar. İndi 44 günlük Vətən müharibəsində mənim kimi qazi olan nə qədər qardaşımız var. Onlar da mən yaşayan taleyi yaşamasınlar deyə, deyirəm: xanımlarımız fədakarlığa hazır olsunlar. Vətənə can verən igidlərimizə könül versinlər. Mənimsə qismətimdə olan bu imiş. Bunu da yaşayıram. Nə yaxşı ki, dövlətimiz bizdən qayğısını, sevgisini əsirgəmir. Bizi yaşadır. Buna görə də dövlət başçısı İlham Əliyevə və birinci xanım Mehriban Əliyevaya nə qədər alqış etsək, azdır.

Bizimlə söhbətdə Rüstəm Rüstəmov, Adil Qürbətov, Qurban Hüseynov, Mətanət Həmidova və Müseyib Hüseynov Əlillərin Reabilitasiya Pansionatında onlara göstərilən qayğıdan razı olduqlarını məmnunluqla ifadə etdilər.

İftixarla demək olar kı, görülən işlər, aparılan islahatlar öz müsbət nəticəsini verir. Bu gün ölkəmizdə vətəndaşla dövlətin sarsılmaz birliyi, xalqın dövlətinə inamı formalaşıb. Sözün həqiqi mənasında, əsl xalq-dövlət tandemi yaranıb.

*Elşən QƏNİYEV,*
*İlham BABAYEV (foto)*
*"Azərbaycan"*

# Milli-mənəvi dəyərlərə sadiqliyin təcəssümü

## Heydər Əliyev Fondu Qarabağ və Şərqi Zəngəzurda yenidənqurma prosesinə mühüm töhfələr verir



Azərbaycan dünyəvi dövlət olmaqla yanaşı, tolerantlıq nümunəsidir. Ölkəmizdə müxtəlif dövrlərə, dinlərə aid abidələr var. Həmin abidələrin qorunması, bərpası istiqamətində daim işlər görülür. Qarabağ və Şərqi Zəngəzurun işğaldan azad edilməsindən sonra həmin ərazilərdə də yerləşən maddi və mədəni abidələrimizin bərpası istiqamətində tədbirlər görülməyə başlanılıb.

30 illik işğal dövründə ermənilər tərəfindən bütün abidələrimiz dağıdılmış, yerlə-yeksan edilmişdir. Məscidlərimizdə donuz saxlayaraq islamofob olduqlarını nümayiş etdirən ermənilər daşı daş üstündə qoymayaraq vəhşiliklərini bir daha göstərmişdilər. Azərbaycan torpaqlarını işğaldan azad etdikdən sonra Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın tapşırığı ilə əzəli torpaqlarımızda Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə böyük işlərə başlanılıb.

### Məscidlərin, tarixi abidələrin bərpası uğurla icra olunur

Vətən müharibəsindən sonra, 2020-ci il dekabrın 8-də bu barədə paylaşım edərək məlumat verən Mehriban xanım Əliyeva qeyd etmişdi: "Əziz həmvətənlər! Heydər Əliyev Fondu fəaliyyət göstərdiyi ilk gündən Azərbaycanda müxtəlif sahələri əhatə edən layihə və proqramlar həyata keçirir. Fondun tarixi, mədəni və dini abidələrin qorunub saxlanması və bərpası istiqamətindəki fəaliyyəti hər kəsə məlumdur. Bu gün isə qürur hissi ilə sizə Heydər Əliyev Fondunun qədim Qarabağ torpağında Azərbaycan xalqının milli sərvəti olan dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihəyə başladığını bildirmək istəyirəm. Layihə çərçivəsində yerli və xarici mütəxəssislərin iştirakı ilə bölgədəki ziyarətgahlarımızın bərpası, konservasiyası və yenidən qurulması həyata keçiriləcək. İşğal illəri ərzində Şuşa şəhərində və Ağdam rayonunda dağıntılara məruz qalmış dini ibadət yerlərinin bərpası üzrə müvafiq işlərə artıq başlanılıb. Bir zamanlar ermənilərin vəhşicəsinə dağıtdığı, tövləyə çevirdiyi müqəddəs dini məkanlarımız yenidən dirçələcək və bütün Qarabağ ərazisindəki məscidlərimizdə azan səsləri eşidiləcək, dualar oxunacaq!"

Azərbaycan islam ölkəsidir və respublikanın bütün rayonlarında məscidlərimiz, ibadət yerlərimiz var. Birinci vitse-prezident Mehriban Əliyeva tərəfindən isə daim dini, mədəni abidələrə, məscidlərə həssaslıqla yanaşılır, ehtiyac yarandığı təqdirdə təmir olunur və ya yenidən qurulur. Heydər Əliyev Fondu tərəfindən layihə əsasında Qarabağda Yuxarı Gövhər ağa, Aşağı Gövhər ağa, Ağdam Cümə məscidlərinin bərpasına başlanıldı. Qarabağa səfərləri zamanı Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva məscidləri ziyarət edir, dualar səsləndirir, islam dininin müqəddəs kitabı "Qurani-Kərim"i məscidlərə hədiyyə edirlər.

Qarabağda yenidənqurma və bərpa işləri sürətlə davam edir, geniş infrastruktur qurulur. Dini abidələrin, məscidlərin bərpası uğurla həyata keçirilir. Bunun üçün xaricdən mütəxəssislər də dəvət olunub. Layihə çərçivəsində Avstriyanın "Atelier Erich Pummer GesmbH" şirkətinin rəhbəri, memar Erix Pummer Ağdam məscidində olub və məscidin mövcud vəziyyətinə dair qiymətləndirmə aparıb.

### Şuşada 3 məscid bərpa edilir

Heydər Əliyev Fondu tərəfindən təkcə Şuşada 3 məsciddə - Aşağı Gövhər ağa, Yuxarı Gövhər ağa və Saatlı məscidlərində bərpa-təmir işləri aparılır. Hər üç məscidin memarı Kərbəlayi Səfixan Qarabağidir. Bu məscidlər ölkə əhəmiyyətli tarixi-mədəniyyət abidələri siyahısındadır.













İşğal dövründə Yuxarı Gövhər ağa məscidinin interyeri məhv edilib, minarələrinin dekoru zədələnib, örtükləri dağıdılmışdı. Bu məscidin birinci mərhələdə restavrasiyası başa çatıb, ikinci mərhələ üzrə bərpa işləri aparılır. Birinci mərhələdə məscidin daşları ilkin layihəyə uyğun olaraq dəyişdirilir. Məscid ərazisində dağıdılan mədrəsə də bərpa ediləcək. İşğal dövründə dağıntıya məruz qalan Aşağı Gövhər ağa məscidində isə xarici ekspertlərin iştirakı ilə qiymətləndirmə işləri aparılır. Saatlı məscidi Şuşa şəhəri Ermənistan tərəfindən işğal olunduqdan sonra xarabalığa çevrilib, dağıntılara məruz qalıb. Məscid 1883-cü ildə memar Kərbəlayi Səfixan Qarabağinin layihəsi əsasında Pənahəli xanın 1759-cu ildə Şuşada tikdirdiyi məscid və mədrəsənin yerində tikilib. Saatlı məscidini Şuşanın digər məhəllə məscidlərindən fərqləndirən əsas xüsusiyyət isə onun minarəyə malik olmasıdır. Ekspertlər hazırda həmin məsciddəki vəziyyəti araşdırırlar.

### Həssaslıqla həyata keçirilən işlər

Ağdam Cümə məscidinin də təmir-bərpa işləri davam edir. Bərpa işləri Heydər Əliyev Fondu tərəfindən aparılır. Məscidin əvvəlki görkəminə xələl gəlməməsi üçün işlər həssaslıqla həyata keçirilir. Cümə məscidi Ağdamın işğal dövründə nisbətən az dağıntıya məruz qalmış yeganə tikilidir. Məscidin restavrasiyası ilə bağlı layihənin icrası üçün Avstriyanın "Brugger&KO Restauratoren GmbH" şirkəti ilə müqavilə imzalanıb. Məscidin örtük və sement birləşmələri tamamilə çıxarılıb. Kərpiclərin zədələnməməsi üçün işlər əl ilə görülür. Bərpa prosesi zamanı fasadlar təmizlənir, zədələnmiş və ya qırılmış kərpiclər bərpa edilir, karxana daşı hörgüsü əhəng əsaslı birləşmiş məhlul ilə yenidən işarələnir.

Ötən ilin aprelində Prezident İlham Əliyevin, birinci xanım Mehriban Əliyevanın və qızları Leyla Əliyevanın iştirakı ilə Zəngilan məscidinin də bərpasının təməl daşı qoyulub. Məscid "Paşa Holding" MMC-nin dəstəyi ilə Heydər Əliyev Fondu tərəfindən inşa olunur. Bu ilin may ayında isə dövlət başçısı və birinci xanım Mehriban Əliyeva Zəngilana səfərləri zamanı məsciddəki tikinti işlərinin gedişatı ilə tanış olublar.

Ermənistanın torpaqlarımızı işğal altında saxladığı otuz il ərzində digər ərazilərimizdə olduğu kimi, Zəngilan rayonunda da tarixi, dini, mədəniyyət abidələrimiz erməni vandalizminə məruz qalıb, dağıdılıb, təhqir edilib. İşğal dövründə Zəngilan şəhərindəki məsciddən də tövlə kimi istifadə olunub. Ümumilikdə işğal dövründə dağıdılan, təhqir olunan dini abidələrimizin, məscidlərimizin həyata qaytarılması istiqamətində fond tərəfindən böyük işlər görülür.

### Dini abidələrin bərpası

Mehriban Əliyeva hər zaman mədəni, dini, tarixi abidələrə diqqətlə yanaşmışdır. Bölgələrə səfərləri zamanı dövlət başçısı və birinci xanım təmirə ehtiyacı olan abidələrin bərpası ilə bağlı göstərişlər verirlər. Əksər abidələr Heydər Əliyev Fondunun dəstəyi ilə bərpa edilir.

Fond tərəfindən Qarabağda həyata keçirilən dini abidələrimizin, məscidlərimizin bərpası üzrə layihə isə xüsusi önəm daşıyır. Çünki keçmişimizin izlərinin, tariximizin bərpası vacibdir. Bu istiqamətdə görülən restavrasiya işləri təqdirəlayiqdir.

Zamanla Qarabağ həm də böyük, gözoxşayan turizm mərkəzlərindən birinə çevriləcək. Həm keçmişi, tarixi özündə saxlayacaq, həm də müasirliklə vəhdət təşkil edəcək.

*Əsmər QARDAŞXANOVA, "Azərbaycan"*

# Kimsəsizlərin isti ocağı - "Məzun evi"

## Heydər Əliyev Fondunun bu sosial layihəsi yüzlərlə gəncin həyatına işıq salıb

**"Adım Emindir. 7 yaşından uşaq evində böyümüşəm. Ailə həyatı qurandan sonra da uzun müddət evsiz qalmışıq. İndi isə 19 illik evlilik həyatımın 5-ci ilinə ailəmlə birlikdə ev sahibi olaraq qədəm qoyuram. Həyatda bir neçə məqsədim var idi, hər zaman çox işləyib, çox çalışıb onları həyata keçirməyə çalışmışam. Mənə ev veriləndən sonra isə geriyə bir uşaq sahiblənmək qalır. Bir neçə ilə övladlarımı boya-başa çatdırandan sonra xanımımla taleyi mənim kimi gətirən bir balaya isti qucağımızı açacağıq".**



"Adım Günaydır. İnternatda böyüyən biri kimi evimin olması hər zaman mənə xülya kimi görünüb. Ailə həyatı qurandan sonra illərboyu həyat yoldaşım və uşaqlarımla birgə kirayə evlərdə yaşamışıq. Məzunlara ev verildiyini eşidəndə mən də sənədlərimi toplayıb müraciət etmişdim. Ancaq o şanslı insanlardan birinin də mən olacağımı gözləmirdim. Sonra bir gün zəng gəldi ki, gəlin evinizin açarını götürün".

"Adım Fazildir. Beşikdən uşaq evlərində böyüyüb boya-başa çatmışam. Bələyimin bağlandığı vaxtdan 39 yaşıma kimi dövlət himayəsində böyümüşəm. Yaşam və təhsildən əlavə, bu gün ev və iş sahibiyəm. İrəliləyən ömür yolumda əsas amalım yaşadığım və xidmət etdiyim hər yerdə əsl insanlıq nümunəsi olmaqdır".

Bu hekayələr "Məzun evi"nin sakinlərinin həyatlarından bir parçadır. Bəs onların həyatı necə dəyişdi?

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olan Sosial Xidmətlər Agentliyinin nəzdindəki "Məzun evi"nin sakinləri ilə görüşdə bu və ya digər suallara cavab tapdıq.

### "Məzun evi" layihəsinin bəxş etdiyi yeni yaşam

"Məzun evi" Abşeron rayonunun Masazır kəndində yerləşir. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü olaraq Heydər Əliyev Fondunun sosial layihələrindən biridir. Bu layihəyə əsasən, Abşeron rayonunda çoxmənzilli yaşayış binaları inşa etdirilərək dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş məzunlarının istifadəsinə verilir. Həmin yaşayış binaları Sosial Xidmətlər Agentliyinin "Məzun evi" sosial müəssisəsi kimi fəaliyyət göstərir. Layihəyə məxsus ilk bina 2015-ci ildən məzunlara təqdim edilib.

Müəssisəyə valideyn himayəsindən məhrum olmuş və yaşayış yeri olmayan dövlət uşaq müəssisələrinin məzunları onların öz istəkləri nəzərə alınmaqla qəbul edilirlər. Burada sakinlər təmirli mənzil, məişət avadanlıqları və lazımi inventarlarla təchiz olunurlar. "Məzun evi"ndə mənzillə təmin olunan hər bir məzunun ilk 6 aylıq kommunal xərcləri dövlət büdcəsi hesabına ödənilir. Həmçinin binada məskunlaşan dövlət və ya özəl ali və orta ixtisas təhsili müəssisələrində əyani təhsil alan 23 yaşınadək şəxslərin kommunal xərcləri də onların təhsil aldığı müddətdə dövlət büdcəsi hesabına ödənilir. Məzunlar onların istifadəsinə verilmiş yaşayış sahəsini dəyişmək, özgəninkiləşdirmək, kirayəyə və ya digər şəxsin istifadəsinə vermək hüquqlarına malik deyillər.

"Məzun evi"nin nəzdindəki ictimai iaşə obyektlərində binada yaşayan şəxslərin işləməsi nəzərdə tutulub. Müəssisənin kafe, salon və bərbərxana, stolüstü oyunlar, internet zalları, camaşırxana və s. kimi ictimai obyektlərində məzunlar işlə təmin edilib. Bildirilir ki, mənzil verilən bu kateqoriyadan olan digər şəxslərin də müraciətləri olduğu təqdirdə onlar agentliyin fəaliyyət istiqamətlərinə uyğun olaraq sosial xidmətlərlə təmin olunurlar.

Onu da vurğulayaq ki, müəssisəyə qəbul Təhsil və Elm Nazirliyinin hər tədris ilinin sonunda dövlət uşaq müəssisələrinin valideyn himayəsindən məhrum olmuş, yaşayış yeri olmayan məzunları barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim etdiyi siyahı əsasında aparılır. Yaşayış sahəsinin verilməsi haqqında qərar qəbul edildikdə dövlət ilə məzun arasında yaşayış sahəsindən əvəzsiz istifadə haqqında müddət göstərilmədən müqavilə bağlanılır.

Sosial xidmət müəssisələrinin və təhsil müəssisələrinin valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş məzunlarının sosial-məişət şəraitinin yaxşılaşdırılması tədbirləri 2021-ci ildə də davam edib. Beləliklə, ötən il yeni salınan yaşayış komplekslərində dövlət uşaq müəssisələrinin məzunlarına 600-dən çox mənzil verilib və proses hazırda da davam etdirilir.

### Əsl səmimiyyətin ünvanı

"Məzuna evi"nə gedən yoldayıq. Xüsusilə yay aylarında çəhrayı rəngə boyanan Abşeronun məşhur Duz gölünün sahili ilə uzanan yolla gəlib mənzilbaşına çatırıq. Həyətə girər-girməz ab-havadan əvvəlki məhəllələrdə duyulan istiqanlılıq sezilirdi. Hiss olunurdu ki, "Məzun evi"nin sakinləri keçmişdəki qonşuluq münasibətlərini qoruyub saxlaya biliblər. Bizi həyətdə oynayan, bir-biriləri ilə oyuncaqlarını bölüşən uşaqlar, analarının qucaqlarında ətrafa maraqlı nəzərlərlə








boylanan körpələr, skamyalarda əyləşib söhbətə qərq olan sakinlər qarşıladılar.

13 mərtəbəli 3 nəhəng yaşayış binası ilə çevrələnən bu həyətdə sanki kiçik bir şəhərcik yaradılmışdı. Dekorativ ağaclarla bəzədilən olduqca sahmanlı bağça isə xüsusilə seçilirdi. Ərazidən çıxmadan bir çox ehtiyacın qarşılanması üçün nəzərdə tutulan demək olar ki, hər şey var idi.

Elə 365 məzunun yerləşdirildiyi bu yaşayış binalarındakı mənzil sahiblərinin bəzilərinin evində qonaq olmağa hazırlaşırdıq ki, yanımıza sakinlərdən biri yaxınlaşaraq bizi nəzakətlə öz evlərinə dəvət etdi.

### Çöhrələrə qonan gülüş

İlk qonağı olduğumuz ev Emin və Ülviyyə cütlüyünün isti ocaqları oldu. Qapılarını üzümüzə mehribanlıqla açan ailə ilə xoşbəxtliklərinin yeni bir məramını yaşadıqları evlərində həmsöhbət olduq. Emin Cavadov 7 yaşından 4 nömrəli Xüsusi İnternat Məktəbində böyüyüb: "Uşaqlıq illərimi internatda başa vurduqdan sonra ən böyük arzum ali təhsil almaq idi. Günlərlə, aylarla imtahana hazırlaşdım və şükürlər olsun ki, səylərim boşa çıxmadı. Turizm və Menecment Universitetinə qəbul olub oranı əla qiymətlərlə başa vurdum. Bunu mən hər zaman həyatımın ilk ən böyük uğuru adlandırıram".

Kiçik yaşlarından işləməyə başlayan Emin deyir ki, ən xoşbəxt günlərindən biri həyat yoldaşı ilə tanış olduğu gündür: "Mən çox erkən yaşda sevginin ocağına düşmüşəm. Hələ internat məktəbində oxuyanda bir dəfə yay tətilində sinif yoldaşımın atası məni də evlərinə aparmışdı.



Gələcək həyat yoldaşımla orada tanış olduq. Ülviyyə qonşuluqda qalırdı. Sən demə, onun da məndə könlü var imiş. Bunu biləndən sonra mənimlə evlənməyini təklif elədim".

Bu anda söhbətə qoşulan Ülviyyə xanım söyləyir ki, ailənin yeganə təməli hər zaman sevgi olub: "Mən Eminlə ailə həyatı quranda ətrafımda hamı bu addımıma qarşı çıxırdı. Stereotiplərindən heç zaman qurtula bilməyən insanlar bu qərarımı yanlış adlandırır və məni qınayırdılar. Üstəlik, Emin universitetə təzə qəbul olmuşdu, qarşıda əsgərliyi var idi, bizi çətin bir həyat yolu gözləyirdi. Lakin bütün bunlara baxmayaraq, münasibətimizin ən böyük dəstəkçiləri mənim valideynlərim oldular. Onlar Eminə əsl ata və ana kimi yanaşdılar, bizə dayaq durub yanımızda oldular".

Erkən yaşlarında bütün çətinliklərə sinə gərərək əl-ələ verib çalışan, sevgilərini birləşdirən cütlüyün səadətindən iki övlad dünyaya gəlib. Evin böyük oğlu Raulun 17, Dənizin isə 14 yaşı var. Bu il məktəbi uğurla bitirən Raul Türkiyənin Gümüşhane Universitetinə qəbul olub. Elə bu münasibətlə də Cavadovların sevinci yerə-göyə sığmır. Dənizin isə marağı dizayner və modelyerliyədir. Deyir ki, indidən dizayn edəcəyi paltarların düşüncəsi onu olduqca həyəcanlandırır.

Uzun illər evsiz olan Emin və Ülviyyə kiçik bir ocaq arzusu ilə yaşayıblar. Emin söyləyir ki, evləri olandan çöhrələrindən gülüş əskik olmur: "Çox güman ki, evsizlik qədər həyatda çarəsiz bir vəziyyət yoxdur. Başı qaxınclı yaşamaq, asılılığın qurbanı olmaq çətindir. Bir gün eşidəndə ki, valideyn himayəsindən məhrum olmuş şəxslərə belə bir layihə əsasında ev verilir, sənədləri yığıb mən də müraciət etdim. Həmin proses o qədər həyəcanlı və stresli idi ki, heç bir sözlə ifadə etmək mümkün deyil. 2017-ci ildə isə bu evin bizə verilməsi ilə sanki yenidən həyata atıldıq. Bu dəfə daha azad və daha firavan. Bunu bizə yaşadan, əlbəttə ki, kimsəsizlərin hamisi, böyük dayağı kimi tanınan Birinci vitse-prezident Mehriban xanım Əliyevaya nə qədər minnətdarlıq etsək azdır. Kimsəsizlərə belə sevinc bəxş etməyin qiyməti yoxdur".

Yaşamaq eşqi ilə dolu, bitib-tükənməz arzulu bu cütlüyün növbəti planlarından biri də kiçik bir kafenin sahibi olmaqdır. Ülviyyə xanım hazırda Bakı Peşə Liseyində milli mətbəx yeməkləri üzrə aşpazlıq təhsili alır. Dadlı yeməkləri ilə hər kəsi məftun edən Ülviyyə Cavadova liseyi bitirdikdən sonra peşəsini davam etdirmək istəyindədir: "Çox uzun müddətdən sonra təhsil almaq qərarına gəldim. Əslində, oxumaq uşaqlıqdan arzum olsa da, vaxt tapıb bunu reallaşdıra bilmirdim. Nəhayət, çətinliklərimiz nisbətən yüngülləşəndən sonra mən də təhsilə yönəldim. Diləyirəm ki, Eminlə işlədəcəyimiz kiçik bir kafemizdə hər kəsi məmnunluqla yola salaq".

### "Xeyirdə-şərdə bir yerdəyik"

Maraqlı həyat hekayəsini dinlədiyimiz bu ailədən ayrılırıq. Növbəti üz tutduğumuz mənzilin qapılarını isə əlindəki rəngli qələmlərini bərk-bərk tutan üzü boyalı kiçik bir qız açır. Bu, Kazımovlar ailəsinin 7 yaşlı Həcəri idi.

Günay Kazımova ailənin zəhmətkeş anasıdır. O, 8 yaşından Lənkəranda internat məktəbində böyüyüb. Uşaqlıq illərini dumanlı xatırlayan müsahibim deyir ki, orta təhsilini orada başa vurduqdan sonra işləmək üçün Bakıya üz tutub: "İnternat məktəbindən məzun olanlar həmin andan bəri böyük məsuliyyətlə həyata atılırlar. Yaşamaq üçün işləmək lazım gəlir, bir növ var olmaq, həyatda qalmaq üçün hər kəs çox erkən yaşlarından mübarizə aparır. Mən də paytaxta gələndən sonra fındıq emalı sexində işləməyə başladım. Həmin vaxtdan ayaqda durmağı bacaran biriyəm".

Günay xanım həyat yoldaşı ilə də elə bu müəssisədə işlədiyi zamanlar tanış olub. "Sexdə işləyən zaman onunla tanış olduq, evləndik, bu izdivacdan iki gözəl balamız dünyaya gəldi. İndi isə Həcər və Əsmanur mənim həyatda güclü qalmağımın səbəbidir".

2018-ci ildə "Məzun evi"ndə Kazımovlar ailəsinə ev verilib. Günay xanım qeyd edir ki, bura köçəndən dərziliklə məşğul olur: "Elə uşaqlıqdan dərziliyi çox sevirdim. Sakinlər üçün müəssisədə müxtəlif kurslar keçirilməyə başlananda mən də dərzilik kursuna qatıldım. Kursu bitirdikdən sonra sertifikatla təltif olundum. Artıq övladlarımı öz zövqümcə hazırladığım geyimlərlə bəzəyirəm. Bundan əlavə, qonşular da dərziyə ehtiyacları olduğu zaman mənə müraciət edirlər".

Qonşulardan danışmışkən, Günay xanım onu da söyləyir ki, burada hər kəs bir-birinin dilini çox gözəl anlayır. "Biz eyni yerlərdə böyüdüyümüzə, oxşar həyatları yaşadığımıza görə qonşuluq münasibətlərində də problemlərimiz olmur. Elə ki, birimizin nəyəsə ehtiyacı oldu, hamı ona əlindən gələn köməyi etməyə can atır. Bayramları, şad günləri isə xüsusi təntənə ilə keçiririk. Pis günlərimizi bölüşdüyümüz kimi, şadlıqlarımızı da birlikdə qeyd edirik".

### Məhəllənin sevilən bağbanı

Binadan çıxıb həyətə doğru yol aldıq. Artıq həyətdəki uşaqlar və sakinlər dağılışmışdı. Sakitlikdən ağacların arasından axan suyun şırıltısı eşidilirdi. O tərəfə boylananda ətrafı sulayan bağbanı gördük. O, "Məzun evi"nin bağbanı Fazil İsmayılov idi.

Fazil sağlamlıq imkanları məhdud uşaqlar üçün 2 nömrəli Xüsusi İnternat Məktəbində böyüyüb. Körpəlikdən həmin müəssisəyə yerləşdirilən 39 yaşlı bağban deyir ki, ona ev verilən müddətə qədər demək olar yerləşdirilmədiyi müəssisə qalmayıb: "Müəyyən yaşa qədər böyüdüyüm 2 saylı Xüsusi İnternat Məktəbindən çıxdıqdan sonra Şamaxıda 1 saylı İxtisaslaşdırılmış İnternat Evinə göndərildim. Sonrakı vaxtlarda bir çox əlillər, qocalar evinə də yerləşdirilmişəm. Evsiz-ocaqsız insan yuvasız köçəri quş kimidir".

2-ci qrup əlil olan Fazil qeyd edir ki, uzun müddət valideynlərini axtarsa da, onları tapa bilməyib. 2015-ci ildə isə "Məzun evi"nə köçəndən sonra bəzi sakinlər kimi Fazil İsmayılova da iş verilib: "Burada mənə ev veriləndən sonra həyətin bağbanı kimi işləməyə başladım. Həyət mənə o qədər doğmadır ki, sanki öz bağçamdır. Bağban olduğum müddətdə ağac da əkmişəm. Ümumiyyətlə, düşünürəm ki, əlimdən çıxan hər iş məndən bir yadigar kimi buranın sakinlərinə qalacaq. Sabah mən bu işdə işləməsəm belə, ağacın kölgəsində əyləşənlər mənə rəhmət oxuyacaqlar".

Fazil İsmayılov daim sakinləri düşünən, onların ehtiyacları, istəklərini həyata keçirməyə çalışan, yeni təkliflər verən şəxs kimi də məhəllədə böyük hörmətlə qarşılanır: "Mən həyatda tək olsam da, evlə təmin ediləndən sonra burada böyük bir ailəyə sahib oldum. Bura Heydər Əliyev Fondunun sosial layihələrindən biridir. Buna görə də hər kəs fondun prezidenti Mehriban xanım Əliyevaya hər zaman minnətdarlıq edir. Hazırda isə arzumuz uşaq bağçası və həyətimizin kiçik sakinləri üçün oyun meydançasının yaradılmasıdır".

Bağban tək yaşadığı üçün tez-tez özü kimi tənha yaşayan qonşularını evinə dəvət edir. Bayramlarda, xoş günlərdə süfrə arxasında əyləşib birgə şadlanırlar: "Yemək bişirməyi yaxşı bacardığımdan dostlarımı da hazırladığım yeməklərə qonaq etməyi sevirəm. Bu kimi işlər mənə özümü daha da faydalı hiss etdirir".

"Məzun evi" böyükürəkli insanların yaşadığı kiçik bir şəhərcikdir. Buraya hər kəs keşməkeşli həyatdan adlayıb gəlsə də, ən böyük sevinclərini də elə burada - öz açarlarını çevirib qapısını açaraq mənzillərinə daxil olduqları zaman yaşayırlar.

Bəlkə də, divarların dili olsaydı, ilk dəfə həyəcanlı, tələm-tələsik gəzilən otaqlarda saniyələr içərisində yaşanılan bütün hissləri etiraf edərdi. Fəqət həmin anları illər keçsə belə xatırlayıb danışan hər bir sakinin işıldayan gözlərindən asanlıqla oxumaq olurdu.

*Aydan XƏLİLOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*




# Sənətin və sənətkarların hamisi

## Milli sərvətimiz olan muğamın yaşaması və sevilməsi Mehriban Əliyevanın əvəzsiz xidmətidir

**Muğam ruhumuzun nəğməsidir. Muğamda sevgi, kədər, həsrət,vüsal, qəhrəmanlıq, bir sözlə, bütöv bir xalqın tarixi, milli xüsusiyyəti, əxlaqı, milli düşüncəsi var... Muğam həm oddur, həm də sudur. İnsanın ürəyinə od da sala bilir, qəlbinə sərinlik də gətirir... Muğam Tanrının yaratdığı ən gözəl rəngdir, al-əlvanlıq rəmzidir, füsünkar təbiət mənzərəsidir, gözəl bir seyrəngahdır. O, milli-mənəvi sərvətimiz, millətimizin genetik kodu, nur çeşməsidir. Ucalıq məqamı... Ən nəhayət, könülləri riqqətə gətirən, qəlbə rahatlıq verən musiqidir.**

Muğamdan söz düşəndə, onun bəhrələrini dinləyəndə istər-istəməz milli mədəniyyətimizin hamisi Birinci vitse-prezident, Heydər Əliyev Fondunun rəhbəri Mehriban xanım Əliyeva yada düşür, musiqimizin, incəsənətimizin dünyaya tanıdılması istiqamətində gördüyü çoxşaxəli fəaliyyəti göz önündə canlanır.

Muğama hər zaman fərqli münasibət olub. Onu keçmişin qalığı adlandıranlar da olub, onu ruhun musiqisi hesab edənlər də... Heç şübhəsiz ki, min illərin yaddaşından süzülüb gələn muğam xalqımızın qan yaddaşı, ruhumuzun qidası, milli mənəvi sərvətidir. Məşhur muğam ifaçısı, həm də bilicisi, Əməkdar incəsənət xadimi, Milli Konservatoriyanın Muğam kafedrasının baş müəllimi qocaman xanəndə Aqil Məlikov söhbət əsnasında dedi:

- Muğam məqam deməkdir. Bir pərdənin başlanğıcıdır. Allah insanı kamilləşdirmək üçün ona dil verdi, şeir, musiqi göndərdi. Muğam düşünmək, anlamaq üçündür. Muğam hissin yox, ağlın, düşüncənin məhsuludur. Muğamat elmdir. Onu gərək elmli adamlar oxusun. Sufilər hesab edirlər ki, Allaha yetişmək üçün 4 əsas şərt var: şəriət, təriqət, mərifət, həqiqət! Muğamda bunların hamısı var. Muğam tərbiyə vasitəsidir, insanın mənəvi dünyasını zənginləşdirən, kamilliyə aparan yoldur. Çox şükürlər olsun ki, bu gün belə bir mənəvi xəzinəni qoruyan, onun gələcək nəsillərə çatdırılması və dünyada tanıdılması üçün fədakarlıq edən Mehriban xanım Əliyeva var. Bu gün çəkinmədən iftixarla deyə bilərik ki, Azərbaycan muğamının Bəşəriyyətin Qeyri-Maddi Mədəni İrsinin Reprezentativ Siyahısına salınması Mehriban xanımın zəhməti sayəsində mümkün olmuşdur. Muğamımızın bugünkü inkişafına görə biz muğamsevərlər, bu sənətin xiridarları Mehriban Əliyevaya borcluyuq. Hesab edirəm ki, respublikanın birinci xanımı muğamımızın inkişafına xüsusi diqqət və qayğı göstərməklə kamilliyə, müdrikliyə gedən yola hamılik edir. Mehriban Əliyeva milli-mənəvi dəyərlərin qoruyucusu, insanı müdrikliyə aparan yolun yolgöstərənidir.

Xatırladaq ki, 2008-ci ildə birinci xanım Mehriban Əliyeva Bakının mərkəzində Beynəlxalq Muğam Mərkəzinin tikilməsinə nail olmaqla çağdaş dünyamızın mədəniyyət tarixinin ən mühüm hadisələrindən birinə müəlliflik etdi. Muğam çox olkələrdə oxunsa da, əksər xalqların mədəniyyətində onun nişanələri öz əksini tapsa da dünya musiqisevərləri bu sənətin qibləgahının Azərbaycan olduğu qənaətindədirlər. Təbii ki, bu, heç də asanlıqla əldə olunmuş nailiyyət deyil. Bu, Mehriban xanım Əliyevanın fədakarlığı nəticəsində qazanılmış uğurdur. Təsadüfi deyil ki, dünyada "Muğam" adlı, muğama xitab edən, ona üz tutan, yeganə jurnal yalnız Azərbaycanda nəşr olunur. Bu jurnalın yaradıcısı, naşiri, ilk müəllifi də Mehriban xanımdır.

Qocaman xanəndə Aqil Məlikov deyir ki, Azərbaycan xalq musiqisi praktikasında yeddi əsas lad, yaxud muğam var. Muğam və ya muğamat - mürəkkəb ideya, emosional məna daşıyan, dərin və bitkin təfəkkür, bədii həyəcan və müxtəlif musiqi obrazlarının inkişafını ifadə edən musiqi janrıdır və o, yarandığı ən qədim zamanlardan başlayaraq əsrlərboyu davam edən tədrici inkişaf və təkamül prosesi nəticəsində yetkinləşmiş, formalaşmış, kamilləşmişdir. Azərbaycanda muğamı, adətən, muğam üçlüyünün müşayiəti ilə xanəndə ifa edir. Belə ansamblın ifa etdiyi vokal instrumental bütöv muğam dəsgahı adlanır. Dəsgah muğamın küll halında, yəni onun dəramədinin, bütün şöbə və guşələrinin, eləcə də hər şöbənin təsnif və rəng, yaxud diringələrinin ardıcıl ifa olunması deməkdir.

Xalq artisti, xanəndə Mənsum İbrahimov deyir ki, muğam bizim milli kimliyimizdir: "Yüz illərdən süzülüb gələn tükənməyən milli sərvətimizdir. Hər zaman Azərbaycan müsiqisinin əsasını muğam və aşıq sənəti təşkil edib. Bütün musiqilər muğamın üstündə qurulub. Təsadüfi deyil ki, böyük Üzeyir bəy Hacıbəyli Şərqin ilk operası "Leyli və Məcnun"u muğam üstündə yazıb və onu bütün dünyaya təqdim edib. Eyni zamanda bizim böyük bəstəkarlarımız Fikrət Əmirov, Niyazi, Vasif Adıgözəlov, Süleyman Ələsgərov simfonik muğamlar yazmışlar. Bu əsərlər sevilərək bütün dünyada səslənir. Muğam qədim olduğu qədər də müasirdir. Vaqif Mustafazadənin muğamı cazla sintez etməsi dünya musiqi sənətində bir hadisə idi. Muğam dünyanı sülhə səsləyən bir musiqidir. 1925-ci ildə Üzeyir bəy Hacıbəyli muğamın proqramını tərtib edib.

Muğama dövlətimiz tərəfindən həmişə xüsusi diqqət, qayğı olub. Ölkəmizdə hazırda üçpilləli tədris sistemi var. Uşaq musiqi məktəbi, musiqi kolleci və Milli Konservatoriyada muğam tədris olunur. Heydər Əliyev Fondu yarandığı gündən mən deyərdim ki, muğamımızın ikinci, əsas inkişaf dövrü başlanmışdır. Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2005-ci ildən başlayaraq ölkəmizdə Muğam Televiziya müsabiqələrinə start verilib. İndiyə kimi 8 dəfə muğam televiziya müsabiqəsi 6 Beynəlxalq Muğam Festivalı və müsabiqəsi keçirilib. Əlbəttə ki, bu müsabiqələrin nəticəsi olaraq yeni ifaçılar muğam sənətinə gəlmişlər. Muğamımızın inkişafında, muğam ifaçılarına göstərilən diqqət və qayğıya görə mən Mehriban xanım Əliyevaya xüsusi olaraq təşəkkür etmək istəyirəm. Heç kimə sirr deyil ki, ölkəmizin birinci xanımı muğamımızın, mənəvi dünyamızın hamisidir".

Mənsum İbrahimov VIII Muğam Müsabiqəsindən xüsusi olaraq danışdı. Dedi ki, musiqi, muğam ifaçılığı tarixində bu müsabiqənin ayrıca yeri var. Bizim Qarabağ zəfərimizdən sonra muğam müsabiqəsinə musiqi beşiyi olan Şuşada yekun vuruldu. Bunun isə xüsusi mənası var. 44 günlük Vətən müharibəsində ordumuz Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə tarix yazaraq ulu torpaqlarımızı düşməndən geri aldı. Ən önəmlisi budur ki, bu müsabiqənin finalı Şuşada Cıdır düzündə keçirildi. Çox möhtəşəm qürurverici bir mənzərə idi. Təbii ki, Şuşada həmişə çal-çağır olub. Şuşa bizim mədəniyyət paytaxtımız, qürur mənbəyimizin ünvanı olub. Bu torpaq korifey sənətkarların doğulub yetişdiyi torpaqdır. Muğamımızın dünyada məşhurlaşmasında xidmətləri olan insanlar orada dünyaya gəliblər. Bu torpaq dünya musiqisinə dahi Üzeyir bəy kimi şəxsiyyət bəxş edib. Sözsüz ki, Şuşada muğam müsabiqəsi keçirilən gün onların ruhu şad idi. Cıdır düzündən muğamımızın səsi bütün Qarabağa yayılırdı. Artıq Şuşadan güllə səsi deyil, muğamımızın xoş avazı gəlirdi. Bu torpağı azad edən əsgərlərimiz bizim muğamımızı dinləyirdilər. Bütün bu işlərə görə biz Mehriban xanıma minnətdarıq. Azərbaycanın Birinci vitse-prezidenti muğamımızı inkişaf etdirməklə bizi kamilliyə aparan yola hamilik edir. Bu gün muğamımız intibah dövrünü yaşayır.

Hələ ötən əsrin 70-ci illərinin əvvəllərində Sovet İttifaqında UNESCO-nun himayəsi ilə keçirilən ənənəvi beynəlxalq musiqi festivallarında Qərb dünyası Azərbaycan muğamının heyranlığını yaşamışdı. 1971-ci ildə UNESCO-nun 50 albomdan ibarət "Dünya ənənəvi musiqi antologiyası" kolleksiyasına "Şərqin musiqi antologiyası" seriyasında çıxan "Azərbaycan musiqisi" valları daxil edilmişdir. 1975-ci ildə Azərbaycan muğamları yenə də UNESCO tərəfindən "Musiqi mənbələri" seriyasında dünyaya təqdim olunmuşdur. Dünyaşöhrətli rejissor Andrey Tarkovski 1973-cü ildə çəkdiyi və dövrünün məşhur filmlərindən olan "Stalker" filminin musiqisinə Azərbaycan muğamından bir parça daxil etmişdir.

Mütəxəssislər hesab edirlər ki, bu gün Azərbaycan muğamı dünya musiqisinə, mədəniyyətinə tam inteqrasıya edib, özünün intibah dövrünü yaşayır. Dünyanın ən böyük kino şirkətlərinin, "Hollivud"un çəkdiyi filmlərdə muğamımızın müxtəlif bölmələrindən, xüsusilə "Çahargah"dan istifadə olunduğunu görürük. Məşhur cazmenlər böyük ustalıqla Azərbaycan muğamından məharətlə istifadə etməklə tamaşaçıların qəlbinə yol açırlar. İnsanlığın kainatda tənhalıq hissini təmsil etməsi üçün və orada olan hər hansı inkişaf etmiş sivilizasiyanın tapılması məqsədilə NASA Voyacer qızıl plastinkaya Azərbaycan muğamını yerləşdirərək kosmosa göndərib.

Bu gün Beynəlxalq Muğam Günüdür. Beynəlxalq aləmdə öz sözünü demiş və uğur qazanmış bir gündür.

*Elşən QƏNİYEV,*
*"Azərbaycan"*

# Heydər Əliyev Fondunun humanizm və xeyriyyəçilik ənənələri

**Bir neçə gün öncə Prezident İlham Əliyevin, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın və ictimaiyyət nümayəndələrinin coşqusu ilə Bakının Dənizkənarı Milli Parkında dünyaşöhrətli müğənni Müslüm Maqomayevin abidəsinin açılışı və Heydər Əliyev Fondunun təşkilatçılığı ilə unudulmaz sənətkara həsr edilmiş xatirə gecəsinin keçirilməsi insanlar tərəfindən rəğbətlə qarşılandı. Dünyanın hansı ölkəsində, hansı şəhərində yaşamasından asılı olmayaraq, mədəniyyət və incəsənət xadimləri, musiqişünaslar, xüsusən də dünyaca məşhur müğənninin pərəstişkarları bu dəyərdən çox məmnun oldular.**



Digər bir nümunə: ötən ilin əvvəllərində Heydər Əliyev Fondunun layihələri sırasında böyük Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin paytaxtın görməli yerində heykəlinin ucaldılması milli kimliyimizə verilən ali dəyər kimi insanlarda xoş duyğular oyatdı. Heykəlin açılışında iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev çıxışı zamanı dedi: "Xeyriyyəçilik sahəsində Cənubi Qafqazda ən böyük təsisat Heydər Əliyev Fondudur. Heydər Əliyev Fondu 20 ilə yaxındır ki, yaradılmışdır və bütün bu illər ərzində fondun əsas məqsədi, vəzifəsi insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdir."

Ümummilli Lider Heydər Əliyevin ideyalarının həyata keçirilməsini özünün əsas fəaliyyət proqramı kimi qəbul edən Fonda 10 may 2004-cü ildən Mehriban xanım Əliyeva rəhbərlik edir. Ötən illər ərzində məhz Mehriban xanımın tövsiyə və təşkilatçılığı ilə ölkəmizdə müxtəlif sahələrdə, o cümlədən valideyn himayəsindən məhrum uşaqlara kömək, uşaq evlərinin, internat-məktəblərin abadlaşdırılması və maddi bazalarının yaxşılaşdırılması da daxil edilməklə təhsil, səhiyyə, mədəniyyət sahələrində irimiqyaslı proqramlar həyata keçirilib.

Humanizm, mərhəmət, vətənpərvərlik və xeyirxahlıq missiyası ilə ictimaiyyətdə böyük nüfuz qazanmış Heydər Əliyev Fondunun layihələri sırasında ölkəmizdə təhsil sisteminin inkişafı əsas yerlərdən birini tutur. Fondun rəhbərliyi altında neçə illər bundan öncə ölkəmizdə "Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı"nın hazırlanıb həyata keçirilməsi öz uğurlu bəhrəsini vermişdir. Xatırladaq ki, respublikamızdakı uşaq evləri və internat məktəblərindəki mövcud problemlərin həll olunmasına yönəldilən bu layihə fondun təhsil sahəsindəki fəaliyyətinin əsas istiqamətlərindən birinə çevrilmişdir. İlkin mərhələdə aparılmış monitorinqdən sonra uşaq müəssisələrində təhsil və sosial sahədə problemlərin həllinə yönələn 4 mühüm istiqamət: texniki dəstək, təhsil, səhiyyə və ictimai fəallıq prioritet kimi müəyyənləşdirilmişdir.

Heydər Əliyev Fondunun layihələri sırasında əsas istiqamətlərdən biri də gənc nəslin maariflənməsi və dünyada yüksək yerə layiq olmasıdır. Məhz bu məqsədlə fond bütün imkanlarından istifadə etməklə məktəb tikintisinə daha çox diqqət ayırır. Neçə illərdir Heydər Əliyev Fondunun təşəbbüsü ilə həyata keçirilən "Yeniləşən Azərbaycana yeni məktəb" proqramı tədris prosesinin günün tələbləri səviyyəsində qurulmasına imkan verən yeni məktəb binalarının inşasına istiqamətlənib. Layihə çərçivəsində paytaxtda və regionlarda dünya standartlarına cavab verən məktəb binaları inşa edilib, neçə-neçə məktəb cari və ya əsaslı təmir olunaraq müasir avadanlıq, istilik sistemi, zəngin kitabxana, əyani vəsait və kompüter avadanlığı ilə təchiz olunub.

"Təhsilə dəstək" layihəsi çərçivəsində hər yeni dərs ilinin əvvəlində məktəblilərə çanta və digər məktəb ləvazimatlarının verilməsi Heydər Əliyev Fondunun ənənəsidir. 2004-cü ildən başlayaraq fond hər il qaçqın və məcburi köçkün ailələrindən olan birinci sinif şagirdlərini, eləcə də Gürcüstanda yaşayan soydaşlarımızı yeni dərs ili ərəfəsində hədiyyə etdiyi çanta və dərs ləvazimatı ilə sevindirir. Rusiya paytaxtında və ayrı-ayrı şəhərlərdə fəaliyyət göstərən Azərbaycan məktəblərinə göstərilən müntəzəm qayğı da bu qəbildəndir.

Fondun son illərdəki başlıca fəaliyyət istiqamətlərindən biri də ölkənin təhsil problemlərinin həllində nüfuzlu beynəlxalq təşkilatlardan sayılan UNESCO-nun geniş imkanlarından səmərəli şəkildə faydalanmaqdan ibarət olub. Azərbaycanla UNESCO arasında bir neçə istiqamətdə əməkdaşlıq münasibətləri qurulub. Əlaqələr əsasən, "Təhsil hamı üçün" proqramını, "Assosiativ məktəblər", texniki-peşə sahəsində əməkdaşlıq, inklüziv təhsil layihəsi, ali məktəblərdə UNESCO kafedralarının yaradılması və digər sahələri əhatə edir. Butün bunların həyata keçirilməsində əsas məqsəd Heydər Əliyev ideyalarına layiqli xidmət, ölkəmizdə gələcək nəslin təlim-tərbiyəsinin lazımı səviyyədə qurulması, onların Azərbaycanın layiqli vətəndaşları kimi yetişməsi və mlli ruha söykənən vətənpərvərlik hissinin güclənməsidir.

Heydər Əliyev Fondunun səhiyyə sahəsində əks-səda doğuran layihələrindən biri "Diabetli uşaqlara ən yüksək qayğı"dır. Layihə çərçivəsində ölkəmizdə diabet xəstəliyinə düçar olmuş 14 yaşınadək uşaqlar müntəzəm olaraq lazımi miqdarda insulin preparatları və şprisqələmlərlə təmin edilirlər.

"Talassemiyasız həyat naminə" layihəsi isə bu xəstəliyin geniş yayıldığı ölkələrdən hesab olunan Azərbaycanda rəğbətlə qarşılanıb. Bu xəstəlikdən əziyyət çəkən uşaqların təhlükəsiz və keyfiyyətli qanla təmin olunması üçün donor xidmətinin inkişafı, bu istiqamətdə əhalinin maarifləndirilməsi, prenatal diaqnostika üsulu ilə xəstəliyin proqnozlaşdırılması məsələlərinə xüsusi diqqət yetirilir.

Heydər Əliyev Fondu öz fəaliyyəti çərçivəsində 2020-ci ilin sentyabrında başlanan və tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsində fəal çalışaraq Qələbə üçün öz töhfəsini verdi. Həm daxili, həm beynəlxalq arenada həqiqətləri çatdırmaq, ölkəmizə, xalqımıza haqq işində dəstək qazanmaq üçün mümkün olan hər şeyi etdi. Fondun əməkdaşları erməni işğalından azad olunmuş bölgələrdə səfərdə oldular. Fondun prezidenti kimi Mehriban xanım Əliyeva azad olunmuş ərazilərdə çəkilişlər edib öz sosial şəbəkə səhifəsində yaymaqla əsgər və zabitlərimizə, könüllü döyüşçülərimizə və bu yerlərə qayıtmaq həsrəti ilə yaşayan insanlara dəstək nümayiş etdirdi.

Heydər Əliyev Fondunun layihələri insan hüquqlarının qorunmasına, vətəndaş cəmiyyəti ideyalarının cəmiyyətdə daha da möhkəmlənməsinə, habelə cəza siyasətinin humanistləşdirilməsi prosesinə də öz töhfəsini verir. Ulu Öndər Heydər Əliyevin anadan olmasının 84-cü ildönümü münasibətilə 2007-ci ilin may ayında parlamentə təqdim edilən və reallaşan amnistiya aktı layihəsi buna bariz nümunədir. Amnistiya aktı nəticəsində azadlıqdan məhrumetmə qismində cəza çəkən məhkumlardan təqribən 1500 nəfər cəzaçəkmə müəssisələrindən azad edildi, habelə azadlıqdan məhrumetmə cəzası ilə bağlı olmayan cəzalara məhkum olunmuş təqribən 7500 nəfər şəxs cəzasından azad edildi.

Ümummilli Liderin humanist siyasətinə daim yüksək sədaqət nümayiş etdirən Heydər Əliyev Fondu daha sonra milli bayramımız olan Novruz bayramı münasibətilə növbəti amnistiya aktının layihəsini Milli Məclisə təqdim etdi. Nəticədə parlament və Prezident İlham Əliyev tərəfindən təsdiq edilən amnistiya aktına əsasən təqribən 9 min nəfər onun təsiri altına düşdü, 1700 məhkum azadlıqdan məhrumetmə yerlərindən azad edildi.

Heydər Əliyev Fondunun ötən dövrdə Azərbaycanın görkəmli alimlərinin, yazıçı və bəstəkarlarının yubileylərinin keçirilməsi, "Kitabi-Dədə Qorqud" dastanının 1300 illiyinin beynəlxalq miqyasda qeyd olunması, UNESCO-nun "Dünya irs siyahısı"na İçərişəhərin, Şirvanşahlar Saray Kompleksinin, Qobustan Qoruq Muzeyinin, Atəşgahın və digər tarixi abidələrin, habelə mədəni irs nümunələrinin daxil edilməsi Azərbaycan milli mədəniyyətinin dünya miqyasında təbliği sahəsində də xidmətləri diqqətəlayiqdir. Fond xalqın varlığını özündə yaşadan mənəvi-intellektual irsə həssaslıqla yanaşaraq onun dünya arenasında təbliğində fəal iştirak edir.

Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə son illər Azərbaycanda muğam sənətinin qorunması, inkişafı və təbliği sahəsində böyük işlər görülür. Azərbaycan muğamının UNESCO-nun bəşəriyyətin qeyri-maddi irsinin şah əsərləri siyahısına daxil olunması bilavasitə bu fəaliyyətin nəticəsidir.

Fondun milli mədəniyyətin təbliği sahəsində həyata keçirdiyi ən uğurlu layihələrdən biri də "Qarabağ xanəndələri" albomunun hazırlanması oldu. UNESCO xətti ilə hazırlanmış alboma bu adın seçilməsi bütün dünyaya Qarabağın əzəli və əbədi Azərbaycan torpağı, muğamın isə ən nadir nümunələrinin bu torpağa məxsus olduğu nümayiş etdirildi.

Heydər Əliyev Fondunun dəstəyi ilə mütəmadi olaraq Qəbələdə Beynəlxalq Musiqi Festivalı və pianoçuların müsabiqəsi keçirilir. 44 günlük Vətən müharibəsindən sonra Şuşada Heydər Əliyev Fondunun dəstəyi və təşkilatçılığı ilə keçirilən bu kimi mədəni-kütləvi tədbirlərin sayı aydan-aya artmaqdadır.

Fond Azərbaycanın hüdudlarından kənarda da uğurlu layihələr həyata keçirir, ümumbəşəri mədəniyyət abidələrinin bərpasında iştirak edir. Məsələn, dost və qardaş Pakistanda təhsil, səhiyyə və humanitar sahələrdə Heydər Əliyev Fondunun gerçəkləşdirdiyi layihələri bölgə xalqı yüksək qiymətləndirir. Qeyd edək ki, Pakistanda bir neçə məktəb tikintisi, talassemiya mərkəzinin yaradılması, su təchizatı sisteminin quraşdırılması, xeyriyyə tədbirlərinin keçirilməsi fondun adıyla bağlıdır və bu günədək yüzlərlə bu cür aksiyalar həyata keçirilib.

Fondun dəstəyi ilə Pakistanın bütün əyalətlərində səhiyyə, təhsil sahələrində silsilə humanitar yardımlar proqramı icra olunmuşdur. Zəlzələdən zərər çəkmiş Müzəffərabad şəhərində qızlar məktəbi inşa olunmuş, "Edhi Home" kimsəsizlər evlərində, "Akbar Care" Serebral İflic İnstitutunda, Lakki Marvat Uşaq və Qadın, Peşavar "Kulsum İnternational" klinikalarında "Hepatit B" virusuna qarşı peyvəndlər və müayinələr, habelə açıq ürək əməliyyatları aparılmış, Saif Fonduna maddi yardımlar edilmişdir. Həmzə Xeyriyyə Fonduna xüsusi qanköçürmə laboratoriyası ilə təchiz olunmuş "Suzuki" markalı təcili tibbi yardım avtomobili və minlərlə qanköçürmə paketi hədiyyə edilmişdir.

Xayber Göz Klinikasının yeni blokunun və gözləmə otaqlarının inşasına, İslamabadda Talassemiya Mərkəzinin tikintisinə maliyyə və texniki yardımlar göstərilmişdir. Bundan əlavə, Dera İsmail Xan bölgəsində "Heydər Əliyev su təchizatı", Qucarxanda "20 Yanvar şəhidləri su təchizatı" layihələri icra olunmuş və ərazidə yaşayan on minlərlə sakin içməli su ilə təmin edilmişdir.

Heydər Əliyev Fondunun təşkilatçılığı ilə Ramazan və Qurban bayramları ilə əlaqədar Pakistanın paytaxtı İslamabadda, Ravalpindi, Fayzalabad, Peşavər, Karaçi, Lahor şəhərlərində və müxtəlif əyalətlərdə əhalinin kasıb təbəqələri üçün iftar süfrələri təşkil olunmuş, həmçinin humanitar tədbirlər keçirilmiş, kimsəsiz uşaqlara və yaşlılara müxtəlif hədiyyələr təqdim edilmiş, qurbanlıqlar kəsilərək əhalinin kasıb təbəqəsinə paylanılmışdır. Həmçinin Pakistan İslam Respublikası Nazirlər Kabinetinin nəzdində fəaliyyət göstərən "Al-Farabi" Əlillər Evinə 120 ədəd əlil arabası və əlillərin reabilitasiyası üçün zəruri olan xüsusi avadanlıq və ləvazımatlar hədiyyə edilmişdir.

Heydər Əliyev Fondu bir-birindən dəyərli layihələri ilə bundan sonra da insan hüquq və azadlıqlarının keşiyində etibarlı dayanmaqla vətəndaş cəmiyyəti və hüquqi dövlət quruculuğu siyasətinə öz layiqli töhfəsini verəcəkdir.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Uğurlu idman missiyası




Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva təhsil, mədəniyyət, səhiyyə sahəsi ilə yanaşı, ölkəmizdə idmanın inkişafında da səmərəli, uğurlu fəaliyyəti ilə diqqət çəkib. I Avropa Oyunları, IV İslam Həmrəyliyi Oyunları və digər beynəlxalq yarışların təşkilati işlərinə rəhbərlik edən Mehriban xanım Əliyevanın ortaya qoyduğu nümunə Azərbaycanın həm də idman ölkəsi olduğunu dünyaya çatdırıb.

Bir sözlə, Azərbaycanın birinci xanımı idmana qayğı ilə yanaşması baxımından da çoxsaylı uğurların müəllifi olaraq tanınır.

## Gimnastikada yüksəliş mərhələsi

Mehriban xanım Əliyeva 2002-ci ilin oktyabrında Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçiləndən bu sahədə uğurlu inkişafın əsası qoyuldu. Mehriban xanımın əzmkar rəhbərliyi sayəsində Azərbaycan gimnastikasına olan münasibət istər ölkə daxilində, istərsə də dünyada əsaslı şəkildə dəyişdi.

Azərbaycanda gimnastikanın yaranma və inkişaf tarixi ötən əsrin 40-ci illərinə təsadüf edir. Bu idman növünün qısa müddət ərzində xeyli populyarlıq qazanması tezliklə təşkilatlanmaya təkan verib. 1956-cı ildə Azərbaycan Gimnastika Federasiyası (AGF) yaradılıb. Azərbaycan müstəqillik qazandıqdan sonra 1993-cü ildə milli federasiya Beynəlxalq Gimnastika Federasiyasına, 1996-cı ildə isə Avropa Gimnastika İttifaqına üzv qəbul olunub.

1990-cı illərin əvvəllərində idmanda baş verən tənəzzül gimnastikadan da yan ötməmişdi. Azərbaycan gimnastları beynəlxalq yarışlarda çox zəif çıxış edir, sonuncu yerləri tuturdular. Beynəlxalq gimnastika təşkilatları ilə əlaqələr yox dərəcəsində idi. 2002-ci ilin oktyabrında Azərbaycan Gimnastika Federasiyasının növbəti hesabat-seçki konfransı ərəfəsində real vəziyyət belə idi. Həmin il oktyabrın 7-də isə Mehriban xanım Əliyevanın Azərbaycan Gimnastika Federasiyasının prezidenti seçilməsindən sonra ölkəmizdə gimnastikanın yeni inkişaf mərhələsi başlandı. Gimnastika Federasiyasının yeni seçilmiş rəhbərliyi ilk növbədə ölkə gimnastikasının imkanlarını öyrəndi. Bundan sonra Azərbaycan Gimnastika Federasiyası öz gələcək fəaliyyət istiqamətlərini müəyyənləşdirdi. Bu istiqamətlər respublikada gimnastika bölmələrinin fəaliyyətini gücləndirmək, məşqlər üçün yaxşı şərait yaratmaq, Azərbaycan çempionatlarının yüksək səviyyədə təşkili və keçirilməsi, AGF-nin beynəlxalq əlaqələrinin qurulması, dünya və qitə federasiyaları ilə əməkdaşlığın gücləndirilməsi, Azərbaycanda bədii gimnastika üzrə beynəlxalq yarışların keçirilməsi, Afina Olimpiya Oyunlarına lisenziya qazanılması, respublikada gimnastika üzrə mütəxəssislərin, məşqçi və hakimlərin yetişdirilməsi, onların öz bilik və bacarıqlarının təkmilləşdirilməsi idi. Eyni zamanda respublikanın regionlarında gimnastika bölmələrinin yaradılması, yalnız bədii gimnastikanın deyil, digər növlərin də inkişaf etdirilməsi, Azərbaycan gimnastlarının beynəlxalq yarışlarda daha çox iştirakının təmin edilməsi, gimnastikanın maddi-texniki bazasının gücləndirilməsi, gimnastikanın təbliğ olunması qarşıya vəzifə qoyuldu.

Çox tezliklə gimnastika sahəsində mühüm canlanma hiss olunmağa başladı. Respublika çempionatlarının və birinciliklərinin təşkili və keçirilməsindəki çatışmazlıqlar tezliklə aradan qaldırıldı. İdmançıların beynəlxalq səviyyəli yarışlara qatılması üçün şərait yaradıldı. Məqsədyönlü və səmərəli fəaliyyət nəticəsində ölkə gimnastikası özünün yeni inkişaf mərhələsinə qədəm qoydu.

## Mötəbər turnirlərin dəyişilməz ünvanı

Azərbaycan Gimnastika Federasiyasının prezidenti Mehriban xanım Əliyeva Beynəlxalq Gimnastika Federasiyasına bədii gimnastika üzrə dünya kubokunun mərhələ yarışının Azərbaycanda keçirilməsi ilə bağlı müraciət etdi. Beynəlxalq Gimnastika Federasiyası Afinada keçirilmiş 74-cü konqresində dünya kubokunun "A" kateqoriyalı mərhələsinin 2003-cü ilin avqustunda Azərbaycanda keçirilməsi barədə qərar qəbul etdi. Belə mötəbər yarış ilk dəfə idi ki, Azərbaycana salınırdı. Bu, Azərbaycan gimnastikasının ölkənin müstəqilliyi illərində əldə etdiyi ilk böyük uğur oldu və bədii gimnastika tariximizə parlaq bir səhifə kimi yazıldı.

2003-cü ilin aprelində dünya kubokunun mərhələsinin təşkilinə hazırlıqla tanış olmaq üçün Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Bruno Qrandi, baş katib Norbert Buşe, baş katibin müavini Andre Quisbuhler və bədii gimnastika üzrə texniki komitənin rəhbəri xanım Egle Abruzzinidən ibarət nümayəndə heyəti Azərbaycana gəldi.

Beynəlxalq qurumun ölkəmizə gəlmiş nümayəndə heyəti səfər zamanı paytaxtın idman kompleksləri, gimnastikanın maddi-texniki bazası ilə tanış oldular. Bu tanışlıq mövcud şəraitin mötəbər beynəlxalq yarışın Azərbaycanda keçirilməsi üçün hər cür imkanın olduğuna qonaqları əmin etdi.

2003-cü ilin avqustunda Bakıda 17 ölkə təmsilçilərinin iştirak etdiyi bədii gimnastika üzrə dünya kubokunun mərhələsi çox yüksək səviyyədə keçdi. Azərbaycana gəlmiş qonaqlar və idmançılar ölkəmizdən xoş təəssüratlarla ayrıldılar.

Ümumiyyətlə, son 20 ildə Bakı bir çox beynəlxalq gimnastika yarışlarına ev-sahibliyi edib. 2004-cü ildə Heydər Əliyev adına İdman-Konsert Kompleksində bədii gimnastika üzrə dünya kubokunun mərhələ yarışı keçirildi. Dünya kuboku idman tariximizdə layiqli izlər qoydu.

2005-ci ilin mayında Bədii Gimnastika üzrə 27-ci Dünya Çempionatı Bakıda keçirildi. Həmin il Bakıda dünya kubokunda "A" kateqoriyasına malik AGF Kuboku uğrunda yarış da təşkil olundu.

Mehriban xanımın rəhbərliyi ilə 2007-ci ilin iyununda Bədii Gimnastika üzrə 23-cü Avropa Çempionatı da parlaq nəticələrlə Bakıda keçirildi. Yarışlarda dünyanın 32 ölkəsindən 186 gimnast iştirak etdi. 2014-cü ildə isə Bakı yeni tikilmiş Milli Gimnastika Arenasında 30-cu Avropa çempionatını qəbul etdi.Turnirdə qitənin 30 ölkəsindən 250-dən çox gimnast yarışdı.

2018-ci ildən bu günə kimi Bakıda idman gimnastikası üzə dünya kubokları, həmçinin batut gimnastikası, tamblinq və ikili-mini batut üzrə Avropa çempionatı, bədii gimnastika üzrə "AGF Junior Trophy" adlı beynəlxalq turnir, bədii gimnastika üzrə dünya kuboku və gənclər arasında Avropa üzrə Olimpiya Oyunlarına idman gimnastikası üzrə təsnifat yarışları təşkil edilib.

## Azərbaycan Avropa Oyunlarının standartını müəyyənləşdirdi

2015-ci ilə nəzər yetirdikdə isə, diqqətçəkən ən böyük idman hadisəsi, sözsüz ki, tarixdə ilk dəfə təşkil olunan Avropa Oyunlarının Bakıda keçirilməsi idi. Ölkəmiz 2 ildən çox davam etdirilən yüksəksəviyyəli hazırlıq işlərindən sonra Avropanın 50 ölkəsindən 6 mindən çox idmançının mübarizə apardığı bu idman yarışını layiqincə təşkil etməklə tək özünün deyil, "köhnə qitə"nin idman tarixinə möhürünü vurdu. Çünki indiyədək yalnız Avropa ölkələrinin təmsil olunduğu bu cür möhtəşəm idman yarışması keçirilməmişdi.

İlk Avropa Oyunlarının Bakıda keçirilməsi haqqında qərar 2012-ci il dekabrın 8-də Romada Avropa Olimpiya Komitəsinin (AOK) 41-ci Baş Assambleyasında qəbul edilib. AOK Baş Assambleyasının qərarı səsvermədə iştirak edən 48 nəfərdən 38-nin səs çoxluğu ilə qəbul edilib.

Prezident İlham Əliyev 2013-cü il 17 yanvarda "I Avropa Oyunlarının 2015-ci ildə Bakı şəhərində keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında" sərəncam imzalayıb. Sərəncama əsasən Heydər Əliyev Fondunun prezidenti, Azərbaycan Respublikası Milli Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvü, UNESCO və ICESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın sədrliyi ilə Bakı şəhərində I Avropa Oyunlarının keçirilməsi üzrə Təşkilat Komitəsi yaradılıb.





Bu tipli oyunlar üçün 7-8 il zaman verilsə də, Azərbaycanın Avropa Oyunlarına hazırlıq üçün cəmi iki il yarım vaxtı vardı. Olimpiadanın keçirilməsində böyük təcrübə mövcuddur və Beynəlxalq Olimpiya Komitəsi, demək olar ki, hər bir sahə üzrə öz göstərişlərini verir. Mövcud təlimatlarda hər bir istiqamət üzrə müəyyən edilmiş metodiki qaydalar var. I Avropa Oyunları üçün isə heç bir təlimat və təcrübə yox idi. Belə olan halda bütün məsuliyyət, təşkilati məsələlərin yoluna qoyulması Azərbaycanın öz üzərinə düşürdü.

Bu müddət ərzində Bakıda yeni infrastrukturun yaradılması və oyunların təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi hazırlıq işlərini göstərilən vaxtda yüksək səviyyədə başa çatdırıb.

AOK-un qəbul etdiyi qərardan keçən müddətdə oyunlara hazırlıq işlərinin sürəti və miqyası gözlənilməz səviyyədə artmışdı. Mehriban xanım Əliyevanın başçılıq etdiyi Təşkilat Komitəsinin apardığı gərgin və məqsədyönlü işin səmərəsi göz önündə idi. Avropa Oyunlarının keçiriləcəyi idman qurğularının tikintisi və təkmilləşdirilməsi işi dünya standartlarına uyğun və yüksək keyfiyyətlə aparılmışdı. Cəmi iki il yarımdan da az vaxtda 5 yeni idman kompleksi tikilərək istifadəyə verildi. Bunlar Bakı Olimpiya Stadionu, Milli Gimnastika Arenası, Bakı Atıcılıq Mərkəzi, Bakı Su İdmanı Sarayı və Veloparkdır.

Yarışların keçirildiyi digər idman qurğuları isə tamamilə yenidən quruldu, ən müasir standartlara uyğunlaşdırıldı. Qısa müddətdə bu qədər işin görülməsi, həqiqətən, gərgin və fədakar zəhmət tələb edirdi. Lakin ölkəmiz ən yüksək formada bunun öhdəsindən gəlməyi bacardı. Bakıda yeni infrastrukturun yaradılması və oyunların təşkili üzrə digər işlərin sürətlə həyata keçirilməsi göstərdi ki, Təşkilat Komitəsi hazırlıq işlərini göstərilən vaxtda yüksək səviyyədə başa çatdırmaqla misli görünməmiş bir uğura imza atdı.

Bu uğurların qazanılmasında, sözsüz ki, Avropa Oyunları Təşkilat Komitəsinin rəhbəri Mehriban xanım Əliyevanın xüsusi rolu vardı. Prezident İlham Əliyevin dediyi kimi, Təşkilat Komitəsi tərəfindən hər bir xırda məsələ ilə bağlı işlər yüksək səviyyədə görüldü. Mehriban Əliyeva bu oyunların keçirilməsinə çox böyük töhfə verdi. Dövlət başçısı Azərbaycan Respublikasında mədəniyyətin, təhsilin, səhiyyənin və idmanın inkişafında səmərəli fəaliyyətinə, Azərbaycan xalqının mədəni irsinin beynəlxalq miqyasda geniş təbliğinə və I Avropa Oyunlarının təşkilində böyük xidmətlərinə görə Mehriban xanım Əliyevanı "Heydər Əliyev" ordeni ilə təltif etdi.

## Uğur estafeti "Bakı-2017"də davam etdirildi

Mehriban xanım Əliyevanın "Bakı-2015" ilə başlatdığı uğur estafeti "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunlarında da davam etdi. 2017-ci ilin mayında paytaxtımız müsəlman aləminin idman mərkəzinə çevrildi. İslam dünyasının idman həyatı üçün əlamətdar olan "Bakı-2017" IV İslam Həmrəyliyi Oyunları çox böyük uğurla yekunlaşdı.

2015-ci il sentyabrın 18-də Prezident İlham Əliyev IV İslam Həmrəyliyi Oyunlarının Bakıda keçirilməsi üzrə Təşkilat Komitəsinin yaradılması haqqında sərəncam imzaladı. Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qarşıya qoyulan vəzifələri uğurla həyata keçirdi. Ölkə rəhbərliyinin diqqət və qayğısı, Təşkilat Komitəsinin yüksək təşkilatçılığı sayəsində IV İslam Həmrəyliyi Oyunlarının yüksək səviyyədə baş tutmasına lazımi şərait yaradıldı.

Təşkilat Komitəsinin 2 il ərzində məqsədyönlü fəaliyyəti digər təşkilatlara örnək oldu. Bakının 16 idman arenasının hər biri yarışlara yüksək səviyyədə hazırlandı və digər zəruri təşkilati tədbirlər həyata keçirildi. Müsəlman ölkələrinin federasiya nümayəndələri, ən yaxşı idmançıları, şəhərimizin qonaqları Bakıda aparılan hazırlıq işlərindən, onlar üçün yaradılan ideal şəraitdən, insanlarımızın qonaqpərvərliyindən, bir-birindən modern idman arenalarından, xüsusən də təntənəli açılış və bağlanış mərasimlərindən heyrətə gəlmişdilər.

## Uğurlu fəaliyyətə layiqli qiymət

IV İslam Həmrəyliyi Oyunlarının açılış mərasimi ərəfəsində isə Azərbaycan gimnastikası adına daha bir xoş xəbər gəldi. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Azərbaycan Gimnastika Federasiyasının prezidenti xanım Mehriban Əliyeva Beynəlxalq Gimnastika Federasiyasının (FIG) yüksək mükafatı ilə təltif olundu. Bu qərar FIG Şurasının Bakıda keçirilən iclasında qəbul edildi. 2020-ci ildə Tokioda keçirilən XXXII Yay Olimpiya Oyunlarına hazırlıq dövründə FIG-nin ali orqanlarının ilk dəfə Bakıda keçirilən bu iclasında Beynəlxalq Gimnastika Federasiyasının prezidenti Morinari Vatanabe və vitse-prezidentlər, Şuranın Konqres tərəfindən seçilmiş üzvləri, qitələrin gimnastika federasiyalarının, FIG-nin texniki komitələrinin prezidentləri və digər vəzifəli şəxslər iştirak etmişdilər.

Tədbirdə çıxış edən M.Vatanabe Azərbaycan Gimnastika Federasiyasının gördüyü işlərdən ətraflı söhbət açıb, gimnastikanın təbliği və inkişafı, ən müasir beynəlxalq standartlara uyğun gimnastika arenalarının tikintisi və təchizatı, idmançı və məşqçilərə göstərilən qayğı və onlar üçün yaradılan şərait, yarışların yüksək səviyyədə təşkili baxımından federasiyanın fəaliyyətini xüsusi qiymətləndirib. Azərbaycan Gimnastika Federasiyasının prezidenti, ölkənin Birinci vitse-prezidenti xanım Mehriban Əliyevanın olimpiya idman növü olan gimnastikanın inkişafındakı böyük xidmətlərinə görə FIG-nin yüksək mükafatı ilə təltif olunduğunu bildirib.

Beləliklə, I Avropa və IV İslam Həmrəyliyi oyunlarında Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Təşkilat Komitəsi qısa müddət ərzində ən yüksək təşkilatçılıq nümunəsini ortaya qoydu. Həmin oyunlar bütün məziyyətləri ilə müstəqil Azərbaycanı dünyaya yenidən tanıtdı, ölkəmizin təbliğində olduqca müstəsna rol oynadı. Bu baxımdan Mehriban xanım Əliyevanın ən yüksək mükafatlarla təltif olunması onun layiqli və mənəvi haqqıdır.

## "Konya-2021"də 17 medal

Gimnastlarımız Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında da uğurlu nəticələr əldə ediblər. Mötəbər yarışda 4 gimnastika növündə (bədii gimnastika, aerobika gimnastikası, kişi və qadın idman gimnastikası) çıxış edən təmsilçilərimiz ümumilikdə 17 medal (8 qızıl, 7 gümüş, 2 bürünc) qazanıblar.

Oyunlarda Güllü Ağalarzadə, Ləman Əlimuradova, Kamilla Əliyeva, Zeynəb Hümmətova, Yelizaveta Luzan və Darya Sorokinadan ibarət bədii gimnastika üzrə qrup hərəkətlərində komandamız 3 lent və 2 topla qızıl, 5 halqa ilə hərəkətlərin icrasında isə gümüş medal qazanıb.

Final mərhələsində fərdi proqramda mübarizə aparan təmsilçimiz İlona Zeynalova gürzlərlə 4-cü, lentlə hərəkətlərin icrasında 6-cı olub. Komandamızın digər üzvü Alina Gözəlova topla 4-cü, halqa ilə hərəkətlərin icrasında 7-ci pillədə qərarlaşıb. Bununla da bədii gimnastika üzrə yığma komandamızın üzvləri V İslam Həmrəyliyi Oyunlarını 8 medalla (5 qızıl, 2 gümüş, 1 bürünc) başa vurublar.

Oyunlarda aerobika gimnastikası üzrə təmsilçilərimiz də uğurlu çıxışları ilə yadda qalıblar. Belə ki, fərdi proqramda mübarizə aparan gimnastlarımız Vladimir Dolmatov qızıl, Mədinə Mustafayeva isə gümüş medala sahib çıxıb. Vladimir və Mədinə qarışıq cütlük proqramında bütün rəqiblərini üstələyərək çempion olublar. Təmsilçilərimiz M.Mustafayeva, V.Dolmatov və Xoşqədəm Quliyeva üçlük proqramda ikinci pillədə qərarlaşıblar. Bu növ üzrə komandamızın üzvləri oyunları 5 medalla (2 qızıl, 3 gümüş) başa vurublar.

Göründüyü kimi, bu gün Azərbaycanın beynəlxalq aləmdə idman ölkəsi kimi tanınmasını və mötəbər arenalarda bayrağımızın dalğalanmasını hamılıqla şərəf və qürur hissi ilə seyr ediriksə, bütün bu nailiyyətlərin təməlində məhz dövlətin uğurlu idman siyasəti dayanır.

Gənclik və idman bir-birini tamamlayan məfhumlardır. Müasir gənclərin hərtərəfli formalaşması, rəqabətə davamlı yetişdirilməsi məhz dövlətin uğurlu gənclər siyasətinin davamıdır. Gənclərimiz tək idmanda deyil, bütün sferalarda aktiv rolu ilə seçilir, ictimai-siyasi, sosial-iqtisadi sahələrdə də mühüm rol oynayırlar. Bütün bunlar Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın gənclərin fəaliyyəti üçün yaratdığı geniş imkanların, yüksək diqqət və qayğının nəticəsidir.

*Elçin CƏFƏROV, "Azərbaycan"*

## Baş nazir Əli Əsədov Çolpon-Ata şəhərində Qırğızıstan Prezidenti ilə görüşüb

Avqustun 25-də Qırğız Respublikasına işgüzar səfəri çərçivəsində Avrasiya Hökumətlərarası Şurasının iclasında qonaq qismində iştirak edən Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Çolpon-Ata şəhərində Qırğızıstan Prezidenti Sadır Japarov ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Qırğızıstan Prezidenti Sadır Japarov Baş nazir Əli Əsədovu və iclasın digər iştirakçılarını, o cümlədən Avrasiya Hökumətlərarası Şurasının üzvlərini və tədbirdə müşahidəçi və qonaq qismində iştirak edən dövlətlərin hökumət başçılarını salamladı.

Baş nazir Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin salamlarını Qırğızıstan Prezidentinə çatdırdı.

Ə.Əsədov həmçinin Azərbaycan-Qırğızıstan strateji tərəfdaşlığının ikitərəfli gündəliyində duran məsələlərə toxundu.



## Baş nazir Əli Əsədov Qırğızıstanın Baş nazirinin dəvəti ilə bu ölkəyə işgüzar səfər edib

Avqustun 25-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Qırğız Respublikası Nazirlər Kabinetinin sədri Akılbek Japarovun dəvəti ilə bu ölkəyə işgüzar səfər edib.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, səfər çərçivəsində Baş nazir Ə.Əsədov Çolpon-Ata şəhərində Avrasiya Hökumətlərarası Şurasının növbəti iclasında qonaq qismində iştirak edəcək, həmçinin bir sıra ölkələrin hökumət başçıları ilə ikitərəfli görüşlər keçirəcək.

## Azərbaycanın Baş naziri Çolpon-Ata şəhərində qırğızıstanlı həmkarı ilə görüşüb

Qırğız Respublikası Nazirlər Kabineti sədrinin dəvəti ilə bu ölkədə işgüzar səfərdə olan Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov avqustun 25-də Çolpon-Ata şəhərində qırğızıstanlı həmkarı Akılbek Japarovla görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycanla Qırğızıstan arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə olunub.

İkitərəfli münasibətlərin yüksək səviyyəyə çatmasında dövlət başçılarının qarşılıqlı səfərlərinin və bu səfərlər zamanı imzalanmış sənədlərin xüsusi önəm daşıdığı bildirilib. Bu baxımdan cari ilin aprel ayında Qırğızıstan Prezidentinin Azərbaycana rəsmi səfəri çərçivəsində dövlət başçıları tərəfindən imzalanmış "Azərbaycan Respublikası və Qırğız Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə"nin və digər sənədlərin iki ölkə arasında münasibətləri yeni səviyyəyə qaldıracağına əminlik ifadə edilib.

Görüşdə həmçinin Azərbaycan-Qırğızıstan qarşılıqlı faydalı əməkdaşlığının siyasi, ticari-iqtisadi, nəqliyyat-tranzit, kənd təsərrüfatı, humanitar, mədəni və digər sahələrdə daha da inkişaf etdirilməsi perspektivləri geniş müzakirə olunub.



## Baş nazir Əli Əsədov Belarusun Baş naziri Roman Qolovçenko ilə görüşüb

Qırğız Respublikasına işgüzar səfəri çərçivəsində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov avqustun 25-də Çolpon-Ata şəhərində Belarus Respublikasının Baş naziri Roman Qolovçenko ilə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə Belarus arasında müxtəlif sahələrdə əlaqələrin inkişafından məmnunluq ifadə edilib.

Həmçinin qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

## Baş nazir Əli Əsədovun Çolpon-Ata şəhərində Rusiya Hökumətinin sədri Mixail Mişustinlə görüşü olub

Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Qırğız Respublikasına işgüzar səfəri çərçivəsində avqustun 26-da Çolpon-Ata şəhərində Rusiya Federasiyası Hökumətinin sədri Mixail Mişustinlə görüşüb.



Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan-Rusiya dostluq münasibətlərinin müxtəlif sahələrdə uğurlu inkişafından məmnunluq ifadə olunub.

Hökumət başçıları ikitərəfli münasibətlərin gündəliyində duran aktual məsələləri müzakirə ediblər.

## Daxili işlər naziri Şəkidə vətəndaş qəbulu və sıra baxışı keçirib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına əsasən, daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov avqustun 25-də Şəki Şəhər-Rayon Polis Şöbəsində növbəti vətəndaş qəbulu keçirib.

Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, nazir qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin Şəki şəhərindəki abidəsini ziyarət edərək əziz xatirəsini böyük hörmət və ehtiramla yad edib, önünə gül dəstəsi qoyub.

Sonra Şəki Şəhər-Rayon Polis Şöbəsinin inzibati binasında Şəki, Balakən, Qax, Oğuz, Zaqatala və Qəbələ şəhər və rayonlarından gələn 162 vətəndaşı qəbul edən nazir onların müraciətlərini dinləyib, problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib.

Müraciətlərin əksəriyyəti yerindəcə həllini tapıb.

Qəbula gələn vətəndaşlar onların ərizə və müraciətlərinə operativ yanaşılmasına, o cümlədən göstərilən diqqətə və həssas münasibətə görə dövlət başçısına minnətdarlıq ediblər.

Bölgəyə səfəri çərçivəsində general-polkovnik V.Eyvazov polis orqanlarında vakant olan sıravi və kiçik rəis heyəti vəzifələrinə qəbulla bağlı sıra baxışı keçirib.

Sıra baxışında Şəki şəhəri və ətraf rayonlarda yaşayan, polis orqanlarında xidmət etmək arzusunda olan gənclər iştirak ediblər.

Xidmətə qəbulun şərtlərinə uyğun gələn 87 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb ki, onlardan da 23 nəfəri Vətən müharibəsi iştirakçısı, 2 nəfəri isə şəhid ailələrinin üzvüdür.

## Baş prokuror işğaldan azad edilmiş ərazilərdə fəaliyyət göstərən prokurorluqlarda olub

Avqustun 24-də baş prokuror Kamran Əliyev Baş Prokurorluğun rəhbər heyəti ilə birlikdə Şuşa, Xocavənd, Zəngilan və Qubadlı rayon prokurorluqlarının fəaliyyəti ilə yerində tanış olub.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, rayon prokurorluqlarının işğaldan azad edilmiş ərazilərdə növbətçilik əsasında fəaliyyət göstərmələri üçün ayrılmış inzibati binalarda yaradılan xidməti şəraitlə tanış olan baş prokuror əməkdaşlarla görüşlər keçirməklə onlara xidməti ərazilərində hüquq qaydasının möhkəmləndirilməsi, prokuror təsir tədbirlərindən istifadə edərək aidiyyəti dövlət qurumları ilə birlikdə aparılan quruculuq işlərinə dəstək göstərməklə bağlı tapşırıq və tövsiyələrini verib.

Həmçinin baş prokuror Kamran Əliyev və baş prokurorun müavini-Respublikanın Hərbi Prokuroru Xanlar Vəliyev Prezident İlham Əliyevin 1 aprel 2021-ci il tarixli "İşğaldan azad edilmiş ərazilərdə yeni hərbi prokurorluqların yaradılması haqqında" Sərəncamı əsasında yaradılmış Qubadlı Hərbi Prokurorluğunda olmaqla əməkdaşlarla görüşüb, onların xidmət və məişət şəraiti ilə maraqlanıb. Prokurorluğun əməkdaşları xidmətlərinin daha səmərəli və peşəkar təşkil edilməsi üçün yaradılan yüksək şəraitə, eləcə də müasir maddi-texniki təminata və təchizata görə Ali Baş Komandan İlham Əliyevə minnətdarlıqlarını bildiribər.

# "İrəli" İctimai Birliyinin 8-ci hesabat-seçki konfransı keçirilib



Avqustun 25-də "Nizami" Kino Mərkəzində "İrəli" İctimai Birliyinin 8-ci hesabat-seçki konfransı keçirilib.

Tədbirdən əvvəl Fəxri xiyabanda Ulu Öndər Heydər Əliyevin məzarı və Şəhidlər xiyabanı ziyarət olunub.

AZƏRTAC xəbər verir ki, 500-ə yaxın gəncin qatıldığı konfransda dövlət qurumlarının nümayəndələri, Milli Məclisin deputatları, gənclər və qeyri-hökumət təşkilatlarının rəhbər şəxsləri, media qurumlarının və ictimaiyyətin təmsilçiləri, qazilər iştirak ediblər.

Əvvəlcə hesabat konfransında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canından keçən qəhrəman Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla anılıb.

Birliyin Təşkilat komitəsinin sədri İlqar Axundov hesabat-seçki konfransının reqlamenti barədə məlumat verib.

Sonra konfransda 2020-2022-ci illərdə görülən işlərə və birliyin fəaliyyətinin yekunlarına dair hesabat xarakterli videoçarx nümayiş etdirilib.

Hesabat-seçki konfransında "İrəli" İctimai Birliyinin sədri, Vətən müharibəsinin iştirakçısı Şahin Rəhmanlı qurumun son iki ildəki fəaliyyətinə dair hesabat məruzəsi ilə çıxış edib.

İdarə Heyətinin sədri dövlət gənclər siyasətinin Azərbaycan gənclərinə yaratdığı əvəzsiz imkanlara, eləcə də onlara göstərilən diqqət və qayğıya görə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə təşkilatın üzvləri adından dərin minnətdarlığını bildirib. Azərbaycan gəncliyinin göstərilən yüksək etimadı doğrultmaq üçün bundan sonra da böyük şövq və əzmlə çalışacağını bəyan edib. Diqqətə çatdırılıb ki, təşkilat tərəfindən son iki ildə 53 layihə həyata keçirilib. Bu layihələrdə 26 min 247 nəfər birbaşa olaraq iştirak edib. Bununla yanaşı, 278 tədbir, 208 təlim, 326 seminarın icrası uğurla başa çatdırılıb.

Birliyin media qurumları ilə sıx əməkdaşlıq etdiyini bildirən Ş.Rəhmanlı qeyd edib ki, 2020-ci ilin mayından cari ilin avqustunadək mətbuatda 924 xəbər dərc olunub, ümumilikdə 1 milyon 63 min 130 baxış qeydə alınıb.

Gənclər və İdman Nazirliyinin Gənclərlə iş şöbəsinin müdiri Fuad Babayev, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin icraçı direktoru Aygün Əliyeva, YAP Gənclər Birliyinin sədri Bəxtiyar İslamov, Milli Məclisin deputatı Vüqar İskəndərov, Gənclər Fondunun Gənclər təşkilatları ilə iş şöbəsinin müdiri Faiq Məmmədov çıxışlarında təşkilatın son seçki ili ərzindəki fəaliyyətini yüksək qiymətləndiriblər.

İdarə Heyəti sədrinin hesabatı dinlənildikdən sonra konfransın təşkilat komitəsinin sədri çıxış edərək birliyin hesabatı, yeni tərkibdə İdarə Heyəti və onun sədrinin ümumi yığıncağın iştirakçıları tərəfindən seçilməsi barədə məlumat verib. Səsvermə qaydaları elan olunduqdan sonra səsvermə keçirilib, İdarə Heyəti sədrinin hesabatı qəbul edilib.

Daha sonra yığıncaqda təşkilatın yeni tərkibdə İdarə Heyətinin seçilməsi məsələsi müzakirə olunub. Namizədlərin adları elan edildikdən sonra İdarə Heyətinə seçkilər keçirilib. Şahin Rəhmanlı, Azər Əmirov, Elvin Səhətbəyli, Fatimə Məsimli, Anar Qurbanov, Kənan Əliyev, Orxan Rüstəmov, Ramtiq Alızadə və Gövhər Ağazadə Birliyin İdarə Heyətinin üzvləri seçiliblər.

"İrəli" İctimai Birliyinin yeni tərkibdə İdarə Heyəti formalaşdıqdan sonra sədr vəzifəsinə namizədlərin adları elan olunaraq seçkilər keçirilib. Şahin Rəhmanlı yenidən iki il müddətinə təşkilatın İdarə Heyətinin rəhbəri seçilib.

Şahin Rəhmanlı göstərilən etimada görə birlik üzvlərinə təşəkkürünü bildirib, bundan sonra da gənclərin hərtərəfli inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini vurğulayıb.

Qeyd edək ki, 8-ci hesabat-seçki konfransı təşkilati strategiya üzrə növbəti iki ildə nəzərdə tutulan layihə və tədbirlərin planlaşdırılması baxımından olduqca böyük əhəmiyyət daşıyır.

Xatırladaq ki, "İrəli" İctimai Birliyi 2003-cü il avqustun 26-da ümumrespublika gənclər hərəkatı kimi fəaliyyətə başlayıb, 2008-ci ildə dekabrın 24-də isə gənclər təşkilatı olaraq təsis edilib. Təşkilatın əsas məqsədi sağlam, vətənpərvər və rəqabətədavamlı gənclər şəbəkəsi yaratmaqla dövlət gənclər siyasətinə töhfə verməkdir.

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2022-ci ilin sentyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumu | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|
| **Xaçmaz** | Xaçmaz, Quba, Qusar | **Baş prokuror** Kamran Əliyev | 02 |
| **Qəbələ** | Qəbələ, Oğuz | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | 05 |
| **Siyəzən** | Siyəzən, Şabran, Xızı | **Baş prokuror** Kamran Əliyev | 08 |
| **Abşeron** | Abşeron, Zəngilan | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | 08 |
| **Qax** | Qax, Şəki, Zaqatala, Balakən, Oğuz, Qəbələ | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | 09 |
| **Şəki** | Şəki, Qax, Zaqatala, Balakən | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | 09 |
| **Ağdaş** | Ağdaş, Göyçay | **Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-nin sədri** Zaur Mikayılov | 09 |
| **Salyan** | Salyan, Neftçala | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | 09 |
| **Zaqatala** | Zaqatala, Qax | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | 12 |
| **Kürdəmir** | Kürdəmir, Ucar, Göyçay, Zərdab | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | 14 |
| **Sabirabad** | Sabirabad, Saatlı, İmişli, Kürdəmir | **Ali Məhkəmənin sədri** Ramiz Rzayev | 16 |
| **Zaqatala** | Zaqatala, Balakən, Qax | **Ədliyyə naziri** Fikrət Məmmədov | 16 |
| **Balakən** | Balakən, Zaqatala | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | 16 |
| **Masallı** | Masallı, Lənkəran, Astara, Lerik, Yardımlı | **Energetika naziri** Pərviz Şahbazov | 16 |
| **Hacıqabul** | Hacıqabul, Şirvan | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | 16 |
| **Qazax** | Qazax, Ağstafa, Tovuz | **Kənd təsərrüfatı naziri** İnam Kərimov | 16 |
| **Balakən** | Balakən, Zaqatala | **Dövlət Gömrük Komitəsi sədrinin vəzifəsini müvəqqəti icra edən** Şahin Bağırov | 16 |
| **Tərtər** | Tərtər, Ağdam, Ağcabədi, Bərdə | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Arzu Rəhimov | 22 |
| **Qax** | Qax, Balakən, Zaqatala | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | 22 |
| **Xızı** | Xızı, Siyəzən | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | 23 |
| **Yevlax** | Yevlax, Mingəçevir | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | 23 |
| **Ağdaş** | Ağdaş, Göyçay, Ucar, Zərdab | **Mədəniyyət naziri** Anar Kərimov | 23 |
| **Sabirabad** | Sabirabad, Saatlı, İmişli | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | 23 |
| **Qazax** | Qazax, Ağstafa, Tovuz | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | 23 |
| **Şəmkir** | Şəmkir, Gədəbəy | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | 23 |
| **Şəki** | Şəki, Qax | **Gənclər və idman naziri** Fərid Qayıbov | 24 |
| **Salyan** | Salyan, Şirvan, Hacıqabul, Neftçala, Biləsuvar | **Elm və təhsil naziri** Emin Əmrullayev | 28 |
| **Masallı** | Masallı, Yardımlı | **"Azərsu" ASC-nin sədrinin səlahiyyətlərini icra edən** Köçərli Həsənov | 28 |
| **Gəncə** | Gəncə, Samux, Göygöl, Daşkəsən, Şəmkir, Gədəbəy, Tovuz, Ağstafa, Qazax, Kəlbəcər | **Daxili işlər naziri** Vilayət Eyvazov | 30 |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Səyyar "ASAN xidmət" ilk dəfə Türkiyədə vətəndaşlarımıza xidmət göstərəcək

Avqustun 30-dan sentyabrın 4-dək Türkiyə Respublikasının Samsun şəhərində Aerokosmik və Texnologiya Festivalı (TEKNOFEST) günləri çərçivəsində Türkiyədə yaşayan azərbaycanlılara dövlət xidmətlərinin çatdırılması məqsədilə səyyar "ASAN xidmət" avtobusu vasitəsilə xidmət göstəriləcək.




Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, ölkə xaricində ilk dəfə gerçəkləşəcək səyyar "ASAN xidmət" Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin təşkilatçılığı, Diasporla İş üzrə Dövlət Komitəsinin dəstəyi və "ABB" ASC-nin maliyyə tərəfdaşlığı ilə təşkil olunur.

Xüsusi avadanlıqlarla təchiz olunmuş səyyar avtobus vasitəsilə vətəndaşlara göstəriləcək xidmətlər: şəxsiyyət vəsiqələrinin verilməsi və dəyişdirilməsi; ümumvətəndaş pasportlarının verilməsi və dəyişdirilməsi; sürücülük vəsiqələrinin dəyişdirilməsi; məhkumluq barədə arayışların verilməsi.

Vətəndaşlıq vəziyyəti aktlarının dövlət qeydiyyatı xidməti. Tərcümə xidmətləri: yazılı tərcümə; onlayn tərcümə; apostil sənədlərinin qəbulu; tərcümənin daxili möhürlə təsdiqi; eyniləşdirmə; redaktə; riraytinq; kopiraytinq.

Bildirilib ki, avqustun 30-dan sentyabrın 4-dək saat 10:00 - 18:00 aralığında təşkil ediləcək xidmətdən yararlanmaq üçün vətəndaşlarımız mütləq "Teknofest" ərazisinə daxil olmaq hüququ verən qeydiyyatdan keçməlidirlər.

Qeydiyyat üçün link: **https://www.t3kys.com/tr/teknofest/visitor/apply/**

Eyni zamanda Türkiyədə yaşayan Azərbaycan vətəndaşları https://seyyarasan.e-gov.az/ linkinə daxil olaraq özünə aid məlumatları (şəxsiyyət vəsiqəsi məlumatları, mobil nömrə və elektron poçt ünvanı) və almaq istədikləri xidməti qeyd edərək müraciətlərini öncədən gerçəkləşdirə bilərlər.

Səyyar "ASAN xidmət"in həyata keçirilməsinin əsas məqsədi dövlət xidmətlərinin vətəndaşlara daha rahat, yeni və innovativ üsullarla təqdim edilməsi, vətəndaşlar üçün əlçatanlığın təmini və vətəndaş məmnunluğuna nail olunmasıdır.

# Leyla ABDULLAYEVA: "Minsk qrupunun "reanimasiya"sı cəhdləri ABŞ-ın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən uzaqlaşması ilə nəticələnə bilər"

Amerika Birləşmiş Ştatlarının Dövlət katibi Antoni Blinkenin Qafqaz danışıqları üzrə baş məsləhətçi vəzifəsinə Filip Rikerin təyin olunmasına dair mətbuat bəyanatında bölgədəki postmünaqişə reallığından uzaq yanaşmanın sərgilənməsi təəccüb doğurur.

AZƏRTAC xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsinin rəhbəri Leyla Abdullayeva yerli KİV-in ABŞ-ın Dövlət katibi Antoni Blinkenin avqustun 24-də mətbuat bəyanatının şərh edilməsinə dair sorğusuna cavab olaraq bildirib.

L.Abdullayeva deyib: "Minsk qrupu ilə bağlı Azərbaycanın mövqeyi ən yüksək səviyyədə dəfələrlə və aydın şəkildə ifadə olunub.

Faktiki olaraq fəaliyyət göstərməyən Minsk qrupunun "reanimasiya" edilməsi cəhdləri ABŞ-ın Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması prosesindən uzaqlaşması ilə nəticələnə bilər.

Qarabağ münaqişəsi həll olunub və Qarabağ Azərbaycanın ayrılmaz tərkib hissəsidir. Beynəlxalq ictimaiyyət, o cümlədən tərəfdaşlarımız anlamalıdırlar ki, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşması üzrə danışıqların Qarabağ məsələsi ilə əlaqələndirilməsi heç də normallaşmaya xidmət etmir".

# Müdafiə Nazirliyi: "Mühəndis təminatı üzrə tədbirlərin icrası davam etdirilir"



Kəlbəcər və Laçın rayonlarında Azərbaycan Ordusunun bölmələri tərəfindən aparılan dəqiqləşdirmələr nəticəsində nəzarətə götürülən bir sıra strateji əhəmiyyətli hakim yüksəkliklərdə mühəndis təminatı üzrə tapşırıqların icrası davam etdirilir.



Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Mühəndis Qoşunlarının digər dövlət qurumları ilə qarşılıqlı fəaliyyəti nəticəsində mürəkkəb relyefli, o cümlədən çətin keçilən qayalıq ərazilərdə bölmələrin fəaliyyətini təmin etmək məqsədilə ümumilikdə 62 kilometrdən çox yeni təminat yolları çəkilib.

Azad edilən ərazi və hakim yüksəkliklərdə mühəndis təminatı üzrə həyata keçirilən zəruri tədbirlər yüksək peşəkarlıqla yerinə yetirilir.

# İŞİMİZ, GÜZƏRANIMIZ

**Bu ilin birinci yarısında Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan (BTC) əsas ixrac neft kəməri ilə təqribən 14,1 milyon ton (təxminən 107 milyon barel) xam neft və kondensat ixrac olunub. Kəmərin daşıdığı neftlə Ceyhan terminalında 148 tanker yüklənib və dünya bazarlarına yola salınıb.**




## BTC bütün regiona xeyir-bərəkət gətirir

### Belə qlobal layihələrdən kənarda qalması Ermənistanın iqtisadiyyatına böyük zərbədir

BTC-nin yaşı çox olmasa da, salnaməsi bir çox uğurlarla, əlamətdar hadisələrlə zəngindir. Bunlardan biri də cari il martın 23-də kəmərin Səngəçal terminalından başlayaraq Azərbaycanın, Gürcüstanın və Türkiyənin ərazisindən keçirməklə Ceyhan terminalına ixrac etdiyi neftin vurulduğu 5000-ci tankerin yola salınması olub.

2006-cı ilin ortalarında istismara veriləndən bu ilin ikinci rübünün sonunadək BTC ümumilikdə təqribən 516 milyon tondan çox (3,87 milyard barel) xam neft nəql edib və bu həcm Ceyhanda 5087 tankerə yüklənərək dünya bazarlarına göndərilib.

Hazırda BTC əsasən Azərbaycandan "Azəri-Çıraq-Günəşli" (AÇG) nefti və "Şahdəniz" kondensatı daşıyır. Bundan əlavə, kəmər vasitəsilə Xəzərin digər regional xam neft və kondensat həcmləri də nəql olunur.

Beş il əvvəl - 2017-ci il sentyabrın 17-də AÇG üzrə yeni, vaxtı uzadılmış saziş imzalanarkən Prezident İlham Əliyev demişdir: "Bu gün bizim abadlaşan bölgələrimiz, inkişaf edən ölkə, Bakı şəhəri, - dünyanın ən gözəl şəhərlərindən biridir, - tikdiyimiz 3 mindən artıq məktəb, 600-dən çox xəstəxana, bölgələrdə tikdiyimiz 50-dən çox olimpiya mərkəzi, inşa etdiyimiz 11 min kilometrdən çox yollar, enerji infrastrukturumuz, iqtisadi inkişafımız, iqtisadiyyatın şaxələndirilməsi - bütün bunların təməlində neftdən əldə edilən gəlirlərdən səmərəli istifadə etmə imkanlarımız dayanır".

İndi Azərbaycanda qeyri-neft sektoru getdikcə şaxələnməkdədir. Kənd təsərrüfatında, eləcə də digər sahələrdə nəzərəçarpan irəliləyişlər əldə olunub. Onların da əsasında neftdən əldə olunan gəlirlər dayanır.

Əlbəttə, ötən beş ildə sözügedən obyektlərin sayı daha da artmış, sosial-iqtisadi infrastruktur xeyli genişlənmişdir. Ən başlıcası, biz təxminən iki il əvvəl 30 ilə yaxındır torpaqlarımızı işğal altında saxlayan, onlara sahib çıxmağa can atan düşmənin, Prezidentimizin dediyi kimi, belini qırmışıq. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə güclü Azərbaycan Ordusu düşməni məğlub edib.

Dövlətimizin başçısı ordu quruculuğuna daim önəm verdiyini vurğulayarkən belə deyib: "Bizim vəsaitlərimiz olmasaydı, bunları haradan alacaqdıq. Bir ölkə varmı ki, bizə pulsuz, müftə nəsə verib. Belə bir ölkə yoxdur, heç vaxt da olmayıb, o cümlədən hərbi sahədə. Nəyi əldə etmişiksə, öz hesabımıza əldə etmişik. Əgər biz güclü iqtisadiyyat qurmasaydıq, əgər biz nəhəng neft-qaz layihələri icra etməsəydik, bu vəsaiti haradan alacaqdıq. Bütün bunlar bir-biri ilə bağlı olan məsələlərdir".

Azərbaycanın nəhəng neft-qaz və ixrac layihələri ölkə iqtisadiyyatının bel sütununu təşkil edərək digər vacib sahələrin inkişafına, xalqın maddi rifah halının getdikcə yüksəlməsinə xidmət edir. Konkret olaraq BTC bu gün təkcə Azərbaycana deyil, bütün regiona xeyir-bərəkət gətirir. Birbaşa gəlirlərindən əlavə, bu layihənin sosial proqramları var ki, onlar da xəttin keçdiyi üç ölkədə iqtisadiyyatın və digər sahələrin davamlı inkişafına dəstək verir. Bu sosial investisiya layihələri həyatanə təhsil proqramları, yerli icmalarda bacarıq və qabiliyyətlərin yaradılması vasitəsilə yeni imkanların açılması, icmalarda sosial infrastrukturun təkmilləşdirilməsi, maliyyə vəsaitlərinə çıxışın təmin edilməsi və təlim vasitəsilə yerli müəssisələrə dəstək, mədəni irs və idmanın inkişafına dəstək, eləcə də hökumət qurumlarına texniki yardım daxildir.

BTC kimi mühüm bir xəttin Ermənistandan yan keçməsi bu ölkənin həm siyasi imicinə, həm də əhalisinin güzəranına böyük zərbədir. Məlumdur ki, Ermənistan digər regional neft-qaz və nəqliyyat layihələrindən də kənarda qalıb. Əgər vaxtında işğalçılıq siyasətindən əl çəksə, başı vandalizmə, başqasının ata-baba torpağını zəbt etməyə qarışmasaydı, indi o da bu kəmərdən və digər layihələrimizdən bəhrələnərdi. Elə bu günün özündə görünür ki, Ermənistan ağılsızlıq ucbatından bütün yaxşı işlərə kənardan, düşdüyü iqtisadi dalandan seyrçi kimi baxmağa vərdişlidir...

Regional və qlobal layihələrdən kənarda qalması Ermənistanın iqtisadiyyatına həmişə böyük zərbə vurub və vuracaq.

Bir daha vurğulayaq ki, Azərbaycan mükəmməl beynəlxalq əməkdaşlıq və tərəfdaşlıq platforması yaradıb. Ölkəmiz bir çox qlobal layihələrin təşəbbüskarıdır və onları həmin əməkdaşlıq və tərəfdaşlıq şəraitində uğurla həyata keçirir. Yeri gəlmişkən, elə BTC-nin özündə 11 dünyaşöhrətli şirkət tərəfdaşlıq edir. Bunlar bp (30,10 faiz), SOCAR (25 faiz), MOL (8,90 faiz), "Ekvinor" (8,71faiz), TPAO (6,53 faiz), "Eni" (5 faiz), "TotalEnergies" (5 faiz), İTOÇU (3,40 faiz), İNPEKS (2,50 faiz), "EksonMobil" (2,50 faiz) və ONGCVideş (2,36 faiz) şirkətləridir.

Məhz AÇG-dən, BTC-dən başlayaraq Azərbaycan dövləti etibarlı tərəfdaş olduğunu bütün dünyaya təsdiq edib. Odur ki, indi də bizim ən müxtəlif layihələrimizə, o cümlədən bu gün çox aktual olan "yaşıl enerji" layihələrinə maraq göstərən şirkətlər, həm də böyük səriştəsi olan, dünyada tanınan şirkətlər çoxdur. Ermənistanın isə... nə layihələri var, nə də tərəfdaşları.

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## Ərəb portalı Naftalan yağının faydasından yazıb

**Ərəb ölkələrinin vahid "Attaqa" iqtisadiyyat portalında Azərbaycanın faydalı "Naftalan yağları" məhsulunun "Azexport" portalı vasitəsilə Küveytə ixracı və bu yağın ortopediya sahəsində müalicəvi əhəmiyyəti barədə məqalə dərc olunub.**

Məqalədə Azərbaycan Dövlət İnformasiya Agentliyinə - AZƏRTAC-a istinadla əsasən kosmetik vasitə kimi istifadə edilən "Naftalan yağları"nın Küveytə ixrac olunacağı, həmçinin bu məhsulun ilkin mərhələdə üç növdə ixracının nəzərdə tutulduğu bildirilir.

Həmçinin məqalədə Naftalan yağının müalicəvi əhəmiyyəti, bununla bağlı tanınmış ekspertlərin rəyləri yer alıb. Yazının müəllifi bu faydalı yağın ortopediya sahəsində müalicəsinin tarixindən də bəhs edib.

## KOBİM təlim keçirəcək

**Avqustun 30-da Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) Bakı KOB İnkişaf Mərkəzi (KOBİM) tərəfindən "Kənd təsərrüfatı mallarının sertifikatlaşdırılması və ixracı" mövzusunda təlim keçiriləcək.**

Təlimdə Bakı KOBİM-in eksperti Səid Namazov kənd təsərrüfatı subyektlərinin qeydiyyatı, yerli və beynəlxalq tələblər, sertifikatlaşdırma modelləri, məhsulun planlaşdırılması, spesifikasiyalar və məhsulların ixracı mövzularında məruzə edəcək.

## Bankomatların və POS-terminalların sayı artıb

**Bankların ödəniş xidməti şəbəkəsi üzrə dinamik artım müşahidə olunur. Belə ki, keçən ilin iyul ayının sonu ilə müqayisədə bankomatların sayı 4,2, POS-terminalların sayı 17,8 faiz artıb.**

İyulun 31-nə olan məlumata görə, fəaliyyət göstərən 26 bankın filiallarının sayı 480, şöbələrinin sayı 95, ATM-lərin sayı 2 min 944 olub. Hesabat ayında bank sektorunda çalışanların sayı 0,9 faiz (203 nəfər) artaraq 21 min 729 nəfər təşkil edib. Ümumilikdə cari ilin 7 ayında bank sektorunun işçi sayı 6,9 faiz və ya 1400 nəfər artıb.

## Neft bahalaşıb

**AZƏRTAC xəbər verir ki, dünya birjalarında neft qiymətləri bahalaşıb.**



Londonun ICE ("InterContinental Exchange Futures") birjasında "Brent" markalı neftin bir barelinin qiyməti 0,6 dollar artaraq 101,82 dollar, Nyu Yorkun NYMEX ("New York Mercantile Exchange") birjasında "Light" markalı neftin bir barelinin qiyməti isə 0,42 dollar bahalaşaraq 95,31 dollar olub.

## Borjomi bölgəsində baş verən yanğın Bakı-Tbilisi-Ceyhan neft kəmərinə təhlükə yaratmayıb

Gürcüstanın Borjomi bələdiyyəsi ərazisində 5 gündür davam edən meşə yanğınları Bakı-Tbilisi-Ceyhan neft kəmərinə təhlükə yaratmayıb.



AZƏRTAC xəbər verir ki, bu barədə jurnalistlərə Gürcüstanın daxili işlər naziri Vaxtanq Qomelauri məlumat verib. Onun sözlərinə görə, Gürcüstanda son beş gündə ilk dəfə olaraq meşə yanğınları azalıb. "Aviasiya mümkün olan ən yüksək səviyyədə çalışıb və nəticə göz qabağındadır, yanğın mənbəyi və onun yayılma sahəsi nisbətən azalıb", - deyə nazir vurğulayıb.

V.Qomelauri Türkiyəyə də yanğınların söndürülməsi üçün üç xüsusi təyyarə göndərdiyinə görə təşəkkür edib. Bildirib ki, Gürcüstanın helikopterləri gün ərzində güclü külək səbəbindən işləyə bilmədiyi üçün Türkiyənin yanğınsöndürən təyyarələri çox kömək ediblər.

## Aqrar Sığorta Fondunun bölgələrdə filialları fəaliyyətə başlayır

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2019-cu il 19 avqust tarixli fərmanı əsasında Aqrar Sığorta Fondu əhatə dairəsini genişləndirməkdədir. Dövlət dəstəyi ilə aqrar sığorta mexanizmini həyata keçirən fondun bölgələrdə filialları fəaliyyətə başlayır. Aqrar Sığorta Fondunun ilk filialı Göyçayda açılıb.

Şəhərin mərkəzində bütün fermerlərin rahat gəlib-gedəcəyi bir ünvanda - Natavan küçəsində fəaliyyətə başlayan filial fermerlərə müstəqil ekspertlərlə daha sıx və operativ əməkdaşlıq etmək imkanı yaradacaq.

Filialın açılış mərasimində çıxış edən Aqrar Sığorta Fondunun İdarə Heyətinin üzvü Roman Əmircanov bildirib ki, fondun bölgələrdə fəaliyyətə başlayacaq filialları fermerlərə aqrar sığorta sistemi ilə bağlı daha yaxşı xidmət göstərməyə, təsərrüfatlarda yaranan risklərə çevik reaksiya vermək imkanı yaradır.

Tədbirdə iştirak edən Göyçay Rayon İcra Hakimiyyətinin, Dövlət Aqrar İnkişaf Mərkəzinin nümayəndələri, fondla əməkdaşlıq edən sığorta şirkətlərinin təmsilçiləri, yerli fermerlər filialın açılışından məmnun olduqlarını, bundan sonra təsərrüfatlarını sığortalayanların sayının daha da artacağını bildiriblər.

Hazırda fond tərəfindən 48 məhsul və 29 risk üzrə sığorta təminatı təqdim olunmaqdadır. Bitkiçilik məhsulları bir çox risklərdən, o cümlədən dolu, fırtına, qasırğa, sel və ya subasma, leysan, ildırım, şaxtavurma (donvurma), normadan artıq yağan qar yağıntıları və sair hallardan sığortalanır. Kənd təsərrüfatı heyvanlarının sığortalandığı risklər siyahısı da olduqca genişdir. Bura yoluxucu xəstəliklər, ilan və həşərat sancması, təbii fəlakətlər, zəhərli otlar və yemlərdən zəhərlənmə, vəhşi heyvanların hücumu, təbii fəlakətlər və yanğın, məcburi kəsim və s. risklər aiddir.

ASF kommersiya məqsədi daşımayan və könüllülük prinsipi əsasında fəaliyyət göstərən bir mexanizmdir. Fermerlər əkin sahələri və kənd təsərrüfatı heyvanlarının sığortası üzrə sığorta haqlarını və ödənişləri Aqrar Sığorta Fondunun rəsmi internet səhifəsində "Bitkiçilik kalkulyatoru" və "Heyvandarlıq kalkulyatoru" bölmələrində hesablaya bilərlər. Fermerlərə dəstək məqsədilə hesablanmış sığorta haqqının 50 faizini dövlət ödəyir.

Fəaliyyət göstərdiyi qısa müddət ərzində aqrar sığorta sistemi ölkənin bütün bölgələrinə genişlənərək istehsal həcminin təxminən 95 faizini əhatə edə bilib.

Aqrar sığorta xidmətinin keyfiyyətini artırmaq, zərərlərinin qarşılanmasında istehsalçıların və fermerlərin məmnuniyyətini yüksəltmək, xidmətlərin daha əlçatan olması məqsədilə ilin sonuna qədər daha bir neçə bölgədə Aqrar Sığorta Fondunun filiallarının açılması nəzərdə tutulur.







## İyul ayında mülkiyyət hüququnun qeydiyyatı aparılan daşınmaz əmlak sayı 27 mini ötüb

**İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən daşınmaz əmlakın qeydiyyatı sahəsində həyata keçirilən innovativ addımlar vətəndaş məmnunluğunun yüksəldilməsinə xidmət edir.**

Tətbiq edilən yeniliklər, prosedurların sadələşdirilməsi daşınmaz əmlakın qeydiyyatının daha da aktivləşməsinə səbəb olub.

2022-ci ilin iyul ayı ərzində 27065 daşınmaz əmlak üzərində mülkiyyət hüququnun qeydiyyatı aparılıb. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 11,9 faiz çoxdur.

Aylıq göstəricinin 6311-i (23,3 faizi) ilkin, 20754-ü (76,7 faizi) isə təkrar qeydiyyatın payına düşür. Qeyd edək ki, ötən ilin eyni dövrü ilə müqayisədə, cari ilin iyul ayı ərzində ilkin qeydiyyat 26,8 faiz artıb.

Mülkiyyət hüquqlarının qeydiyyatı aparılan əmlaklardan 3994-ü fərdi yaşayış və bağ evi, 7790-ı mənzil, 14448-i torpaq sahəsi, 252-si qeyri-yaşayış binası, 520-si qeyri-yaşayış sahəsi, 59-u əmlak kompleksi, 2-si çoxmərtəbəli yaşayış binasıdır. Qeyd edək ki, cari ilin iyul ayı ərzində dövlət qeydiyyatına alınan daşınmaz əmlakların 27,6 faizi Bakı şəhərinin, qalanları isə bölgələrin payına düşür.

Dövlət başçısının "Torpaq münasibətlərinin tənzimlənməsi ilə bağlı bəzi məsələlər haqqında" 7 oktyabr 2021-ci il tarixli fərmanına uyğun olaraq mülkiyyət sənədləri ilə təmin edilməmiş pay torpaqlarının dövlət vəsaiti hesabına sənədləşdirilməsi ilkin qeydiyyat göstəricisinin daha yüksək olmasına imkan verib. Belə ki, ötən ilin eyni dövrü ilə müqayisədə cari ilin iyul ayı ərzində torpaq sahələrinin ilkin qeydiyyatı 2,1 dəfə artaraq 2539 olub.

Bu ilin iyul ayı ərzində 21367 daşınmaz əmlakın texniki inventarlaşdırılması aparılıb və texniki pasportu tərtib edilib. Bu isə ötən ilin eyni dövrü ilə müqayisədə 15,5 faiz artım deməkdir. 2022-ci ilin iyul ayı ərzində qeydiyyata alınan ipoteka müqaviləsinin sayı ötən ilin eyni dövrü ilə müqayisədə 41,5 faiz artaraq 5612 olub.

Qeyd edək ki, ümumilikdə 2022-ci ilin yanvar-iyul ayları ərzində 195597 daşınmaz əmlak üzərində mülkiyyət hüququnun qeydiyyatı aparılıb.

## Sahil qəsəbəsinin yolları abadlaşır

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən aparılan 2022-ci ilin "İnvestisiya proqramı"na uyğun olaraq, Qaradağ rayonunda küçə və yollar əsaslı təmir edilir.**

"İnvestisiya proqramı" çərçivəsində Qaradağ rayonunun Sahil qəsəbəsinin əsas yollarından biri - uzunluğu 3200, ortalama eni 14 metr olan Məhərrəm Seyidov küçəsinin təmiri davam edir.



Təmir çərçivəsində küçəboyu köhnə asfalt-beton örtüyünün üst qatı frezlənərək kənara daşınıb, zəruri olan yerlərdə yararsız qruntun qazılaraq çıxarılması, əks-dolğu işlərinin icrası ilə küçənin profilə salınması işləri görülüb.

Hazırda ərazidə mövcud piyada səkilərinin bərpası, kənarlarına yeni səki daşlarının düzülməsi və yeni asfalt-beton örtüyünün döşənməsi işləri aparılır. Bu istiqamətdə küçəboyu 2300 p/m yeni səki daşları düzülüb.

Son mərhələdə zəruri yol nişanları, üfüqi nişanlanma xətləri, piyada zolaqları ilə təmin olunaraq küçə müasir görkəmdə vətəndaşların istifadəsinə veriləcək.

Ümumilikdə cari ildə Qaradağ rayonunun Lökbatan, Qızıldaş, Sahil və Qobustan qəsəbələri üzrə təmiri aparılan küçələrin uzunluğu 19.6 km təşkil edir. Artıq bir çox küçədə təmir işləri yekunlaşıb.

Xatırladaq ki, 2021-ci ildə Qaradağ rayonunda ümumi uzunluğu 6.5 km olan küçə və yollarda təmir işləri aparılıb.

# Zəngilan Beynəlxalq Hava Limanında radiotexniki vasitələrin uçuş yoxlaması keçirilir





"Azərbaycan Hava Yolları" QSC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, Azərbaycanın işğaldan azad olunmuş ərazisində inşa edilən Zəngilan Beynəlxalq Hava Limanında uçuşların radiotexniki təminatı vasitələrinin uçuş yoxlamalarına başlanmışdır.

Uçuş yoxlaması ATR 42-500 biznes-sinif təyyarəsində quraşdırılmış və tam avtomatlaşdırılmış Aerodata AD-FIS-112 kompleksindən istifadə edilməklə həyata keçirilir.

Qeyd edək ki, AFİS (AeroFlightInspectionSystem) hava limanlarında enmə vasitələrinin və yerüstü radionaviqasiya sistemlərinin yoxlanılması üçün tətbiq olunan tam avtomatik müasir uçuş nəzarəti sistemidir.

Xatırladaq ki, inşa olunan Zəngilan Beynəlxalq Hava Limanının aeronaviqasiya təminatı üçün lazım olan bütün mühüm beynəlxalq kodlar və ICAO, EUROCONTROL və IATA çağırış siqnalları artıq təyin edilmişdir.

Bu kodlar və radiotezliklər hava hərəkətinə xidmətin təmin edilməsi, aviasiya meteoroloji məlumatının yayımlanması, rabitə, naviqasiya, radiolokasiya və digər sistemlərin istismara verilməsi üçün zəruridir.

Bunun sayəsində naviqasiya avadanlığının beynəlxalq sistemə inteqrasiyası və müvafiq olaraq beynəlxalq uçuşların təhlükəsizliyi və yerinə yetirilmə müntəzəmliyi təmin edilir.

Həmçinin Zəngilan Beynəlxalq Hava Limanının uçuşların aeronaviqasiya təminatı üzrə radiotexniki avadanlıqla təchiz olunması tam başa çatdırılmışdır.

Beynəlxalq standartlara uyğun olaraq hava limanında:

- CVOR/DME bucaqölçən və uzaqməsafəli radionaviqasiya avadanlığı quraşdırılmışdır;
- uçuş-enmə zolağında müşahidəni təmin etmək məqsədilə avtomatlaşdırılmış aviasiya meteoroloji sistemi (AWOS), ICAO CAT II kateqoriyası üzrə uçuşların təhlükəsizliyini təmin edən aerodrom işıq siqnalı avadanlığı və uçuş-enmə zolağının hər iki istiqamətində cihazlar üzrə enməyə dəxilolma sistemləri quraşdırılmışdır;
- avtomatlaşdırılmış HHİ sistemləri, aviasiya yerüstü və hava rabitəsi vasitələri, həmçinin dispetçer danışıqlarının qeydiyyatı ilə təchiz olunmuş hava hərəkətini idarəetmə qülləsi (HHİ) inşa edilmişdir;
- birinci və ikinci dərəcəli PSR/SSR kanalının radiolokasiya stansiyası quraşdırılmışdır;
- hava limanının elektrik təminatı yarımstansiyaları da inşa edilmişdir.

Zəngilan Beynəlxalq Hava Limanının cari ilin sentyabr ayında istismara verilməsi nəzərdə tutulur.




# OXUCULARIN NƏZƏRİNƏ!

*"Azərbaycan" qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -124,80** (yüz iyirmi dörd manat səksən qəpik) **manat**
**6 aylıq - 62,40** (altmış iki manat qırx qəpik) **manat**
**3 aylıq - 31,20** (otuz bir manat iyirmi qəpik) **manat**

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, **(012) 539-59-33** nömrəli telefona zəng vura bilərsiniz.*


*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi ümumtəhsil müəssisələrinə yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər.

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (01.08.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.08.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir);*
- *icraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 25.12.2022-ci il tarixinədək icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 20.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 28.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 29.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

*Təkrar*

## Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi məktəbəqədər təhsil müəssisələrinə yumşaq inventar, yataq ləvazimatları və xüsusi geyimlərin satın alınması məqsədilə tender elan edir

Tenderdə iştirak etmək istəyənlər 1100 (bir min bir yüz) manat məbləğdə iştirak haqqını aşağıda göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Y.Bakuvi küçəsi, 18 nömrəli ünvandan (əlaqələndirici şəxs-İlham Şixbabayev, tel: (+99412) 465 73 48) ala bilərlər.

**Təşkilat: Elm və Təhsil Nazirliyi Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi**
**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir ( 01.08.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı (bir ildən az müddətdə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən bank arayışı) (01.08.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçı tərəfindən doldurulmuş tenderin əsas şərtlər toplusunun "Malgöndərənlərin (podratçıların) ixtisas uyğunluğuna dair məlumat" cədvəli, təsdiqedici sənədlər əlavə olunmaqla (Əlavə 1);*
- *iddiaçının 2021-ci ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi orqanı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN xidmət" mərkəzlərindən alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər;*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır; ödəniş şərtləri, malların tam göndərilməsi (təhvil verilməsi) müddəti və mallar üçün təminat şərtləri barədə məlumatlar tender təklifinin tərkib hissəsi sayılaraq təqdim olunmalıdır);*
- *iddiaçının tender təklifinin bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır və tender təklifinin ümumi qiymətinin 1 (bir) faizini təşkil etməlidir);*
- *icraçı malların korlanmadan və zədələnmədən, sifarişçinin müəyyən etdiyi sonuncu təyinat məntəqəsinə qablaşdırma, markalanma və daşınmasını təmin etməlidir. Müqavilə imzalandığı tarixdən malların (iş və xidmətlərin) 100 (bir yüz) faizi ən geci 25.12.2022-ci il tarixinədək icraçı tərəfindən sifarişçiyə təhvil verilməsi başa çatdırılmalıdır.*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri 20.09.2022-ci il saat 16:00-dək, tender təklifi və tender təklifinin bank təminatını 28.09.2022-ci il saat 16:00-dək yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri 29.09.2022-ci il saat 16:00-da Elm və Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

## B İ L D İ R İ Ş

Azərbaycan Respublikasının Mərkəzi Bankı tərəfindən elan edilmiş Azərbaycan Respublikası Mərkəzi Bankının mərkəzi ofisi və Bakı şəhəri, Bülbül prospekti 27 ünvanında yerləşən inzibati binası üçün müxtəlif tipli kondisionerlərin və mərkəzi soyutma-isitmə tipli (VRV və ya VRF) sistemin təchizatı və quraşdırılması işlərinin satın alınması üzrə tender Satınalmalar komissiyasının 22 avqust 2022-ci il tarixli qərarı ilə "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununun 11.1-ci maddəsinə müvafiq olaraq baş tutmamış hesab edilmişdir.

***Satınalmalar komissiyası***

# Ölkə ərazisində sabit hava şəraiti davam edəcək

Azərbaycanda avqustun 26-na gözlənilən hava proqnozu açıqlanıb.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında hava yağmursuz keçəcək. Mülayim cənub-şərq küləyi əsəcək. Havanın temperaturu Abşeron yarımadasında gecə 19-24°, gündüz 33-36° isti, Bakıda gecə 20-22°, gündüz 33-35° isti olacaq. Atmosfer təzyiqi norma daxilində - 760 millimetr civə sütunu, nisbi rütubət gecə 55-65, gündüz 35-40 faiz təşkil edəcək.

Abşeron çimərliklərində gözlənilən hava şəraiti mülayim cənub-şərq küləyi əsəcək. Dəniz suyunun temperaturunun şimal çimərliklərində - Sumqayıt, Novxanı, Pirşağı, Nardaran, Bilgəh, Zuğulbada 25-26° isti, cənub çimərliklərində - Türkan, Hövsan, Sahil, Şıxda 26-27° isti olacağı proqnozlaşdırılır.

Azərbaycanın rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 32-37° isti, dağlarda gecə 9-14°, gündüz 20-25° isti olacağı gözlənilir.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 32-37° isti olacaq.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Ağdam, Daşkəsən, Gədəbəy rayonlarında hava əsasən yağmursuz keçəcək. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 20-25° isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz yüksək dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 10-15°, gündüz 20-25° isti olacağı bildirilir.

Gəncə şəhərində, Qazax, Goranboy, Tərtər, Füzuli rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 16-21°, gündüz 31-36° isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz yüksək dağlıq ərazilərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20°, gündüz 29-34° isti, dağlarda gecə 9-14°, gündüz 21-26° isti olacağı ehtimal var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Göyçay, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Beyləqan, Sabirabad, Biləsuvar, Saatlı, Hacıqabul, Salyan, Neftçala rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək, bəzi yerlərdə arabir sürətlənəcək. Havanın temperaturunun gecə 18-23°, gündüz 32-37° isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara rayonlarında hava yağmursuz keçəcək. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 17-22°, gündüz 29-34° isti, dağlarda gecə 11-16°, gündüz 23-28° isti olacaq.

## ALLAH RƏHMƏT ELƏSİN!

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin rəhbərliyi və kollektivi nazir müavini Rəhman Hümmətova atası

**DURSUN HÜMMƏTOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Aqrarkredit" Qapalı Səhmdar Cəmiyyəti Bank olmayan Kredit Təşkilatının İdarə Heyəti və kollektivi Əmanətlərin Sığortalanması Fondunun icraçı direktorunun müşaviri Bəhruz Qayıbova atası

**ƏLİ QAYIBOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | |
|---|---|
| Qəbul otağı | - 539-68-71, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, |
| Məsul katib | - 539-43-23, |
| Məsul katib müavinləri | - 539-44-91, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, |
| Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Kompüter mərkəzi | - 538-20-87, |
| Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 6372
Sifariş 2347
Qiyməti 40 qəpik